**İltifat Əliyarlı**



# AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR ORQANLARININ MİLLİ QƏHRƏMANLARI

X621
Ə 65

İLTİFAT ƏLİYARLI

# AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR ORQANLARININ MİLLİ QƏHRƏMANLARI

*(Qısa bioqrafik toplu)*

240442



M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

BAKI - MÜTƏRCİM - 2005

Azərbaycan Milli Kitabxanası

**İltifat Əliyarlı.** Azərbaycan Respublikası Daxili İşlər Orqanlarının Milli Qəhrəmanları. (Qısa bioqrafik toplu). - Bakı: Mütərcim, 2005. - 116 səh.

Kitabda Azərbaycanın müstəqillik qazanmasından sonra respublikamızın suverenliyi, ərazi bütövlüyü uğrunda erməni işğalçılarına qarşı döyüşlərdə, dövlətçiliyimizin müdafiəsi zamanı, həmçinin cinayətkarlıqla mübarizədə və ictimai təhlükəsizliyin mühafizəsində şəhid olmuş daxili işlər orqanlarının, habelə sağ qalmış (6 nəfər) və «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına layiq görülmüş 67 nəfər əməkdaşı haqqında qısa bioqrafik məlumatlar toplanmışdır. Kitab ilk növbədə Daxili İşlər Nazirliyi sistemində çalışan əməkdaşlar, DİN-in Polis Akademiyasının rəis-pedaqoji kontingenti və müdavimləri, habelə geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

$Ə \frac{4702060000}{026}$ 34-05

© Mütərcim, 2005

*Müstəqilliyimiz, suverenliyimiz, ərazi bütövlüyümüz uğrunda, dövlətçiliyimizin müdafiəsində və ictimai təhlükəsizliyin təmin edilməsində canlarını qurban vermiş Azərbaycan Respublikasının daxili işlər orqanlarının şəhid əməkdaşlarının əziz xatirəsinə ithaf edirəm.*



Azərbaycan Milli Kitabxanası

## MÜƏLLİFDƏN

*Sizlərə təqdim olunan bu kitabın yazılması hansı zərurətdən irəli gəlmişdir? Tələsməyin. İndicə edəcəyim aşağıdakı əsaslı izahatdan sonra hər şey aydın olacaq.*

*Məlumdur ki, ötən əsrin axırlarına doğru Yer Kürəsinin 1/6 hissəsini təşkil edən nəhəng bir imperiyada – 150-dən çox millət və xalqın «dost» olduğu Sovetlər İttifaqında vahid ideoloji inhisarlıq şəraitində yaşamış xalqımız dünyanın həmin superdövlətində artıq yetişmiş təbii ictimai-siyasi və milli ziddiyyətlərin çulğalaşdığı və dağılmağa qədəm qoyduğu bir tarixi şəraitdə, müstəqəl milli-azadlıq mübarizəsi nəticəsində XX yüzillikdə ikinci dəfə müstəqillik əldə etdikdə rus ifrat şovinist dairələrinin havadarlıq göstərdiyi əzəli düşmənimiz – bədnam ermənilər Vətən adlandırdığımız doğma yurdumuza qarşı tarixin müəyyən mərhələsində müvəqqəti öləzimiş ərazi iddiaları ilə yenidən, ancaq bu dəfə açıq şəkildə çıxışlara başladılar.*

*Ermənilərin tanınmış qatı millətçi ideoloq - liderləri (yazıçı Zori Balayan, şairə Silva Kaputikyan, akademiklər Ambarsumyan, Aqanbekyan) və dini ataları (Vazgen) Dağlıq Qarabağın və Naxçıvanın Ermənistana birləşdirilməsi tələbləri ilə haray qaldırmışdılar. 1988-ci il fevralın 13-də Xankəndindəki meydanda toplaşan izdihamlı mitinq iştirakçıları «Miatsum! («Azadlıq!»), «Miatsum!» («Azadlıq!») - bağırtıları altında qatı millətçilik, separatçı daşnak yuvası olan Yerevanın diqtəsi ilə oturub-durduqlarını daha gizlətmirdilər. Lakin 1988-ci ilin payızında xalqımız da artıq Milli Dirçəlişdə və torpaqlarını qorumaq iqtidarında olduğunu nümayiş etdirirdi.*



*Bundan təşvişə düşən, arvadı ermənilərə qohum çıxan, can verməkdə olan Sovet imperiyası adlanan dövlətin sonuncu formal prezidenti M.Qorbaçov öz istiqlaliyyətini qorumaq üçün kükrəyən xalqımızı cəzalandırmaq, gözünün odunu almaq və ona ibrət dərsi vermək məqsədilə xüsusi təyinatlı qoşunları Bakıya yeridib 20 Yanvar faciəsini törətdi. Al-qana boyanmış və şəhidlər vermiş əliyalın xalqımız bacardıqca müqavimət göstərdi. Millətimizin qabaqcıl nümayəndələri kəskin etirazla çıxış etdilər. O zaman Moskvada yaşayan xalqımızın böyük oğlu, ümummilli liderimiz, mərhum ulu öndərimiz Heydər Əliyevin M.Qorbaçovu və onun dəmtutanlarını kəskin ittiham edən qüdrətli səsi dünyanın hər yerinə yayıldı.*

*...1989-cu il sentyabrın 23-də Azərbaycan Ali Sovetinin Sessiyası tərəfindən «Azərbaycan SSR-in Suverenliyi haqqında» Konstitusiya Qanununun, 1991-ci il oktyabrın 18-də «Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında» Konstitusiya Aktının qəbul edilməsi xalqımızın istiqlaliyyətini rəsmi surətdə təsdiq və bəyan edən çox mühüm taleyüklü hadisələr və hüquqi qanunvericilik aktları idi. Bu aktlar elə bir zamanda qəbul edilmişdi ki, artıq ermənilərlə Dağlıq Qarabağda və sərhəd bölgələrimizdə ölüm-dirim savaşları gedirdi.*

*İlk vaxtlar Milli Ordumuz hələ formalaşmadığından torpaqlarımızı erməni qəsbkarlarından respublikanın milis orqanlarının, DİN-in Xüsusi Təyinatlı Milis (Polis) Dəstəsinin, Daxili Qoşunlarının əməkdaşları və könüllü özünümüdafiə qüvvələri müdafiə edirdilər. 80-ci illərin sonları – 90-cı illərin əvvəllərində SSRİ rəhbərliyinin bilərəkdən göstərişləri əsasında xalqımız tərksilah edilmiş, ondan hətta of tüfəngləri də yığılmışdı. Azərbaycanın hüquq-mühafizə, o cümlədən milis (polis) əməkdaşlarının da tabel silahları alınmışdı. Buna baxmayaraq, düşmənə dərin nifrət bəsləyən, Vətən, torpaqlarımız uğrunda canlarını qurban verən mərd oğullarımız Dağlıq Qarabağda və sərhəd rayonlarımızda erməni işğalçıları ilə döyüşlərdə geri çəkilmir, qəhrəmanlıqlar göstrirdilər.*



Azərbaycan Milli Kitabxanası

*Məhz həmin ağır vaxtlarda Azərbaycan Respublikası Daxili İşlər Orqanlarının xeyli əməkdaşı suverenliyimiz, ərazi bütövlüyümüz uğrunda gedən döyüşlərdə, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində şəxsi igidliklər və şücaətlər göstərmişdir. Ancaq xeyli əməkdaşlarımız da şəhid olmuş, Vətən yolunda canlarını qurban vermişlər. Statistik məlumatlara görə, təkcə 1990-1995-ci illərdə müstəqilliyimizin, suverenlimizin, ərazi bütövlüyümüzün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində, dövlətçiliyimizin müdafiəsində və cinayətkarlıqla mübarizədə AR Daxili İşlər Orqanlarının şəxsi heyəti 931 şəhid vermişdir (681 əməkdaş yaralanaraq əlil olmuş, 31 nəfər isə itkin düşmüşdür ki, bunlardan da 61 nəfəri Azərbaycan Respublikası Prezidentinin fərmanları ilə ölümündən sonra «Azərbaycanın Milli Qəhrəmanı» (Azərbaycanın ən yüksək fərqlənmə dərəcəsi olan «Azərbaycanın Milli Qəhrəmanı» adının müəyyən edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu Azərbaycan Respublikasının Ali Soveti tərəfindən 25 mart 1992-ci ildə qəbul olunmuşdur - İ.Ə.) adına layiq görülmüşdür.*

*Qeyd etmək lazımdır ki, suverenlik əldə etdiyimiz dövrdən bəri Azərbaycan Respublikası Daxili İşlər Orqanlarının 67 əməkdaşı ölkə prezidentinin müvafiq fərmanları ilə «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına layiq görülmüşdür ki, bunlardan da 6 nəfəri sağdır və hazırda polis orqanlarında fəaliyyətlərini davam etdirirlər.*

*Bütün şəhidlərimiz xalqımız üçün müqəddəsdir. O cümlədən daxili işlər orqanlarının, polisin şəhid əməkdaşlarının xatirəsi qədirbilən xalqımızın hafizəsində daim yaşayacaq və yad ediləcəkdir. Lakin DİO-nun şəhid əməkdaşlar içərisində «Azərbaycanın Milli Qəhrəmanı» kimi ən yüksək ali, fəxri ada layiq görülənlər haqqında zənnimcə, xüsusi danışmaq və onları daha artıq təbliğ etmək lazımdır. Axı bu qəhrəmanların həyatı, döyüş yolu, xidməti fəaliyyətləri ibrətamizdir və xalqımıza, ilk növbədə gənc nəslə örnəkdir. Milli qəhrəmanlarımız xalqımızın simvolu, ən layiqli təmsilçiləridirlər. Onların timsalında xarici ölkələrdə də xalqımıza böyük ehtiram və hörmət izhar olunur.*

*Qeyd etməliyəm ki, respublika tarixşünaslığında şəhid milis və polislərimiz, habelə digər DİO əməkdaşları haqqında yazılmış bir sıra kitab və kitabçalar, dövri mətbuatda Milli Qəhrəmanlar haqqında bioqrafik məlumatlar və oçerklər mövcuddur.*

*Bunlara misal olaraq ilk növbədə Azərbaycan Yazıçılar Birliyinin üzvü, hazırda DİN BDYTİ-də şöbə rəisi işləyən, daxili xidmət polkovniki Hikmət Cəmilzadənin (Xudiyevin), diqqətəlayiq kitab və kitabçalarını göstərə bilərik. Onun «Azərbaycanın ilk Milli Qəhrəmanları» (Bakı-1993), «Azərbaycan polisinin Milli Qəhrəmanları» (Bakı-1994), «Milli Qəhrəman İlqar İsmayılov» (Bakı-1995), «Sakit Okeandan odlu Laçına» (Bakı-1994) əsərləri həm də bir mənbədir. İstefada olan polis polkovniki Elbrus Şahmarın «Şah İsmayıl qartalları (1-ci kitab) (Bakı-1996), filoloq Nəcəf Nazimin «İstiqlal ulduzları. Azərbaycanın Milli Qəhrəmanları» (Bakı-1995), DİN BMİ Nəsimi Rayon Mühafizə İdarəsinin rəis müavini, polis polkovniki Tapdıq Osmanovun «Qısa ömrün şərəfli yolları» (Bakı-1996) kitabları da şəhid polislərimizə həsr olunmuşdur. İstedadlı şair, mərhum Şəkər Aslanın DİN Daxili Qoşunlarının zabiti, cəmi 23 yaşında şəhid olmuş «Azərbaycanın Milli Qəhrəmanı» Rövşən Abdullayevin həyatı və döyüş yoluna həsr etdiyi «Elə yaşayıram» (Bakı-1997) adlı lirik poeması kövrəldici dildə yazılmışdır.*

*Göyçayda rus dili və ədəbiyyatı müəllimi işləyən Rəhman Əhmədovun şəhid polislərdən bəhs edən «Koroğlu qeyrətli məkan Kosalar» (Bakı-1997) kitabçası da məlumat əxz etmək baxımından maraqlıdır. Yazıçı Tariyel Cahangirin «Vətən oğul istəyəndə» (Bakı-1998) kitabı Qubadlının bütün şəhidlərinə, o cümlədən şəhid polis əməkdaşlarına, tanınmış ziyalılar İsmayıl İmanzadə və Tarıyel Abbaslının «Qəm leysanı» (Bakı-1999) adlı irihəcmli əsəri isə Cəbrayıl rayonunun şəhidlərinə ithaf olunmuşdur.*

*Polis polkovnik-leytenantı Novruz Quliyev «Şərur fəryadı», (Bakı-1999) kitabında Naxçıvan MR-in polis əməkdaşlarının erməni işğalçıları ilə mübarizədəki iştirakı və həlak olanlarla oxucuları tanış edir. Yazıçı-jurnalist Sabir Hüseynovun «Xocalıya qayıdacağıq» (Bakı-1999) əsəri Xocalının şəhid və təltif olunmuş polis əməkdaşları haqqındadır. Sumqayıtlı naşir Vaqif Rəsulun «Ölüm haqq deyil» (Bakı-2000), DİN-in «Mübariz keşikdə» qəzetinin bölmə rəisi, polis polkovnik-leytenantı Rahib Qarayevin «Xidməti borcu yerinə yetirərkən» (1-ci kitab) (Bakı-2000) kitabları cinayətkarlıqla mübarizədə və ictimai təhlükəsizliyin təmini zamanı həlak olmuş paqondaşlarımıza, nəhayət, 2003-cü ildə Bakıda «Tural» nəşriyyatında çap olunmuş yazıçı-publisist Faiq Şükürbəylinin «Ərgünəşin ər oğulları» kitabı Füzuli rayonunun şəhid polislərinin həyat və döyüş yoluna həsr edilmişdir.*

*Lakin yuxarıda adlarını çəkdiyimiz və çəkmədiyimiz başqa bütün əsərlərin heç birində Azərbaycan Respublikası Daxili İşlər Opqanlarının Milli Qəhrəman adına layiq görülmüş 67 nəfər əməkdaşının həyatı, döyüş yolu və xidməti fəaliyyəti bir yerdə indiyədək ayrıca, sistemli və ardıcıl şəkildə toplanıb kitab halında nəşr edilməmişdir. Odur ki, həmin sahədə mövcud olan boşluğu bir qədər doldurmaq məqsədilə təqdim olunan bu kitabı tərtib və nəşr etmək qərarına gəldik.*

*Fikrimizcə, yeni təqdim olunan kitab ilk öncə DİN sistemində çalışan gənc DİO əməkdaşlarının xalqa, torpağa, Vətənimizə məhəbbət, düşmənə nifrət, dövlətçiliyə isə sədaqət ruhunda tərbiyə olunması işində yardımçı olacaqdır.*



## ABBASOV MEHDİ YUSİF OĞLU (1960-1992)



1960-cı il yanvarın 1-də Qərbi Azərbaycanın Amasiya rayonunun Yeniyol kəndində kolxozçu ailəsində anadan olmuşdur. 1976-cı ildə kənd orta məktəbini bitirmişdir. Erməni millətçilərinin təzyiqinə məruz qalan ailələri 1977-ci ildə köçərək Qazaxıstan Respublikasının Çimkənd vilayətinin Tülkübas rayonunun Kulan kəndində məskunlaşmışdır. Orduda hərbi xidmət keçdikdən sonra Karakanda Pedaqoji İnstitutuna daxil olmuş, 1985-ci ildə həmin institutu bitirərək, ibtidaihərbi hazırlıq və bədən tərbiyəsi müəllimi ixtisasına yiyələnmişdi. İxtisası üzrə müəllim işləmişdi.

M.Abbasov yaxşı idmançı kimi ad çıxarmışdı. 1985-ci ilin mayında klassik (yunan-roma) güləş üzrə idman ustası normalarını ödəyərək «SSRİ idman ustası» adını almışdı. Bütün varlığıyla idmana bağlı olan M.Abbasov neçə-neçə məsul yarışların qalibi olmuş, kuboklar qazanmışdır.

1989-cu ilin noyabrında Qazaxıstan KP Tülkübas Rayon Komitəsinin qərarı ilə daxili işlər orqanlarına işləməyə göndərilmişdir. 1989-1990-cı illərdə SSRİ DİN-in Stavropol ali kurslarının dinləyicisi olmuş, kurslardan sonra Çimkənd şəhərində Enbəyşin RDİŞ-də sahə inspektoru vəzifəsində nümunəvi xidmət göstərmişdir.

Hələ SSRİ DİN-in Stavropol ali kurslarında təhsil alarkən Yessentuki şəhərində təcrübədə olarkən Azərbaycan SSR-in daxili işlər nazirinin müavini Ramiz Xosrov oğlu Məmmədov həmin cəsarətli azərbaycanlı balasını respublikamızda xidmət etməyə dəvət etmişdir. Bu, Mehdinin çoxdankı arzusuna tam uyğun idi. 1991-ci il iyunun 28-də M.Abbasov AR DİN-in sərəncamına göndərildi. O, özü könüllü olaraq erməni işğalçılarına qarşı döyüşməyi üstün tut-



Azərbaycan Milli Kitabxanası

du. 1991-ci il iyulun 3-də milis baş leytenantı Mehdi Abbasov o zamanlar düşmənə qan udduran «OMON»-da (DİN XTMD-də) rota komandirinin müavini təyin edildi. Sonra rota komandiri vəzifəsinə irəli çəkildi. Mehdi öz dəstəsi ilə Şuşa, Ağdam, Goranboy, Füzuli cəbhələrindəki döyüşlərdə erməni təcavüzkarlarına qan uddurdu. İgid komandir və qorxmaz zabit kimi ad çıxarmışdı. Ermənilər M.Abbasovun başına 1 milyon rubl mükafat təyin etmişdilər…

M.Abbasovun səmərəli fəaliyyəti diqqətdən yayınmamışdı, AR DİN rəhbərliyi onu 4 dəfə mükafatlandırmışdı. Mərhum daxili işlər naziri, general-mayor Məhəmməd Əsədov M. Abbasovun erməni yaraqlılarına qarşı Goranboyun Qaraçinar kəndindəki şəxsi şücaətini yüksək qiymətləndirərək onu bağrına basmış, özünün 11 noyabr 1991-ci il tarixli əmri ilə milis baş leytenantı Mehdi Abbasovu «DİN-də əla xidmətinə görə» döş nişanı ilə təltif etmişdi.

…M.Abbasovun son döyüşü Füzulidə olmuşdur. O, 1992-ci il yanvarın 13-də Haxullu kəndi yaxınlığında Məlikcan postunda gedən döyüşdə qəhrəmancasına həlak olmuşdur. Subay idi. Bakıda Şəhidlər Xiyabanında dəfn olunmuşdur. Xatirəsi əbədiləşdirilmişdir. Ailələri Qazaxıstandan Azərbaycana köçəndən sonra İsmayıllı rayonunun Urşan kəndində məskunlaşmışdırlar. Həmin kənd hal-hazırda qəhrəman komandirin adını daşıyaraq Mehdikənd adlanır.

Respublikamızın suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə Azərbaycan Respublikası Prezidentinin 5 iyun 1992-ci il tarixli 831 №-li fərmanı ilə Mehdi Yusif oğlu Abbasov «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına (ölümündən sonra) layiq görülmüşdür.



## ABDULLAYEV RÖVŞƏN ƏBDÜLHÜSEYN OĞLU (1969-1992)



1969-cu il yanvarın 16-da Lerik rayonunda milis zabiti ailəsində anadan olmuşdur. Astara şəhərində boya-başa çatmış, orta məktəbi burada bitirmişdir. Hərbçi olmaq arzusuyla 1987-ci ildə keçmiş SSRİ DİN nəzdində Leninqrad (indiki Sankt-Peterburq) Ali Hərbi Siyasi Məktəbinə daxil olmuş, 1991-ci ildə təhsilini uğurla başa çatdırıb leytenant hərbi rütbəsiylə Azərbaycana qayıtmış və DİN Daxili Qoşunlarında xidmətə başlamışdır.

Leytenant Rövşən Abdullayev torpaqlarımızın müdafiəsi uğrunda gedən döyüşlərdə xüsusilə fərqlənmişdir. Lakin o, 1992-ci il sentyabrın 13-də Zəngilan rayonunun Ermənistanla həmsərhəd olan Qazançı kəndi uğrunda aparılan döyüşdə qəhrəmancasına həlak olmuşdur. Subay idi. Cəmi 23 yaş yaşamışdır. Xatirəsi əbədiləşdirilmişdir. Məzarı Lənkəran şəhər qəbirstanlığındadır. Lənkəran şəhərində büstü ucaldılmışdır. Lerikdə mədəniyyət evinə onun adı verilmişdir. Mərhum şair Şəkər Aslan 1995-ci ilin fevralında öz qəhrəman həmyerlisinin xatirəsinə «Elə yaşayaram» adlı poema həsr etmişdir. Yazıçı Ağacəfər Həsənli 2000-ci ildə qəhrəmanın həyat və xidmət yoluna «Heykəl ömrü» adlı xüsusi kitabça həsr etmişdir.

Rövşənin atası Əbdülhüseyn Abdullayev uzun illər daxili işlər orqanlarında rəis və digər məsul rəhbər vəzifələrdə işləmişdir. İstefada olan milis polkovniki idi. 2000-ci ildə Lənkəranda dünyasını dəyişmişdir. Qardaşı Rafiq daxili xidmət polkovnik-leytenantıdır, AR DİN-in Maliyyə-Plan İdarəsinin şöbə rəisidir. Digər qardaşı Azad polis mayoru, Lənkəran RPŞ-nin maliyyə hissəsinin rəisidir.

Azərbaycan Respublikası Prezidentinin 15 yanvar 1995-ci il tarixli 262 №-li Fərmanı ilə leytenant Abdullayev Rövşən Əbdülhüseyn oğlu «Azərbaycanın Milli Qəhrəmanı» Fəxri adına (ölümündən sonra) layiq görülmüşdür.



Azərbaycan Milli Kitabxanası

## AĞAYEV FAİQ ALİŞ OĞLU
## (1969-1990)



1969-cu ildə Ağdam rayonunun Papravənd kəndində kəndli ailəsində anadan olmuşdur. Kənd orta məktəbini bitirdikdən sonra 1987-89-cu illərdə ordu sıralarında hərbi xidmət keçmişdir. 1990-cı ildə Ağdam Rayon Daxili İşlər Şöbəsinin Post Patrul alayında xidmətə başlamışdır. Polis kiçik serjantı idi.

Erməni qəsbkarlarına qarşı respublikamızın suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dini əhalinin təhlükəsizliyinin təmin edilməsində igidlik və şücaətlər göstərmişdir. Son döyüşü Əsgəran rayonunun Meşəli kəndində olmuşdur. F.Ağayev kənd əhalisinin təhlükəsizliyini erməni yaraqlılarının hücumundan müdafiə edərkən 1990-cı il dekabrın 23-də qəhrəmancasına həlak olmuşdur. Subay idi. Cəmi 23 il ömür sürmüşdür.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 №-li Fərmanı ilə polis kiçik serjantı Faiq Alış oğlu Ağayev «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına (ölümündən sonra) layiq görülmüşdür.



## ALLAHVERDİYEV BƏXTİYAR ƏRZULLA OĞLU



1974-cü il iyunun 10-da Bakı şəhərində fəhlə ailəsində anadan olmuşdur. Orta məktəbdən sonra Milli Orduda hərbi xidmət keçmişdir. Müharibə veteranıdır. Milli Ordunun Xüsusi Təyinatlı Kəşfiyyat taborunun tərkibində Dağlıq Qarabağ bölgəsində torpaqlarımızın müdafiəsi uğrunda gedən döyüşlərdə xüsusi fədakarlıq nümayiş etdirmişdir. 1996-cı ildə Türkiyə Respublikasında Jandarm Komanda kursunu bitirib. 2000-ci ilin oktyabrında gizir rütbəsilə ehtiyata buraxılıb.

2001-ci il avqustun 20-dən DİO-da xidmətə qəbul edilib. Bakı şəhəri Xətai RPİ-nin Əlahiddə polis bölüyünün polis nəfəri, polis serjantı olub. Yaxşı işinə görə iki dəfə «təşəkkür» alıb.

2004-cü il 24 iyun tarixdən irəli çəkilməklə İsmayıllı RPŞ-də sahə inspektoru vəzifəsinə təyin edilib. 2004-cü il iyunun 26-da ona polis kiçik leytenantı rütbəsi verilib. Hazırda da sahə inspektoru vəzifəsində çalışır. AR DİN Polis Akademiyasında qiyabi təhsil alır.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 №-li Fərmanı ilə B.Allahverdiyev xüsusi xidmətlərinə görə «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına layiq görülmüşdür.

Azərbaycan Milli Kitabxanası



## ALLAHVERDİYEV NAMİQ MÜSLÜM OĞLU (1967-1992)

1967-ci ildə Beyləqan şəhərində anadan olmuşdur. Beyləqan şəhər 1 saylı orta məktəbini bitirib, iki il ordu sıralarında qulluq etmişdir. 1992-ci ilin avqustunda AR DİN-in Xüsusi Təyinatlı Polis Dəstəsinə (XTPD) polis nəfəri vəzifəsinə təyin olunmuşdur. Polis serjantı rütbəsi vardı.

N.Allahverdiyev Qarabağda torpaqlarımızın müdafiəsində erməni təcavüzkarlarına qarşı döyüşlərdə şəxsi igidlik və şücaətlər göstərmişdir. 1992-ci il iyunun 9-da Tərtər cəbhəsində Cəmilli yüksəkliyi uğrunda gedən döyüşdə qəhrəmancasına həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 №-li Fərmanı ilə o, «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına (ölümündən sonra) layiq görülmüşdür.



## ARAZOV ƏNVƏR TALIŞ OĞLU (1953-1992)



1953-cü il dekabrın 2-də Goranboy rayonunda anadan olmuşdur. Ali təhsilli zabit idi. AR DİN-in Daxili Qoşunlarında kapitan rütbəsində xidmət edirdi. 1992-ci ilin iyulunda onun komandir olduğu Gəncə alayı Ağdərə bölgəsinə göndərildi. Düşmənə qarşı döyüşlər zamanı Ənvər Arazov kəşfiyyatçılar dəstəsinə özü rəhbərlik edirdi. Cəsur komandir 1992-ci il oktyabrın 31-də Sırxavənd istiqamətində strateji əhəmiyyətli mühüm yüksəkliyi ələ keçirmək uğrunda gedən döyüşdə qəhrəmancasına şəhid olmuşdur. Gəncədə Şəhidlər Xiyabanında dəfn edilmişdir. Şair Elxan Xəzər onun qəhrəmanlığına xatirə-poema həsr etmişdir.

Azərbaycan Respublikası Prezidentinin 6 noyabr 1992-ci il tarixli 290 №-li Fərmanı ilə o, «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına (ölümündən sonra) layiq görülmüşdür.

Azərbaycan Milli Kitabxanası

## ASLANOV ŞİKAR DAVUD OĞLU (1970-1992)



1970-ci il iyulun 10-da Cəbrayıl rayonunun Süleymanlı kəndində kəndli ailəsində anadan olmuşdur. Kənd orta məktəbini bitirdikdən sonra ordu sıralarında xidmət etmişdir. 1991-ci ilin fevralından Cəbrayıl Rayon Daxili İşlər Şöbəsində polis nəfəri vəzifəsinə qəbul olunmuşdu. Polis serjantı rütbəsi vardı. Zirehli döyüş maşınının ekipajında nişançı idi. Torpaqlarımızın müdafiəsi uğrunda aparılan hərbi əməliyyatlar zamanı mərdliklə vurulmuşdur. 1992-ci il iyulun 1-də rayonun Şagah yüksəkliyi uğrunda gedən döyüşdə qəhrəmancasına həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 №-li Fərmanı ilə polis serjantı Aslanov Şikar Davud oğlu «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına (ölümündən sonra) layiq görülmüşdür.



## BABAYEV ƏJDƏR XALIQVERDİ OĞLU (1950-1995)



1950-ci il avqustun 26-da Qazax rayonunun Molla Cəfərli (indi Ağstafa rayonu ərazisinə daxildir – İ.Ə) kəndində anadan olmuşdur. Orta məktəbdən sonra 1969-1971-ci illərdə orduda hərbi xidmət keçmişdir. 1973-cü il sentyabrın 10-da Ağstafa Rayon Daxili İşlər Şöbəsində (RDİŞ-də) xidmətə başlamışdır. 1992-ci il iyunun 3-dən Ağstafa RPŞ-nin növbətçi köməkçisi vəzifəsində çalışırdı. Polis serjantı rütbəsi vardı. Sonra polis starşinası rütbəsi almışdı. 1995-ci il martın 13-17-də Ağstafada dövlət çevrilişinə cəhdin qarşısının alınması zamanı həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 424 №-li Fərmanı ilə polis starşinası Babayev Əjdər Xalıqverdi oğlu «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına (ölümündən sonra) layiq görülmüşdür.

240492

M.F.Axundov adına Azərb. MEB Kitabxanası

Azərbaycan Milli Kitabxanası

## CƏBRAYILOV MİKAYIL ƏHMƏDİYYƏ OĞLU (1952-1990)



1952-ci il aprelin 27-də Şəkinin Oxud kəndində İkinci dünya müharibəsində Fransa müqavimət hərəkatının fəal iştirakçısı, «Xarqo» ləqəbli əfsanəvi qəhrəman partizan Əhmədiyyə Cəbrayılovun ailəsində anadan olmuşdur. 1968-ci ildə Bakıdakı 23 saylı orta-texniki peşə məktəbini bitirmişdir. 1968-1970-ci illərdə hərbi xidmətə getmişdir. 1971-ci ilin sentyabrında daxili işlər orqanlarına qəbul olunmuş, Şəki RDİŞ-də milis nəfəri kimi fəaliyyətə başlamışdır. 1976-1978-ci illərdə N.Rizayev adına Bakı Orta Xüsusi Milis Məktəbində əyani təhsilini davam etdirərək milis leytenantı xüsusi rütbəsi almışdır.

DİO-da son xidmət yeri Şəki RDİŞ-də sahə müvəkkili vəzifəsi idi. Qarabağda erməni işğalçılarına qarşı şiddətli döyüşlərdə dəfələrlə iştirak edən milis baş leytenantı Mikayıl Cəbrayılov 1990-cı il dekabrın 15-də Əsgəran rayonunun Cəmilli kəndi ətrafında erməni yaraqlıları ilə döyüşdə qəhrəmancasına həlak olmuş və Oxud kənd qəbiristanlığında dəfn edilmişdir.Qəbri üstündə əzəmətli büstü ucaldılıb. Xatirəsi əbədiləşdirilmişdir. Şəki şəhərində geniş və abad küçələrdən birinə Mikayılın adı verilmişdir. Şəki Şəhər Polis Şöbəsində yaradılmış Şöhrət güşəsində onun böyüdülmüş şəkli asılmışdır. Mikayıl Cəbrayılovun ata yurdu Oxud kəndindəki məktəbdə «Mikayıl Cəbrayılov» adına təqaüd təsis olunub. M.Cəbrayılov ailəli idi. Dörd övladı – Müşfiq, Səadət, Aynur, Gülnarə kimi yadigarları qalıb. Oğlu Müşfiq atasının yolunu davam etdirir və hazırda Şəki RDŞ-də çalışır. M.Cəbrayılovun qardaşı Elxan da Şəki polisində qəhrəman qardaşının yolunu davam etdirmişdir...

Azərbaycan Respublikası Prezidentinin 5 iyun 1992-ci il tarixli 831 №-li Fərmanı ilə milis baş leytenantı Mikayıl Əhmədiyyə oğlu Cəbrayılov «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına (ölümündən sonra) layiq görülmüşdür.



## CİRİNQOV RAMAZAN HEYBULLAH OĞLU (1969-1995)



1969-cu il fevralın 15-də Balakən rayonunun Meşəşambul kəndində kolxozçu ailəsində anadan olmuşdur. Qazbölük kənd 8 illik və Balakən şəhərindəki 158 saylı Texniki Peşə Məktəblərini bitirmişdir. Sonra Əfqanıstanda hərbi xidmətdə olmuş, oradakı döyüşlərdə iştirak etmiş və yaralanmışdır. Əfqanıstanda öz beynəlmiləlçilik borcunu yerinə yetirərkən göstərdiyi hərbi şücaətə görə SSRİ Ali Soveti Rəyasət Heyətinin «Beynəlmiləlçi hərbçiyə» adlı Fəxri Fərmanı ilə təltif edilmişdir.

Ordudan tərxis edilən 21 yaşlı gənc R.Cirinqov 1990-cı il avqustun 15-də Balakən Rayon Daxili İşlər Şöbəsinin post-patrul xidmətinə milis nəfəri vəzifəsinə qəbul edilmişdir. O, Dağlıq Qarabağ və onun ətraf rayonlarında keçirilən hərbi əməliyyatların iştirakçısı olmuşdur. Polis starşinası Ramazan Cirinqov dövlətçiliyimizin müdafiəsində və cinayətkarlarla mübarizədə də qorxmaz bir əməkdaş olduğunu dəfələrlə sübut etmişdi. 1995-ci il oktyabrın 2-də xidməti vəzifəsini yerinə yetirərkən Balakən rayonunun Qabaqçöl kəndində qatı cinayətkar tərəfindən qətlə yetirilmişdir. Subay idi. Qardaşı Teymur Balakən RPŞ-də onun şərəfli yolunu davam etdirir.

Azərbaycan Respublikası Prezidentinin 26 dekabr 1995-ci il tarixli 424 №-li Fərmanı ilə polis nəfəri, polis starşinası Ramazan Heybullah oğlu Cirinqov «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına (ölümündən sonra) layiq görülmüşdür.

Azərbaycan Milli Kitabxanası



## ÇOBANOV ŞAMOY MƏHYƏDDİN OĞLU (1966-1990)

1966-cı ildə Qazax rayonunun Ağköynək kəndində kəndli ailəsində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra hərbi xidmətdə olub. 1988-ci ildən Qazax RDİŞ-də milis nəfəri vəzifəsində xidmətə başlamışdı. Milis kiçik serjantı idi. Respublikanın sərhədyanı ərazilərinin müdafiə olunması uğrunda aparılan döyüşlərdə fəal iştirak etmişdir. 1990-cı il avqustun 19-da Qazax rayonunun Yuxarı Əskipara kəndinə gedən sərnişin avtobusunu müşayiət edən zaman pusqudan hücum edən erməni yaraqlıları ilə döyüşdə sərnişinlərin təhlükəsizliyini təmin edərək qəhrəmancasına həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 №-li Fərmanı ilə Qazax RPŞ-nin polis nəfəri, polis kiçik serjantı Çobanov Şamoy Məhyəddin oğlu «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına (ölümündən sonra) layiq görülmüşdür.



## EYVAZOV QORXMAZ ABIŞ OĞLU (1967-1994)



1967-ci il aprelin 1-də Laçın rayonunun Güləbird kəndində anadan olmuşdur. Orta məktəbdən sonra Silahlı Qüvvələrdə qulluq etmişdir. Tərxis edilib 1991-ci ildə erməni işğalçılarına qarşı mübarizə məqsədilə könüllü olaraq Laçın RDİŞ-ə milis nəfəri vəzifəsinə qəbul olunmuşdur. Polis starşinası rütbəsi vardı. Bir qədər xidmətdən sonra özünü yaxşı cəhətdən göstərdiyi üçün RPX bölüyündə tağım komandiri vəzifəsinə irəli çəkilmişdi.

Q.Eyvazov 1994-cü il fevralın 10-da Cəbrayıl rayonunun Mərcanlı kəndində erməni yaraqlıları ilə şiddətli döyüşlərdən birində qəhrəmancasına həlak olmuşdur. Xatirəsi əbədiləşdirilmişdir. Doğulduğu Güləbird kəndindəki xəstəxanaya Q.Eyvazovun adı verilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 15 yanvar 1995-ci il tarixli 262 №-li Fərmanı ilə polis starşinası Eyvazov Qorxmaz Abış oğlu «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına (ölümündən sonra) layiq görülmüşdür.

Azərbaycan Milli Kitabxanası

## ƏHMƏDOV NATİQ İLYAS OĞLU (1968-1991)



1968-ci ildə Ağdam rayonunun Novruzlu kəndində anadan olmuşdur. 1986-88-ci illərdə Rusiyanın Kalininqrad şəhərində artilleriya hissəsində hərbi xidmət keçmişdir. Hələ orta məktəbdə ikən idmana güclü maraq göstərmiş, Ağdamdakı güləş bölməsinin fəal üzvlərindən və rayonun yeniyetmələrdən ibarət seçmə komandasının üzvü olmuşdur. Hərbi xidmət illərində əsgərlik yoldaşı Algintas Stivyaçusdan karatenin bəzi təmrinlərini də mənimsəmişdi. 1989-cu ildə Natiq Riqaya yollanaraq orada üç ay Şərq əlbəyaxa döyüş növlərinin sirlərinə yiyələnmişdi. Onu hətta Yaponiyaya, təcrübəli məşqçilərin yanına göndərmək də məsləhət bilinmişdi…

Lakin Vətən od içində idi. Onu yaraqlılardan qorumaq lazım idi. Natiq düşmənlə mübarizə aparmaq üçün 1991-ci ildə Xocalı Milis Bölməsində yol-nəzarət xidməti müfəttişi vəzifəsinə işə düzəldi. Polis starşinası rütbəsi vardı. Erməni qəsbkarlarına qarşı döyüşlərdə mərdliklə ad çıxarmış N.Əhmədov 1991-ci il sentyabrın 28-də Əsgəran rayonundakı şiddətli döyüşlərdən birində yaraqlıların hücumunu dəf edərək qəhrəmancasına həlak olmuşdur. Natiq Əhmədov Ağdamın Novruzlu kəndində dəfn edilmişdir. Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 №-li Fərmanı ilə Xocalı RPŞ-nin yol-keşik xidmətinin inspektoru, polis starşinası Əhmədov Natiq İlyas oğlu «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına (ölümündən sonra) layiq görülmüşdür.



## ƏKBƏROV AKİF ABBAS OĞLU (1952-1992)



1952-ci ildə Cəbrayıl rayonunun Balyand kəndində müəllim ailəsində anadan olmuşdur. Orta məktəbdən sonra hərbi xidmətə yollanmışdı. 1974-cü ildə daxili işlər orqanlarında işə qəbul edilmişdi. Son iş yeri Beyləqan RPŞ-də olmuşdur. Beyləqan RPŞ DYPB-də yol polisi inspektoru vəzifəsində çalışan polis starşinası Akif Əkbərov 1992-ci il avqustun 12-də Kəlbəcər rayonunda «Sarı yer» otlağında malqaramızı zorla sürüb aparmaq məqsədilə hücum etmiş erməni yaraqlılarının basqınını dəf edərkən sonadək döyüşərək qəhrəmancasına həlak olmuşdur. Beyləqan şəhərində dəfn edilmişdir. Xatirəsi əbədiləşdirilmişdir. Beyləqan şəhərində RPŞ-nin şəxsi heyətinin gücü ilə rayonun Mərkəzi parkında büstü ucaldılmış, adına küçə verilməsi barədə vəsatət qaldırılmışdır…

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 №-li Fərmanı ilə Akif Abbas oğlu Əkbərov «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına (ölümündən sonra) layiq görülmüşdür.

Azərbaycan Milli Kitabxanası



## ƏLİYEV İLHAM MÜZƏFFƏR OĞLU (1962-1990)

1962-ci ildə Gədəbəy rayonunda müəllim ailəsində anadan olmuşdur. Orta məktəbi 1978-ci ildə bitirmişdir. 1980-1982-ci illərdə Zaqafqaziya Hərbi Dairəsində, sonra da Əfqanıstanda hərbi xidmət çəkmişdir. Hərbi xidmətdən sonra 1983-cü ilin iyununda milisdə işə qəbul olunmuşdur. İlk iş yeri İsmayıllı RDİŞ nəzdində müəssisədənkənar mühafizə bölməsində milis nəfəri vəzifəsi idi. Sonra Gədəbəy RDİŞ-də çalışmışdır. İşgüzarlığı və xidməti işinə məsuliyyəti nəzərə alınaraq o, 1987-ci ildə SSRİ DİN-in Bryansk şəhərindəki Xüsusi Orta Milis Məktəbinə oxumağa göndərilmişdir. Bryanskda təhsil alarkən İlham Əliyev Çernobıl qəzası baş verəndə onun nəticələrinin aradan qaldırılmasında yaxından iştirak etmişdir. O, Çernobıldan «Milis əlaçısı» döş nişanı ilə qayıtmış, SSRİ DİN-in təşəkkürünü almışdır. Məktəbi bitirdikdən sonra Gədəbəy RPİŞ-də sahə müvəkkili işləmişdir.

Milis leytenantı İ.Əliyev 1989-1990-cı illərdə Gəncə şəhəri Nizami rayon Daxili İşlər Şöbəsində sahə inspektoru, sonra isə Cinayət Axtarış bölməsində əməliyyat müvəkkili vəzifəsində çalışmışdır. O, dəfələrlə respublikamızın sərhədlərini erməni təcavüzkarlarından mətanətlə mühafizə etmişdir. 1990-cı il aprelin 22-də Gədəbəydə toy edib ailə quran gənc milis leytenantı İlham Əliyev təəssüf ki, 1990-cı il avqustun 19-da Qazax rayonunun Ermənistanla həmsərhəd olan Aşağı Əskipara kəndinə hücum edən erməni yaraqlıları ilə döyüşdə qəhrəmanlıqla vuruşaraq aldığı ağır yaradan (avqustun 20-də səhər) vəfat etmişdir. Gədəbəy rayon qəbirstanlığında dəfn edilmişdir. Ailəli idi. İlham adlı bir yadigarı qalıb. Xatirəsi əbədiləşdirilmişdir. Vaxtilə İlhamın oxuduğu məktəbin qarşısında onun büstü ucaldılmışdır. Həmin məktəb indi şəhid polis leytenantı İlham Əliyevin adını daşıyır.

Azərbaycan Respublikası Prezidentinin 5 iyun 1992-ci il tarixli 831 №-li Fərmanı ilə polis leytenantı İlham Müzəffər oğlu Əliyev «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına (ölümündən sonra) layiq görülmüşdür.



## ƏLİYEV İMAMVERDİ BARAT OĞLU (1950-1991)



1950-cı ildə İmişli rayonunun Qulubəyli kəndində kəndli ailəsində doğulmuşdur. Orta məktəbi bitirdikdən sonra orduda hərbi xidmət keçmişdir. 1980-ci ildə N.Rizayev adına Bakı Xüsusi Orta Milis Məktəbini bitirmişdir. Təyinatı üzrə İmişli Rayon Daxili İşlər Şöbəsində sahə müvəkkili vəzifəsində işləyirdi. Milis baş leytenantı rütbəsi vardı. Dəfələrlə cəbhəyə ezam olunmuşdu. 1992-ci il noyabrın 15-də Cəbrayıl rayonunun ermənilərlə sərhəddə yerləşən Şagah postunda gecə erməni-rus hərbçilərinin xaincəsinə hücumunu dəf edərkən qəhrəmancasına həlak olmuşdur. Ailəli idi, 2 oğul yadigarı qalmışdır. Öz kəndlərində dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 №-li Fərmanı ilə İmişli RPŞ-nin sahə müvəkkili, polis baş leytenantı Əliyev İmamverdi Barat oğlu «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına (ölümündən sonra) layiq görülmüşdür.

Azərbaycan Milli Kitabxanası



## ƏLİYEV VASİLİ ƏHMƏD OĞLU (1959-1992)

1959-cu il yanvarın 15-də Qubadlı qəsəbəsində milis işçisinin ailəsində anadan olmuşdur. Orta məktəbdən sonra 1977-1979-cu illərdə Sovet Ordusunda daxili qoşunlarda hərbi xidmət keçmişdir. 1980-ci ildə Qubadlı RDİŞ-ə milis nəfəri vəzifəsinə qəbul edilmişdi. Vasili Əliyev erməni işğalçılarına qarşı döyüşlərdə qorxmaz polis əməkdaşı kimi ad çıxarmışdı. Vasili qüsursuz və əla xidmətlərinə görə dəfələrlə mükafatlandırılmış, DİN rəhbərliyi onu «DİN-də əla xidmətə görə» döş nişanı ilə təltif etmişdi. Lakin o, 1992-ci il oktyabrın 19-da Qubadlı rayonunun Topağac kəndi ətrafında Qaraqaya yüksəkliyi uğrunda gedən döyüşlərdən birində qəhrəmancasına həlak olmuşdur.

Ailəli idi. Zülfiyyə adlı qızı və Elmir adlı oğlu qalmışdır. Həyat yoldaşı Aygün Vasilinin müqəddəs işini davam etdirir. Hazırda Qubadlı RPŞ-də polis əməkdaşı kimi Qeydiyyat və şəxsiyyət vəsiqəsi bölməsində çalışır. DİN Polis Akademiyasında qiyabi təhsil alır.

Azərbaycan Respublikası Prezidentinin 11 may 1993-cü il tarixli 599 №-li Fərmanı ilə Qubadlı RPŞ-nin polis nəfəri, polis starşinası Əliyev Vasili Əhməd oğlu «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına (ölümündən sonra) layiq görülmüşdür.



## ƏLİYEV YUSİF ƏLİYUSİF OĞLU (1969-1991)



1969-cü il dekabrın 2-də Bakının Qaradağ rayonunun Qobustan qəsəbəsində sürücü ailəsində (atası Əliyusif kişi indi Qobustan qəsəbəsinin Ağsaqqal Şurasının sədridir - İ.Ə.) anadan olmuşdur. Üç yaşı olarkən anası Firəngiz xanımı itirmişdir. Qəsəbədəki 223 saylı orta məktəbi bitirdikdən sonra hərbi xidmətə getmişdir. 1988-1990-cı illərdə Rusiyanın Sverdlovsk vilayətinin Tavda şəhərində əsgərlik çəkmiş, tərxis olunduqdan sonra geri qayıdıb könüllü DİN-ə gəlmiş, DİO-ya qəbul edilmişdi. Yaxşı idmançı idi. 1990-cı il sentyabrın 23-də Bakı şəhər Daxili İşlər İdarəsinin Post-Patrul alayında milis nəfəri kimi fəaliyyətə başlamışdı. Milis serjantı rütbəsi vardı. Bakı şəhər DİI Nəsimi Rayon Daxili İşlər Şöbəsində böyük höpmət və səmimiyyət qazanmış nümunəvi işçilərdən biri kimi tanınmışdı.

Yusif Əliyev xidmət etdiyi PPX alayı 3-cü rotasının ən cəsur əməkdaşlarından idi. O, yoldaşları ilə tez-tez Qarabağa ezamiyyəyə yollanmış və ən qaynar döyüş nöqtələrində igidliklə vuruşmuşdur (Buzluq, Mənəşid, Erkəc və s.). O, tez-tez kəşfiyyata da yollanar və qiymətli məlumatlarla geri dönərdi. 1991-ci il fevralın 24-də Mənəşid kəndində Yusifin əlverişli yüksəklikdə mövqe tutmuş dəstəsi ermənilərin üstün qüvvələrinə qarşı qanlı döyüşdə qeyri-adi mərdliklə müqavimət göstərərək düşmənin 40-dan artıq adamını və dörd zirehli maşınını məhv etmişdir. İgid milis əməkdaşı şiddətli döyüşlərdən birində qolundan ağır yaralanmış, çoxlu qan itirmişdi... Yusifin son döyüşü 1991-ci il sentyabrın 14-də Goranboyun Buzluq kəndi ətrafında baş vermişdir. Həmin gün o, erməni yaraqlılarına qarşı döyüşdə sonadək vuruşaraq səngər yoldaşı Xıdır İsmayılovla birlikdə qəhrəmancasına həlak olmuşdur. Ağsu rayonu-



Azərbaycan Milli Kitabxanası

nun Rəhimli kəndində ata yurdunda babalarının yanında dəfn edilmişdir. Valideyinləri tərəfindən Qəhrəmanın adına layiq qəbrüstü abidəsi ucaldılmışdır. 22 yaşında həyatla vidalaşmışdır. Ailəli idi. İsmayıl adlı bir yadigarı qalmışdır.

Xatirəsi əbədiləşdirilmişdir. 1993-cü ilin sentyabrında Qobustanda vaxtilə oxuduğu 223 saylı orta məktəbin qarşısında büstü qoyulmuşdur. 1992-ci ildə atası Əliyusif kişinin doğulduğu kəndə onun qəhrəman oğlu Yusifin adı verilmişdir. Yusif Əliyev adına Rəhimli kəndi 1995-ci ilə kimi həmin adla adlanmışdır. 1995-ci ildə rayon bələdiyyəsinin «qayğısı» ilə nədənsə Yusifin adı kəndin üstündən götürülmüşdür...

Azərbaycan Respublikası Prezidentinin 5 iyun 1992-ci il tarixli 831 №-li Fərmanı ilə polis nəfəri, polis serjantı Əliyev Yusif Əliyusif oğlu «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına (ölümündən sonra) layiq görülmüşdür.



## ƏSƏDOV MALİK HAMİL OĞLU (1962-1992)



1962-ci ildə Yevlax rayonunun Havarlı kəndində anadan olmuşdur. 1969-1979-cu illərdə həmin kənd orta məktəbində oxumuşdur. 1980-1982-ci illərdə Qazaxıstanda hərbi xidmət keçmişdir.

1983-cü ildə Azərbaycan Respublikası DİN Yanğından Mühafizə və Qəza Xilasetmə İşləri Baş İdarəsinin Mingəçevir şəhərindəki 45 saylı Müstəqil Hərbiləşdirilmiş Yanğın Hissəsində xidmətə başlamışdır. Tezliklə bölmə komandiri vəzifəsinə irəli çəkilən Malik Əsədov yaxşı işinə görə dəfələrlə mükafatlandırılmışdır. 1992-ci il yanvarın 13-də Malik Əsədov könüllü olaraq erməni işğalçıları ilə döyüşlərdə iştirak etmək üçün Şuşaya yola düşən Mingəçevir şəhər Polisinin 17 nəfərlik dəstəsinə daxil olmuşdur.

Daxili xidmət serjantı Malik Əsədov Şuşa-Laçın yolu istiqamətində polis əməkdaşları ilə birlikdə erməni təcavüzkarlarıyla vuruşmalarda cəsur döyüşçü kimi tanınmış, sevilmişdir. 1992-ci il yanvarın 18-də Malikin 3 nəfərlik dəstəsi Şuşanın Nəbilər kəndində 50 nəfərlik erməni yaraqlısı ilə üzləşdi. Şiddətli və qeyri-bərabər döyüşdə Malik ağır yaralanmış yoldaşı Bəxtiyar Muradovun qisasını alaraq təkbaşına 4 erməni dığasını məhv etmiş, lakin güllləsi qurtardıqda əliyalın düşmənin üstünə tullanmış və qəhrəmancasına həlak olmuşdur.

Daxili xidmət serjantı M.Əsədovun xatirəsi əbədiləşdirilmişdir. Oxuduğu orta məktəbin qarşısında cəsur yanğınsöndürənin büstü ucaldılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 №-li Fərmanı ilə M.Əsədov «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına (ölümündən sonra) layiq görülmüşdür.



Azərbaycan Milli Kitabxanası

## FƏRƏCOV ƏNVƏR SƏYYAD OĞLU (1952-1991)



1952-ci il iyunun 28-də Goranboy rayonunun Sarov kəndində ziyalı ailəsində anadan olmuşdur. Orta məktəbdən sonra Səməd Ağamalı oğlu adına Azərbaycan Dövlət Kənd Təsərrüfatı İnstitutunu, daha sonra Daşkənd Ali Milis Məktəbini (qiyabi) bitirmişdir. DİO-da 1981-ci ildən xidmət edirdi. 1981-1990-cı illərdə Türkmənistanda milis orqanlarında müxtəlif məsul vəzifələrdə ləyaqətlə xidmət etmiş, milis kapitanı rütbəsi almışdı.

Ənvər Fərəcov 1990-cı ilin avqustunda xidmət yerini dəyişərək Azərbaycana gəlmiş, əvvəlcə Gəncə Xətt Dəmiryol Milisində inspektor, sonra Goranboy RPŞ-də pasport-masa rəisi vəzifələrində çalışmışdır. 1991-ci il iyulun 27-də onu təzəcə təşkil edilmiş Goranboy RPŞ-nin Todan Polis Bölməsinə rəis təyin etmişlər. Ə.Fərəcov bu vəzifədə qısa müddət fəaliyyət göstərsə də, yerli əhalinin təhlükəsizliyinin təmin edilməsində yüksək bacarıq və təşkilatçılıq göstərmiş, erməni təcavüzkarlarına qarşı döyüşlərdə cəsur və qorxmaz komandir kimi ad çıxarmışdı.

Polis mayoru Ənvər Fərəcov 1991-ci il sentyabrın 14-də Todan, Erkeç, Mənəşid və Buzluq kəndləri ətrafında gedən döyüşlərdən birində erməni işğalçılarının hücumunu dəf edərkən qəhrəmancasına həlak olmuşdur. Doğulduğu Goranboy rayonunun Sarov kənd qəbirstanlığında dəfn edilmişdir. Xatirəsi əbədiləşdirilmişdir. Oxuduğu orta məktəb onun adını daşıyır. Məktəbin içərisində qəhrəmanın büstü qoyulmuşdur. Vaxtilə Gəncədə oxuduğu Azərbaycan Dövlət Kənd Təsərrüfatı Akademiyasının həyətində də Ənvər Fərəcovun büstü ucaldılmışdır. Goranboy RPŞ-nin həyətində şəhid polislərin və Goranboy rayonunun mərkəzində müharibə



iştirakçılarının şərəfinə düzəldilmiş xatirə komplekslərində də Ənvər Fərəcovun abidəsi vardır. Şəhər statuslu Dəliməmmədli qəsəbəsindəki küçələrdən birinə Ə.Fərəcovun adı verilmişdir.

Ailəli idi. İki övladı – bir oğlu və bir qızı qalmışdır. Hər ikisi – Nemət də, Jalə də ali təhsillidir. Onları anaları ali təhsilli müəllimə Emma xanım atalarına layiq böyütmüşdür. Nemət qəhrəman atasının şərəfli yolunu davam etdirir. O, ali təhsilli polis zabitidir. Hazırda Goranboy RPŞ-nin Əlahiddə Polis Bölüyünün tağım komandiridir. Nemətin əmisi Polad Fərəcov isə Gəncə Şəhər Polis İdarəsinin Maliyyə Şöbəsinin inspektoru, polis mayorudur.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 №-li Fərmanı ilə polis mayoru Fərəcov Ənvər Səyyad oğlu «Azərbaycan Milli Qəhrəmanı» fəxri adına (ölümündən sonra) layiq görülmüşdür.

Azərbaycan Milli Kitabxanası

## FƏRZƏLİYEV PƏHLƏVAN ƏHLİMAN OĞLU (1958-1992)



1958-ci il sentyabrın 28-də Füzuli rayonunun Qobu Dilağarda kəndində kəndli ailəsində anadan olmuşdur. Orta məktəbi qurtardıqdan sonra Şuşa Kənd Təsərrüfatı Texnikumuna daxil olmuş, oranı müvəffəqiyyətlə bitirərək Qarabulaq sovxozunda ixtisası üzrə işləmişdir. Daha sonra Qazaxıstanda ordu sıralarında hərbi qulluq keçmişdir. Tərxis olunduqda Aktyubinsk şəhərində qalmış və orada daxili işlər orqanlarında milis nəfəri kimi fəaliyyətə başlamışdır. Nümunəvi xidmətinə görə qısa müddətdən sonra növbətçi hissə üzrə baş inspektor vəzifəsinə irəli çəkilmiş, milis baş leytenantı rütbəsinə layiq görülmüşdür. Pəhləvan cüssəli yaxşı güləşçi olan P.Fərzəliyev dəfələrlə yarışlarda mükafatlar, fəxri fərmanlar və medallar qazanmışdır. İşləyə-işləyə Orenburq Politexnik İnstitutunun avtomobil nəqliyyatının istismarı fakültəsinə daxil olmuşdu. Lakin institutu bitirmək ona qismət olmadı...

1990-cı il 20 Yanvar faciəsindən sonra artıq dözə bilməyən Pəhləvan Fərzəliyev Azərbaycana gəlib Füzuli RDİŞ-də öz xidmətini davam etdirməyə başlamışdı. DİN-in əmri ilə əvvəlcə Füzuli RDİŞ-ə növbətçi inspektor vəzifəsinə təyin olunan Pəhləvan Fərzəliyev çox keçmədən Post-Patrul Xidməti bölüyünün 3-cü tağımına komandir təsdiq edilmişdi. 1991-ci ilin noyabrında ona ikinci vəzifə də etibar olunmuş və zirehli texnikaya –BTR komandiri kimi başçılıq etmək tapşırılmışdı. P.Fərzəliyev öz ekipajı ilə erməni qəsbkarlarına qarşı ən ağır döyüşlərə atılır və şəxsi şücaətlər göstərirdi.

...1992-ci il aprelin 11-də rayonun əsas strateji dayaq məntəqələrindən biri sayılan Qacar kəndini necə olursa-olsun almağa çalışan ermənilərlə baş verən ölüm-dirim savaşında öz zirehlisi ilə iştirak edən igid komandir aldığı ağır yaradan qəhrəmanlıqla həlak olmuşdur. Onun 3 övladı yadigar qalmışdır. Qızı Gülşən, oğlanları Mobil və Xaliq, həyat yoldaşı Sona xanım, habelə bütün füzullilər torpaqlarımızın müdafiəsində canını əsirgəməyən əzizləri, milis baş leytenantı Pəhləvan Fərzəliyevlə haqlı olaraq fəxr edirlər. Pəhləvanın həyatı və xidmət yolu bütün xalqımız üçün örnəkdir.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 №-li Fərmanı ilə Füzuli RPŞ-nin tağım komandiri, polis baş leytenantı Fərzəliyev Pəhləvan Əhliman oğlu «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına (ölümündən sonra) layiq görülmüşdür.

Azərbaycan Milli Kitabxanası

## GÜLƏLİYEV OQTAY GÜLƏLİ OĞLU (1962-1992)



1962-ci ildə Laçın rayonunun Xaçınçaylı kəndində kəndli ailəsində anadan olub. On üç yaşı olarkən atası vəfat etmiş və 8 uşaqla bərabər anası Səbinə xalanın himayəsində böyümüşdür. Orta məktəbdən sonra fəhlə işləyib və tezliklə hərbi xidmətə çağırılıb. 1982-ci ildə hərbi xidməti başa vurub Laçına qayıdıb. Dörd il rayon istehlak cəmiyyətində çalışıb. 1986-ci ildə Rayon Daxili İşlər Şöbəsinə işə düzəlib. Bir müddət pasport bölməsində inspektor işləyib. Erməni işğalçılarının təzyiqi artanda onlarla bilavasitə döyüşmək üçün Post-Patrul Xidmətinə milis nəfəri vəzifəsinə keçib. Özünü yaxşı cəhətdən göstərdiyi üçün çox keçmədən onu PPX-nın rota (tağım) komandiri təyin ediblər. Tezliklə Oqtay Güləliyevə milis baş leytenant rütbəsi verilib.

...1991-ci ilin yazında ermənilər tərəfindən İmişlinin Laçın yaylaqlarındakı qoyun sürüsündən 15 min baş Ermənistan ərazisinə sürülüb-aparılarkən Oqtay dostu Zülfəli ilə birlikdə özünü yetirib yaraqlılarla döyüşə girmiş və sürünün yarısını onlardan ala bilmişdi. Oqtayın rotası bir çox uğurlu döyüş əməliyyatları keçirmişdi. Şuşanın Kərkicahan kəndi ermənilər tərəfdən işğal olunan zaman onun harayına ilk çatan Oqtayın rotası olmuşdu. Oqtay dəstəsi ilə birlikdə kəndi azad etmiş və 100-dən artıq erməni yaraqlısı məhv olunmuşdu. Daşaltı əməliyyatında xəyanət nəticəsində mühasirəyə düşmüş 80 əsgərimizi və polis əməkdaşlarımızı məhz həmin yerlərə yaxşı bələd olan Oqtayın rotası mühasirədən çıxarmışdı.

Şuşa xəyanətin qurbanı olan vaxt (1992-ci il mayın 9-da) Oqtayın rotası «Aşağı zastava» deyilən yerdə özündən qat-qat artıq düşmənlə vuruşurdu. Amma kömək gəlmədiyindən rota İsa bulağından Sarıbabaya tərəf çəkilməyə məcbur olmuşdu. Pircahan kəndi yaxınlığında yaralanan Oqtaya Laçının işğalı olduqca pis təsir etmişdi. Nərgiz yüksəkliyini ələ keçirib, oradan Sus və Qızılağac kəndinə tərəf irəliləyən Oqtay Güləliyevin kiçik dəstəsi 1992-ci il sentyabrın 19-da Laçının Hocaz kəndində mühasirəyə düşmüşdür. Ermənilər piyada və döyüş maşınları, habelə 7 tankla hücuma keçmişdilər. Oqtay, Ədalət, Əli və Əşrəfdən ibarət 4 nəfərlik dəstə sonadək düşmənlə vuruşmuşdular. Köməyə gələn olmadığından Oqtay Güləliyev iki dostu ilə qəhrəmancasına həlak olmuşdu. İki övladı – Anar və Xatirə qəhrəman atalarının yadigarı qalmışdır.

Azərbaycan Respublikası Prezidentinin 11 may 1993-cü il tarixli 599 №-li Fərmanı ilə Laçın RPŞ-nin tağım komandiri, polis baş leytenantı Güləliyev Oqtay Güləli oğlu «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına (ölümündən sonra) layiq görülmüşdür.

Azərbaycan Milli Kitabxanası



# HACIYEV ƏLİF LƏTİF OĞLU (1953-1992)

1953-cü il iyunun 24-də Xocalı şəhərində anadan olmuşdur. 1960-1971-ci illərdə Xocalı orta məktəbini, eyni zamanda Xankəndi OADKYC nəzdində ikiillik avtomobil məktəbini bitirmişdir. 1971-1973-cü illərdə Belarusiyanın paytaxtı Minsk şəhərində hərbi xidmət keçmişdir. 1976-1979-cu illərdə SSRİ DİN-in M.F.Frunze adına Xüsusi Orta Milis Məktəbində qiyabi oxumuşdur. 1977-1982-ci illərdə Brest şəhər DİI-də CA üzrə əməliyyat müvəkkili, sonra Baranoviçidə Cinayət-Axtarış Şöbəsi rəisinin müavini işləmişdir. Sonra da SSRİ DİN-in İstintaq-əməliyyat qrupunun tərkibində Severodvinsk şəhərində çalışmışdır.

Əlif Hacıyev 1981-ci ildə qiyabi olaraq SSRİ DİN-in Leninqrad (indiki Santk-Peterburq) şəhərindəki Akademiyasına daxil olmuşdu. 1982-ci ildə Azərbaycana gəlməsi ilə əlaqədar təhsilini həmin Akademiyanın Rostov filialında davam etdirmişdi. O, 1982-ci ilin noyabrında DQMV Daxili İşlər İdarəsinin sərəncamına göndərilmişdi. Lakin ermənilərin maneçiliyi ucbatından işlə yalnız 6 aydan sonra təmin edilmişdi. 1984-cü ilin oktyabrınadək Əsgəran RDİŞ-in Ballıca kəndində sahə inspektoru vəzifəsində çalışan milis baş leytenantı Ə.Hacıyevi erməni millətçiləri saxta ittihamlarla ləkələyərək (Guya o xidmət başında «rüşvət» almışdı. Halbuki erməni əməkdaşları pulu onun pencəyinin cibinə qəsdən atmış və dərhal da qamarlayıb həbs etmişdilər – İ.Ə.) onun böhtanla həbsinə nail olmuşdular. Əslində səbəb bu idi ki, Əlif DQMV-də uzun müddət fəaliyyət göstərən gizli millətçi erməni mərkəzini ifşa etməyə çalışmış və bu haqda respublika rəhbərliyinə də vaxtında məlumat vermişdi.



Əlif Hacıyev hələ Qarabağ hadisələrinin başlanmasından 4 il əvvəl, 1984-cü ilin avqustunda silah saxlamaqdan çəkinməyən erməni yaraqlılarının 9 yaşlı günahsız İlham Əsgərovu oğurlayıb ona divan tutmalarına mane olmuşdu. Xənkəndində uşağın gizlədildiyi zirzəmini taparaq onun həyatını xilas etməsini, bununla əlaqədar 5 nəfər daşnak millətçisinin ifşa və həbs edilməsinə nail olduğunu ermənilər unutmamışdılar. Onlar Əlifdən 1984-cü il oktyabrın 15-də qisas almış, DQMV DİI-nin rəisi Armen İsaqulov və digər nüfuzlu havadarların köməyi ilə ona 10 il həbs cəzası kəsdirmişdilər. Ə.Hacıyev Sverdlovsk (indiki Yekaterinburq) şəhərindəki 13 nömrəli İslah-Əmək koloniyasına göndərilmişdi...

Lakin o, mübarizəni dayandırmamışdı. Haqsız yerə həbs edilməsi barədə Azərbaycan SSR Prokurorluğuna şikayət ərizəsi ilə müraciət etmişdi. Uzun çək-çevirdən sonra Əlifin işinə yenidən baxılmış, 10 illik həbs cəzası 6 illə əvəz edilmişdi. Nəhayət, 1583 gün həbsdə qaldıqdan sonra 1990-cı il sentyabrın 5-də bəraət alan Əlif Hacıyev Qarabağa Xalq Yardımı Komitəsinin və Dağlıq Qarabağ Üzrə Təşkilat Komitəsinin təqdimatları əsasında, habelə xalqımızın unudulmaz oğlu, respublikanın mərhum daxili işlər naziri, general-mayor Məhəmməd Əsədovun köməyi sayəsində yenidən milis orqanına bərpa olunmuşdu. DİN-in əmri ilə Əlif Hacıyev 1990-cı il dekabrın 21-də Xocalı təyyarə limanı Xətt daxili işlər bölməsinin rəisi təyin edilmişdi. Ona həm də Xocalı təyyarə limanında komendant vəzifəsi tapşırılmışdı.

Xalqımızın bu qeyrətli və qorxmaz oğlunun rəis işlədiyi müddətlə bir erməni millətçisi belə Xankəndinə silah gətirə bilməmişdi. Ancaq hadisələr getdikcə mürəkkəbləşdi. Xocalı respublikamızdan getdikcə təcrid olundu. Əlif Hacıyev yaranmış vəziyyət barədə Bakıya tez-tez məlumatlar verirdi. Ancaq... ancaq sonrası daha hamıya məlumdur...

...1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda baş verən faciə zamanı Əlif Hacıyev öz silahdaşları ilə birlikdə erməni-rus hərbçilərinə qarşı bütün qüvvəsilə vuruşdu. O, təyyarə limanından çıxmamışdan əvvəl öz əli ilə düşmənin əlinə keçməsin deyə, dispetçer məntəqəsini partlatmış, camaatın xeyli hissəsini Ağdamın



Azərbaycan Milli Kitabxanası

Şelli kəndinə tərəf təhlükəsiz yerə çıxara bilmişdi.

Polis mayoru Əlif Hacıyev xocalıların ümid və pənah yeri idi. O nə qədər qocanı, qız-gəlini, uşağı düşmən mühasirəsindən çıxarıb yenidən döyüşə atılmışdı. Yalnız mühasirədə qaldıqda əsir düşəcəyini görüb son gülləni öz ürəyinə sıxmışdı…

Xalqımızın qəhrəman oğlu Əlif Hacıyevin məzarı Bakıda Şəhidlər Xiyabanındadır. Onun xatirəsi əbədiləşdirilmişdir. İndi Xəzər dənizində Əlif Hacıyev adına üzən gəmi, Bakının 8-ci kilometr qəsəbəsində orta məktəb və küçə vardır. Əlifin özündən sonra 2 qız yadigarı qalıb – Zərinə və İradə. Ömür-gün yoldaşı Qalina və qardaşı Rza onun yolunu davam etdirirlər. Qalina bir müddət DİN NBPİ-nin Bakı Hava Nəqliyyatında Polis İdarəsində çalışıb. Hazırda Qalina Bakı şəhəri Sabunçu RPİ-də Qeydiyyat və şəxsiyyət vəsiqəsi şöbəsinin inspektoru vəzifəsində çalışır, polis kapitanıdır. Qardaşı Rza Bakı şəhər BPİ Çevik Polis Alayının komandiri, polis polkovnikidir. Azərbaycan Respublikasının «İgidliyə görə» medalı ilə təltif edilmişdir. Əlifə gəldikdə isə … xatirəsi daim xalqımızın qəlbində yaşayır və yaşayacaqdır.

Azərbaycan Respublikası Prezidentinin 5 iyun 1992-ci il tarixli 831 №-li Fərmanı ilə polis mayoru Əlif Lətif oğlu Hacıyev «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına (ölümündən sonra) layiq görülmüşdür.





## HƏSƏNOV ELDAR İSFƏNDİYAR OĞLU (1965-1994)

1965-ci ildə Cəlilabad rayonunun Alar kəndində anadan olmuşdur. Orta məktəbi bitirib hərbi xidmətə getmişdir. Erməni təcavüzkarları torpaqlarımıza soxulanda Eldar Həsənov DİN-in Xüsusi Təyinatlı Polis dəstəsinə polis nəfəri vəzifəsinə daxil olmuş və döyüşlərə yollanmışdır. Polis starşinası idi.

Eldar Həsənov Dağlıq Qarabağda və ətraf bölgələrdə torpaqlarımızın müdafiəsi uğrunda gedən döyüşlərdə yaxından iştirak etmişdir. O, 1994-cü il mayın 11-də Füzuli rayonu ərazisində gedən döyüşlərdən birində qəhrəmancasına həlak olmuşdur. Xatirəsi əbədiləşdirilmişdir. Doğulduğu Alar kəndindəki orta məktəbə Eldar Həsənovun adı verilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 15 yanvar 1995-ci il tarixli 262 №-li Fərmanı ilə Həsənov Eldar İsfəndiyar oğlu «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına (ölümündən sonra) layiq görülmüşdür.

Azərbaycan Milli Kitabxanası

## HƏSƏNOV TABİL QASIM OĞLU (1960-1992)



1960-cı il noyabrın 4-də DQMV Əsgəran rayonunun Kosalar kəndində anadan olub. 1977-ci ildə kənd orta məktəbini bitirib. 1980-1982-ci illərdə uzaq Boykonurda (Qazaxıstan SSR-də) hərbi xidmət keçmişdir. 1989-cu ildə Kosalar kəndində yaradılan özünümüdafiə batalyonunda bölmə komandiri idi. 1991-ci ildə polisə daxil olmuş, həmin ilin fevralından 1992-ci il martın 29-dək, ömrünün sonunadək Şuşa RPŞ-nin Post-Patrul bölüyündə manqa komandiri vəzifəsində xidmət etmişdir. Polis baş serjantı rütbəsi vardı.

Tabil Həsənov Kosalar, Cəmilli, Meşəli və digər azərbaycanlı kəndlərinin erməni yaraqlılarından müdafiə edilməsində igidliklər göstərmişdir. O, 1992-ci il martın 29-da gecə Milli Ordu döyüşçüləri ilə birlikdə Xankəndinin 4-5 kilometrliyində erməni quldurları ilə qızğın döyüşlərdən birində qəhrəmancasına həlak olmuşdur. T.Həsənov bu döyüşdə təkbaşına 12 düşməni məhv etmişdi.

Tabil Həsənov doğulduğu Kosalar kəndində dəfn edilmişdir. Hələ sağlığında, 1992-ci ildə ona general Məhəmməd Əsədov adına mükafat verilmişdi. Evli idi. 3 övladı – 2 qızı və 1 oğlu qalmışdır. Qızları Dürdanə, Qəndab və oğlu Nəsir, həyat yoldaşı Lətifə xanım, habelə bütün qarabağlılar qəhrəman Tabillə fəxr edirlər.

Azərbaycan Respublikası Prezidentinin 15 yanvar 1995-ci il tarixli 262 №-li Fərmanı ilə polis baş serjantı Həsənov Tabil Qasım oğlu «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına (ölümündən sonra) layiq görülmüşdür.



## HƏSƏNOV SƏYAVUŞ HƏSƏN OĞLU (1964-1992)



1964-cü ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Yeycə kəndində anadan olmuşdur. Orta məktəbdən sonra hərbi xidmətə getmişdir. Starşina rutbəsi vardı. Hələ 1991-ci ildə Şərurda yaradılan özünümüdafiə dəstəsinə könüllü daxil olmuşdu. Sonra Yuxarı Qarabağa gəlib yenicə təşkil edilmiş Ağdərə rayon Polis Şöbəsinə qəbul edilmişdi. Polis nəfəri, polis starşinası Səyavuş Həsənov qısa müddətdə Daşaltı, Şuşa, Laçın və s. kimi ağır əməliyyatlarda özünü igid döyüşçü kimi göstərmişdi.

Səyavuş Həsənov son döyüşünü 1992-ci il iyulun 21-də Ağdərə rayonunda Qarsıravan (Qırmızıkənd) adlanan yerdə keçirmişdir. O, düşmənin bir zirehli tankını partlatmış, lakin ikinci tankla mübarizədə qəhrəmancasına həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 21 iyul 1992-ci il tarixli 69 №-li Fərmanı ilə polis nəfəri, polis starşinası Həsənov Səyavuş Həsən oğlu «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına (ölümündən sonra) layiq görülmüşdür.

Azərbaycan Milli Kitabxanası



## HƏSƏNOV TAHİR TOFİQ OĞLU (1970-1992)

1970-ci ildə Bakı şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra hərbi xidmətə çağırılmış, Hərbi-Hava Qüvvələrində desant qoşunlarında qulluq etmişdir. Ordudan tərxis edilib Bakı Dövlət Universitetinin tarix fakültəsinə qəbul olmuşdur. Lakin 2-ci kursda ikən Yuxarı Qarabağda vəziyyətin kəskinləşdiyini görüb dözməmiş, könüllü olaraq respublika DİN-nin Xüsusi Təyinatlı Polis Dəstəsinə girmişdi. Polis serjantı rütbəsi vardı.

DİN XTPD-nin tərkibində erməni işğalçılarına qarşı bir sıra ağır döyüşlərdə iştirak etmiş Tahir Həsənov 1992-ci il sentyabrın 2-də Ağdərə rayonunda Çıldıran kəndi ətrafında kəşfiyyata yollanmış, lakin erməni yaraqlılarının pusqusuna düşmüşdür. Ermənilərin təslim olmaq təkliflərinə atəşlə cavab verən Tahir Həsənov sonadək vuruşmuş və qəhrəmanlıqla həlak olmuşdur. Xatirəsi əbədiləşdirilmişdir. Bakıda vaxtilə oxuduğu 23 saylı orta məktəb indi Tahir Həsənovun adını daşıyır.

Azərbaycan Respublikasının Prezidentinin 19 oktyabr 1992-ci il tarixli 273 №-li Fərmanı ilə polis nəfəri, polis serjantı Tahir Tofiq oğlu Həsənov «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına (ölümündən sonra) layiq görülmüşdür.



## HÜSEYNOV ELŞAD EYNULLA OĞLU (1960-1992)



1960-cı il oktyabrın 8-də Masallı rayonunun Xıl kəndində fəhlə ailəsində anadan olmuşdur. Kənd orta məktəbini bitirdikdən sonra orduda hərbi xidmət çəkmiş, tərxis olunduqdan sonra isə ömrünün axırınadək Bakı şəhəri BPİ Səbail RPİ yanında Mühafizə Şöbəsində polis nəfəri vəzifəsində xidmət etmişdir. Polis baş serjantı rütbəsi vardı. N.Rizayev adına Bakı Xüsusi Orta Milis Məktəbində qiyabi təhsil alırdı.

Elşad Hüseynov milis mühafizə dəstəsinin tərkibində dəfələrlə Yuxarı Qarabağda ezamiyyələrdə olmuş, həm də erməni təcavüzkarları ilə döyüşlərdə iştirak etmişdir. O, 1992-ci ilin iyununda Ağdam rayonu ərazisindəki döyüşlərdən birində qəhrəmancasına həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 №-li Fərmanı ilə polis nəfəri, polis baş serjantı Elşad Eynulla oğlu Hüseynov «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına (ölümündən sonra) layiq görülmüşdür.

Azərbaycan Milli Kitabxanası

## HÜSEYNOV SADIQ DAYANDIR OĞLU (1961-1992)



1961-ci ildə Ağcabədi rayonunun Xocavənd kəndində anadan olmuşdur. Kənd orta məktəbini bitirib orduda hərbi qulluğa getmişdir. Əsgərliyini başa vurduqdan sonra Xankəndi Pedaqoji İnstitutuna daxil olmuş, oranı müvəffəqiyyətlə bitirmişdir. Erməni millətçilərinin «oyunlarına» yaxşı bələd olan Sadıq onlarla mübarizə məqsədilə milisə girmişdi. Şuşa RDİŞ-də sahə inspektoru vəzifəsində çalışan Sadıq Hüseynov azərbaycanlıların təhlükəsizliyinin mühafizəsində çoxlu qüvvə sərf etməli olurdu. Erməni ekstremistlərinə qarşı döyüşlərdə var qüvvəsini əsirgəməyən milis leytenantı Sadıq Hüseynov 1992-ci il martın 29-da Şuşanı erməni işğalçılarından müdafiə edərkən qəhrəmancasına həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 №-li Fərmanı ilə polis leytenantı Sadıq Dayandur oğlu Hüseynov «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına (ölümündən sonra) layiq görülmüşdür.



## HÜSEYNOV VÜQAR TOFİQ OĞLU (1969-1991)



1969-cü il iyunun 20-də Cəbrayıl rayonunun Daşkəsən kəndində müəllim ailəsində anadan olmuşdur. 1986-cı ildə Daşkəsən kənd orta məktəbini bitirmişdir. 1986-87-ci illərdə Bakıdakı 14 saylı texniki-peşə məktəbində təhsil almışdır. 1987-1989-cu illərdə Ukraynada daxili qoşun hissələrində əla xidmət keçmişdir. Əsgərlikdən qayıdan Vüqar Bakıda «Kirovneft»də elektrik qaynaqçısı işləmişdir. Gizli olaraq karate ilə də məşğul olurdu. Lakin doğulduğu yerlərə erməni qəsbkarlarının hücumu ona bir an belə rahatlıq vermirdi. Düşmənlə vuruşa can atırdı Vüqar.

1990-cı ilin oktyabrında DİN-in Xüsusi Təyinatlı Milis Dəstəsinə daxil oldu. Polis nəfəri, polis serjantı Vüqar Hüseynov bir çox döyüşlərdə hünərlər qazanmış, XTMD-nin ən nüfuzlu əməkdaşlarından birinə çevrilmişdir. Zəngilanda, Qubadlıda, Laçında, Xocalıda XTMD-nin düşmənə qarşı keçirdiyi uğurlu əməliyyatlar camaatı sevindirirdi. Lakin 1991-ci ilin yayında Goranboyda ermənilər çox fəallaşmışdılar. Vüqargilin dəstəsi Goranboy, Buzluq, Erkəç, Mənəşid kəndlərində də erməni yaraqlılarına öz şücaətlərini göstərmişdilər.

...20 iyul 1991-ci il. Həmin gün qəhrəman «OMON»çu Vüqar Hüseynov üçün həyatla vida günü oldu. Cəsur döyüşçü V.Hüseynov 1991-ci il iyulun 20-də Goranboy rayonunun Buzluq kəndi uğrunda gedən qanlı döyüşdə qəhrəmancasına həlak oldu. Vüqar Hüseynov doğma kəndi Daşkəsəndə torpağa tapşırılmışdır. Onun dəfn mərasiminə DİN-in rəhbər işçilərindən tutmuş sıravi döyüşçülərə qədər çoxlu adam gəlmişdi. Ölümündən 5 ay sonra 1991-ci il dekabrın 18-də hələ o zaman rəsmən dağılmamış ölkənin prezidentinin fərmanı ilə polis baş serjantı Vüqar Hüseynov xidməti

Azərbaycan Milli Kitabxanası

vəzifəsini icra edərkən göstərdiyi igidliyə görə «Qırmızı Ulduz» Ordeni (ölümündən sonra) ilə təltif edilmişdi.

Vüqar Hüseynovun xatirəsi əbədiləşdirilmiş, doğma kəndlərində oxuduğu məktəbə onun adı verilmişdir. Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 5 iyun 1992-ci il tarixli 831 №-li Fərmanı ilə DİN XTPD-nin polis nəfəri, polis baş serjantı Vüqar Tofiq oğlu Hüseynov «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına (ölümündən sonra) layiq görülmüşdür.



## XƏLİLBƏYLİ TƏBRİZ XƏLİL RZA OĞLU (1964-1992)



1964-cü il fevralın 12-də Bakıda Azərbaycan xalqının görkəmli istiqlal şairi Xəlil Rza Ulutürkün ailəsində dünyaya göz açmışdır. 1981-ci ildə Bakıdakı Mikayıl Müşfiq adına orta məktəbi bitirmişdir. Mədəniyyət və İncəsənət Universitetinin rejissorluq fakültəsinə daxil olmuşdur. Milli Yaradıcılıq Akademiyasının əməkdaşı idi. Sonra onu orduya hərbi xidmətə çağırmışlar. Lakin Sovet ordusunda qulluq etməyin əsl mahiyyətini bilən və buna nifrət edən Təbriz uzaq Murmanskda xidmətə getməkdən imtina etmiş, həbs olunmağı bundan üstün tutmuşdu...

Universitetin 4-cü kursunda olarkən Təbriz Xəlilbəyli 1991-ci ilin noyabrında təhsilini yarımçıq qoyaraq könüllü Milli Ordumuzun sıralarına daxil olmuşdu. Ən qaynar döyüş nöqtələrində DİN XTMD-nin zirehli maşınında Xocavəndin Qaradağlı kəndində, Əsgəran ətrafındakı Xramort, Xanabad, Fərrux, Naxçıvanik kəndlərində döyüşlərdə Təbriz xüsusilə fərqlənmişdi. Qeyd etmək lazımdır ki, Təbriz Xəlilbəyli o dövrdə, DİN-in təsis etdiyi «Boz qurd» dəstəsinin üzvü olmuş və nazirliyin təqdimatı ilə ən yaxşı döyüşçü kimi mükafata və laureat adına layiq görülmüşdü... Halbuki o, özü buna etiraz etmişdi...

...Ağdam rayonunda komandir Xudu Xudiyevin rəhbərliyi ilə yaradılmış 18/115 saylı batalyonun tərkibində də mərdliklə döyüşən Təbriz canından artıq sevdiyi Vətəni, Qarabağ torpağı uğrunda şəhid oldu. 1992-ci il yanvarın 31-dən fevralın 1-nə keçən gecə zirehli maşınla düşmən üzərinə gedərkən qeyri-bərabər döyüşdə silah yoldaşları Elşad və Aydınla birlikdə sonadək vuruşaraq qəhrəmanlıqla həlak olmuşdur.

Leytenant Təbriz Xəlilbəyli 1992-ci il fevralın 5-də Bakıda

Azərbaycan Milli Kitabxanası

Şəhidlər Xiyabanında böyük izdihamın müşayiəti ilə dərin kədər və hüznlə dəfn edilmişdir. Bunu aşağıdakı sənəddən aydın duymaq olar:

*«Hörmətli Xəlil bəy!*

*Ailənizə və xalqımıza üz vermiş faciənin sorağı hamımızı sarsıtdı. Bu gün qədim Türk məmləkəti qan ağlayır. Qarabağın qaynarında ən ləqayətli oğullarımız şəhid düşür. Qəhrəman oğlunuz Təbrizin, Azərbaycanın istiqlalı uğrunda canlarından keçən igidlərimizin qanı yerdə qalmayacaqdır.*

*Böyük oğul atası! Bütün Naxçıvan əhli ağır kədərinizə şərik çıxır... Məzarı nurla dolsun. Sizi bağrıma basıb, gözlərinizdən öpürəm.*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri*
*Heydər Əlirza oğlu Əliyev, 5 fevral 1992-ci il».*

Təbriz Xəlilbəyli cəmi 28 il yaşadı. Onun Türkay və Gültac adlı iki qız yadigarı qalmışdır. Xatirəsi əbədiləşdirilmişdir. 2001-ci il fevralın 16-da Bakıda Təbrizin yaşadığı 25 saylı binanın qarşısına onun barelyefi - «xatirə lövhəsi» vurulmuşdur. Adına küçə də vardır. Təbrizə xalq məhəbbəti böyükdür. Xaçmazda memar Qərib, Xəlil Rza Ulutürk və oğlu Təbriz Xəlilbəylinin xatirəsinə sonsuz ehtiram əlaməti olaraq öz həyətində onların bir yerdə abidəsini yaratmışdır.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 №-li Fərmanı ilə Təbriz Xəlilbəyli «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına (ölümündən sonra) layiq görülmüşdür.



## İBRAHİMOV NURƏDDİN İSLAM OĞLU (1951-1995)



1951-ci il martın 16-da Bakının Buzovna qəsəbəsində anadan olmuşdur. 1969-cu ildə Buzovna qəsəbəsindəki 125 saylı orta məktəbin XI sinfini bitirmişdir. 1970-ci ildə əsgərliyə getmişdir. Tərxis edilib yenidən Bakıya qayıtmış və Neft Texnikumuna daxil olaraq oranı müvəffəqiyyətlə qurtarmışdır. Texnikumu başa vurub 1975-ci ilin iyulunda yenidən Rusiyaya yollanmış və BAM da (Sibirdə) komsomol göndərişi ilə Kuperma qəsəbəsində işləməyə başlamışdır. İrkutsk şəhər Daxili İşlər İdarəsində işə qəbul olmuşdur. Özünü yaxşı cəhətdən göstərmişdir. 1980-ci ilin mayında Xabarovsk Ali Milis Məktəbinə qiyabi daxil olmuş, 1986-cı ildə oranı bitirmişdir. 1982-ci ildə İrkutsk şəhərində baş sahə inspektoru təyin olunmuş və həmin ilin martında Sov. İKP üzvlüyünə qəbul edilmişdir. 1986-cı ildə «Əla xidmətə görə» döş nişanı ilə təltif olunmuşdur. Həmin il onu İrkutsk şəhər DİI-də Cinayət-Axtarış Şöbəsinin rəis müavini vəzifəsinə irəli çəkmiş, 1988-ci ildə isə həmin şöbənin rəisi təyin etmişlər. Polis kapitanı N.İbrahimov 1989-cu ildə İrkutsk şəhər sovetinə deputat seçilmişdir.

Lakin Vətəndə baş verən həyəcanlı hadisələrə biganə qala bilməyən Nurəddin İbrahimov 12 il İrkutsk şəhərində işlədikdən sonra 1990-cı ildə Azərbaycana dönüb dərhal da döyüş bölgəsindəki əməliyyatlarda iştirak etməyə başlayıb... Laçın Rayon Daxili İşlər Şöbəsinə sahə müvəkkili vəzifəsinə təyinat alan vətənpərvər milis zabiti erməni qəsbkarları ilə şiddətli döyüşlərdə iştirak edib. 1991-ci ildə Bakıya qayıdıb. Buzovna qəsəbəsində Bakı şəhəri Əzizbəyov RPİ-nin 2-ci Polis Bölməsinə də sahə müvəkkili təyin olunub. Polis mayoru rütbəsi alıb. O, Bakıda sahə müvəkkili

Azərbaycan Milli Kitabxanası

işləyəndə də 1992-ci ildə Kosalar kəndi və 1993-cü ildə Cəbrayıl rayonu uğrunda gedən döyüş əməliyyatlarında iştirak etmişdir. Bu, Bakı şəhəri Əzizbəyov RPİ-nin rəisi, polis polkovniki Hüseynxan Ocadovun imzaladığı arayışdan da məlum olur.

Polis mayoru Nurəddin İbrahimov 1995-ci il fevralın 10-da Binə qəsəbəsində Qüdrət adlı qatı cinayətkarı zərərsizləşdirərək özü də aldığı ağır qumbara yarasından qəhrəmancasına həlak olmuşdur. Məzarı Buzovna qəsəbəsindədir. Leyla adlı bir qız yadigarı qalmışdır.

Azərbaycan Respublikası Prezidentinin 26 dekabr 1995-ci il tarixli 424 №-li Fərmanı ilə Bakı şəhəri Əzizbəyov RPİ-nin sahə inspektoru, polis mayoru İbrahimov Nurəddin İslam oğlu «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına (ölümündən sonra) layiq görülmüşdür.



## İSMAYILOV İLQAR SƏDİ OĞLU (1959-1992)



1959-cu il martın 29-da Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. Əvvəl 45 saylı orta məktəbdə oxumuş, sonra isə 1976-cı ildə Bakıdakı 6 saylı idman təmayüllü orta məktəbi bitirmişdir. Hələ 9 yaşında «Lokomotiv» idman cəmiyyətinə güləş bölməsinə üzv yazılmışdı. Orta məktəb illərində cüdo üzrə Bakı şəhərinin və respublikanın çempionu olmuşdu. 1973-cü ildə Leninqrad (indiki Sankt-Peterburq) şəhərində keçirilən SSRİ birinciliyindən Vətənə qələbə ilə qayıtmışdı. O, sonralar Moskva, Odessa, Minsk, Oryol, Lvov, Almaatı, Kuybışev (indiki Samara), Çirçik (Özbəkistan) şəhərlərindən də doğma Bakıya qələbə ilə qayıtmışdı.

1976-1980-ci illərdə Azərbaycan Dövlət Bədən Tərbiyyəsi İnstitutunda təhsil alarkən də dəfələrlə bir sıra məsul yarışların qalibi olmuşdur. 1980-1981-ci illərdə Xankəndində hərbi xidmətini başa vurduqdan sonra müxtəlif idman cəmiyyətlərində məşqçi işləmişdir.

1986-cı ildə DİO-ya daxil olmuş, Bakı şəhəri DİI Sabunçu RDİŞ-də CA üzrə əməliyyat müvəkkili vəzifəsində fəaliyyətə başlamışdır. Polis kapitanı rütbəsinədək yüksəlmişdi. 1987-ci ildə ailə qurmuşdu. Polis orqanlarındakı fəaliyyəti dövründə dəfələrlə könüllü olaraq Azərbaycanın suverenliyi, ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə yaxından iştirak etmiş, qəhrəmanlıq nümayiş etdirmiş, şəxsi igidlik və şücaəti ilə fərqlənmiş, böyük hörmət və nüfuz qazanmışdı.

1991-ci ilin dekabrında Bakı polisindən könüllü olaraq Şuşanın müdafiəsinə köməyə gedən 100 nəfər cəsur əməkdaşın içərisində İlqar da vardı. İ.İsmayılov cəbhəyə sonuncu dəfə 1992-ci il sentyabrın 23-də yola düşmüşdü. Həmin gün o, Bakı Şəhər Baş Po-



Azərbaycan Milli Kitabxanası

lis İdarəsinə toplaşmış polis həmkarları sırasında Qarabağa yola düşmüşdü. İlqar həmişə döyüşün önündə vuruşurdu.

Kosalarda, Canhəsəndə, Cəmillidə (İlqargil təkcə bu kənddə 48 erməni yaraqlısını məhv etmişdilər), Meşəlidə və digər kəndlərdə öndə ən qızğın nöqtələrdə döyüşərək yoldaşlarını ruhlandırırdı. Ağdam ətrafında xəyanət nəticəsində düşdükləri mühasirədən İlqargil məhz onun ağıllı hərəkəti və cəsarəti nəticəsində çıxa bilmişdilər.

Sonuncu səfər zamanı İlqargilin batalyonu Qubadlının Muradxanlı kəndində yerləşmişdi. Laçın dəhlizini qorumaq və ermənilərə zərbə vurmaq üçün hazırlıq görürdülər. Laçının Səfiyan kəndindəki qanlı döyüş xüsusilə yaddaqalan idi. İlqarın komandir olduğu rota Mazutlu yüksəkliyində mövqe tutmuşdu. 1992-ci il sentyabrın 31-də Mazutlu kəndi uğrunda qanlı döyüşlər başlandı. Qarşıdakı Qızartı dağındakı strateji əhəmiyyətli yüksəkliyi ələ keçirmək mühüm vəzifə idi. Həmin yüksəklik ələ keçirilsəydi, artıq ermənilər Laçın dəhlizindən məhrum olacaqdılar. İlqarın özü snayperlə 12 erməni qurdurunu məhv etmiş, yoldaşları ilə birlikdə 3 ermənini əsir götürmüşdü. Lakin düşmən əlavə qüvvə gətirib İlqargili mühasirəyə almışdılar. Bizimkilərin vəd etdiyi kömək isə gəlib çıxmırdı...

1992-ci il oktyabrın 1-də Laçın rayonunda Qızartı dağı uğrunda gedən döyüşdə polis kapitanı İlqar İsmayılov və Bakı şəhəri Binəqədi RPİ-nin əməliyyat müvəkkili, polis kapitanı Əli Məmmədov qəhrəmancasına həlak oldular.

İlqar İsmayılov Bakıda Şəhidlər Xiyabanında dəfn edilmişdir. Ailəli idi. Özündən sonra Gültəkin və Nərgiz adlı iki qız balası qalmışdır. Həyat yoldaşı Vəfa xanım Suraxanı RPİ-də çalışır. İlqarın xatirəsi əbədiləşdirilmişdir. Bakıda vaxtilə oxuduğu 45 saylı orta məktəbdə büstü ucaldılmışdır. Bakının küçələrindən biri İlqar İsmayılovun adını daşıyır. Hər il İlqar İsmayılovun adına xatirə idman turniri təşkil olunur.

Azərbaycan Respublikası Prezidentinin 19 oktyabr 1992-ci il tarixli 273 №-li Fərmanı ilə polis kapitanı İsmayılov İlqar Sədi oğlu «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına (ölümündən sonra) layiq görülmüşdür.



## İSMAYILOV İNQİLAB ƏLƏKBƏR OĞLU (1962-1992)



1962-ci ildə Əsgəran rayonunun Xocalı kəndində anadan olmuşdur. Kənd orta məktəbini bitirdikdən sonra 1980-1982-ci illərdə ordu sıralarında xidmət etmişdir. 1991-ci ilin yanvarında Xocalı şəhər milis bölməsində milis nəfəri kimi fəaliyyətə başlamışdır. Milis starşinası rütbəsi vardı. Öz vətənpərvərliyi və qorxmazlığı ilə kollektiv arasında hörmət qazanmışdı. Aparılmış hər bir döyüş əməliyyatında yaxından iştirak etmişdir. Xocalı şəhərinin müdafiəsində dəyanətlə dayanmış, şəhərə hücum edən erməni yaraqlılarına layiqli zərbələr vurmuşdur.

Xocalı faciəsində İnqilab İsmayılov qəhrəmanlığını bir daha sübuta yetirmişdir. Qeyri-bərabər döyüşdə o, erməni yaraqlılarına ağır zərbələr vurmuş, dinc əhalinin düşmən gülləsi, mərmisi altından çıxarılmasında igidliklər göstərmişdir. Belə ki, yüzlərlə qocanın, qadının və uşağın təhlükəsizliyini təmin edərək sağ-salamat Ağdam rayonu ərazisinə gətirmişdi.

Polis starşinası İ.İsmayılov Xocalı faciəsindən sonra Ağdam RPİ-nin Post-Patrul alayında xidmətini davam etdirmişdir. O, paqondaşları ilə birlikdə Ağdam rayonunun Cinni, Gülablı, Şelli, Fərrux və s. kəndləri uğrunda gedən döyüşlərdə yaxından iştirak etmişdir. İ.İsmayılovun son döyüşü 1992-ci il iyunun 12-də «Daşbaşı» əməliyyatı zamanı olmuşdur. Əsgəran yaxınlığında Daşbaşı yüksəkliyinin alınması zamanı xeyli erməni yaraqlısını məhv edən igid polis əməkdaşı son gülləsinədək döyüşmüş və qəhrəmancasına həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 №-li Fərmanı ilə «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına (ölümündən sonra) layiq görülmüşdür.

Azərbaycan Milli Kitabxanası

## KOVALYOV YURİ PETROVİÇ (1965-1991)



1965-ci il mayın 29-da Goyçayda anadan olmuşdur. Ailəsi Bakıya köçdükdən sonra 1981-ci ildə Nizami rayonundakı 229 saylı orta məktəbi bitirmişdir. 1983-1985-ci illərdə orduda hərbi xidmət keçmişdir. 1987-ci ildə Qırmızı Bayraqlı Qara Dəniz Donanmasının 109 nömrəli miçmanlar və praporşiklər məktəbinə daxil olmuşdur. Qarabağda qara buludlar sıxlaşanda bir vətəndaş kimi Yuri də narahatçılıq keçirirdi. Düşmənlə mübarizə aparmağı qarşısına məqsəd qoyan Y.Kovalyov 1990-cı il sentyabrın 15-də DİN-in Xüsusi Təyinatlı Milis Dəstəsinə (XTMD) milis nəfəri vəzifəsinə daxil oldu. Milis starşinası rütbəsi vardı.

Y.Kovalyov düşmən tərəfindən o zaman «Məhəmməd Əsədovun bandası» adlandırılan XTMD sıralarında döyüşərək xariqələr yazmışdır. Döyüşlərdə yüksək peşə səriştəliliyi nümayiş etdirən Yuri Kovalyov dillər əzbəri idi. Ermənilər onun başına yüksək pul mükafatı ayırmışdılar. Onu öldürmək üçün xüsusi snayperlər qrupu hazırlanmışdı. Erməni yaraqlılarının yuvasına çevrilmiş Çaykəndinin düşməndən təmizlənməsində Yuri Kovalyov əfsanəvi döyüşçü zirvəsinə qalxdı. Goranboyun Mənəşid, Buzluq, Erkəc, Todan kəndlərində gedən döyüşlərdə şəxsi şücaətləri ilə seçilirdi.

Yuri Kovalyov mahir kəşfiyyatçı idi. O, gecələr qorxulu «səfərlərə» çıxırdı. Onun gətirdiyi qiymətli kəşfiyyat məlumatları əsasında hərbi hissələrimiz bir sıra uğurlu əməliyyatlar həyata keçirib düşmənə sarsıdıcı zərbələr vurmuşdular.

Milis starşinası Yuri Kovalyovun cəbhədə son döyüşü 1991-ci il oktyabrın 3-də Xocavənd ərazisində olmuşdur. Həmin gün o, növbəti kəşfiyyat zamanı düşmən yuvasının yerini müəyyən edərək döyüşə girmiş və qəhrəmancasına həlak olmuşdur.



Yuri Kovalyov Bakıda Şəhidlər Xiyabanında dəfn edilmişdir. Ailəli idi. İki qız yadigarı qalmışdır. Bakıda yaşayan anası Larisa Pavlovna və həyat yoldaşı Tamara onları qəhrəman ataları kimi Azərbaycana məhəbbət ruhunda tərbiyə etmiş və böyütmüşlər.

Azərbaycan Respublikası Prezidentinin 5 iyun 1992-ci il tarixli 831 №-li Fərmanı ilə DİN XTMD-nin milis nəfəri, milis starşinası Kovalyov Yuri Petroviç «Azərbaycanın Milli Qəhrəmanı» Fəxri adına (ölümündən sonra) layiq görülmüşdür.

Azərbaycan Milli Kitabxanası

## QULİYEV MƏDƏT QƏZƏNFƏR OĞLU



1958-ci il sentyabrın 27-də Gəncə şəhərində ziyalı ailəsində anadan olub. 1975-ci ildə orta məktəbi bitirib Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutuna daxil olmuşdur. 1980-ci ildə institutu bitirib Gəncə şəhərində «DİNAMO» İdman Cəmiyyətində məşqçi işləyib. 1980-1982-ci illərdə ordu sıralarında hərbi xidmət keçib. Ordudan tərxis edildikdən sonra 1982-ci ilin iyun-oktyabr aylarında yenə Gəncə şəhərində «DİNAMO» İdman Cəmiyyətində cüdo üzrə təlimatçı vəzifəsində çalışıb.

M.Quliyev DİO-da fəaliyyətə milis leytenantı rütbəsində 1983-cü il iyunun 31-də başlayıb. DİO-da ilk iş yeri Gəncə şəhər DİI-nin Kadrlar Şöbəsində fiziki hazırlıq üzrə metodist vəzifəsi idi. 1984-cü il avqustun 15-dən 1987-ci ilin oktyabrın 22-dək Gəncə şəhər Soveti «DİNAMO» İdman Cəmiyyətinin sədr müavini işləyib. Həmin vəzifədə çalışarkən Gəncədə olan milis əməkdaşlarının fiziki hazırlığının artırılmasında xeyli qüvvə sərf edib.

M.Quliyev yaxşı idmançıdır. Hələ məktəbli ikən cüdo üzrə Azərbaycanın yeniyetmələri arasında keçirilən respublika birinciliyində ilk dəfə iştirak edəndə 3-cü yeri tutmuşdur. Azərbaycan Bədən Tərbiyəsi İnstitutunda tələbə olduğu illərdə 65 kiloqram çəkidə yarışaraq keçmiş SSRİ-də keçirilən Ümumittifaq turnirlərdən, o cümlədən Qrodnı şəhərindən, Alma-atadan, Çelyabinskdən qalib kimi geri qayıtmışdı. Ümumiyyətlə, idmana aid onun 70-dən artıq diplom və fəxri fərmanı vardır. Sambo və cüdo üzrə idman ustası olan M.Quliyevin bir sıra gənc istedadlı və perspektivli idmançıların aşkar olunub yetişməsində və DİO-ya cəlb edilməsində də müstəsna fəaliyyəti olmuşdur. Belə ki, o, öz dəsti-xətti olan azı 50-dən çox idmançının DİO sıralarına cəlb olunmasında xidmət göstərmişdir.

M.Quliyevin cinayətkarlıqla mübarizədə xüsusi xidmətləri vardır. 1987-1993-cü illərdə Gəncə şəhər DİI-də CA üzrə baş əməliyyat müvəkkili vəzifəsində fəaliyyət göstərən M.Quliyev 1993-cü il avqustun 3-də Gəncə şəhər Polis İdarəsinin Terrorizm və Banditizmə Qarşı Mübarizə Bölməsinin rəis müavini vəzifəsinə irəli çəkilmişdi. 1994-cü il aprelin 16-da o, həmin bölməyə rəis təyin edilmişdir. 1994-cü ilin avqustunda AR DİN Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə İdarəsinin (MSMİ) təsis olunduqdan sonra onun Gəncə şəhər Polis İdarəsi nəzdində Yevlax-Qazax bölgəsi üzrə MCQM Şöbəsi yarandıqda polis polkovnik-leytenantı Mədət Qəzənfər oğlu Quliyev onun ilk rəisi (8 sentyabr 1994-cü il tarixdən) təyin edilmişdi. 1995-ci il martın 14-dək həmin vəzifədə səmərəli fəaliyyət göstərən M.Quliyev sonuncu tarixdən Bakıya dəvət olunaraq AR DİN MCQMİ-in Reketlə Mübarizə Şöbəsinin rəisliyi ona həvalə olunmuşdur.

1996-cı il fevralın 8-də M.Quliyev DİN MCQMİ-nin rəis müavini vəzifəsinə təyin edilərək bu vəzifədə də etimadı doğrulmuşdur. 1996-cı il aprelin 3-də o, polis polkovniki xüsusi rütbəsinə layiq görülmüşdür. M.Quliyev 1997-ci ildə DİN-in Polis Akademiyasını bitirərək ali hüquqşünas ixtisasına yiyələnmişdir. 2001-ci il iyunun 14-dək AR DİN Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin (MSMİ) rəis müavini kimi fəaliyyət göstərən M.Quliyev Mütəşəkkil Cinayətkarlıqla mübarizədə özünü yüksək peşə və təşkilatçılıq qabiliyyətinə malik yüksək səviyyəli polis zabiti kimi tanıtmışdır. Onun rəhbər polis rəisi kimi də keyfiyyətləri üzə çıxmışdır. Bu diqqətdən yayınmamışdır. AR daxili işlər naziri R.Usubovun əmri ilə o, 2001-ci ildə DİN-in əsas strukturlarından sayılan Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə rəis təyin olunmuşdur. Sonra o, DİN-in Narkotiklərlə Mübarizə İdarəsinə rəhbərlik (20 iyul 2002-ci ildən 27 fevral 2004-cü ilədək) etmişdir. AR daxili işlər naziri, general-polkovnik R.Usubovun 27 fevral 2004-cü il tarixli əmri ilə polis polkovniki Mədət Qəzənfər oğlu Quliyev Azərbaycan Respublikasında İnterpolun Milli Mərkəzi Bürosunun rəisi təyin edilmişdir. Hazırda həmin vəzifədə uğurla




Azərbaycan Milli Kitabxanası

çalışan M.Quliyev son illər xidməti əlaqələlər üzrə bir sıra xarici ölkələrdə (Fransada, ABŞ-da, Avstriyada və s.) olarkən ölkəmizi layiqincə təmsil etmişdir.

Ailəlidir. İki övladı - Murad adlı oğlu, Xədicə adlı qızı vardır. M.Quliyev indi Azərbaycan Polisində fəaliyyət göstərən 6 nəfər Milli Qəhrəmandan (Azərbaycan daxili işlər orqanlarının cəmi 67 milli qəhrəmanı vardır – İ.Ə.) biridir. Polis polkovniki M.Quliyevin müstəqilliyimizin və dövlətçiliyimizin qorunmasında, möhkəmləndirilməsində, bir sıra qatı cinayətkar dəstələrin və qrupların zərərsizləşdirilməsində xüsusi xidmətləri vardır. O, AR daxili işlər nazirinin 6 yanvar 1997-ci il tarixli əmri ilə «Cinayətkar qrupunun üzvlərinin zərərsizləşdirilməsi və yaxalanması əməliyyatının hazırlanıb-həyata keçirilməsində yüksək peşə ustalığı göstərdiyinə görə» DİN-in «Fəxri Fərman»ı ilə təltif edilmişdir. 1997-ci il sentyabrın 9-12-də Bakıda keçirilən MDB iştirakçısı olan dövlətlərin Daxili İşlər Nazirləri Şurasının müşavirəsinin hazırlanmasında və gedişatında fəal iştirakına görə M.Quliyevə DİN-in 25 sentyabr 1997-ci il tarixli əmri ilə təşəkkür elan edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 26 dekabr 1995-ci il tarixli 424 №-li Fərmanı ilə polis polkovniki Quliyev Mədət Qəzənfər oğlu «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına layiq görülmüşdür.



## QULİYEV MƏTLƏB KAMRAN OĞLU (1959-1992)



1959-cu ildə Beyləqan şəhərində müəllim ailəsində anadan olmuşdur. Sumqayıt şəhərində orta məktəbdə təhsil almışdır. Sonra Bakıda Cəmşid Naxçıvanski adına hərbi internat məktəbini əla qiymətlərlə bitirmişdir. Həmin baza ilə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun hərbi hazırlıq və fiziki tərbiyə fakültəsinə daxil olmuşdur. Yaxşı göstəricilərinə görə «Təhsil əlaçısı» döş nişanı ilə təltif edilmişdi. İngilis, rus və türk dillərində sərvəst danışıb yazırdı. Yaxşı şahmat və dama oynayır və yarışlarda iştirak edirdi. Təhsilini leytenant rütbəsiylə başa vurub Sumqayıt şəhərindəki 3 saylı məktəbdə hərbi hazırlıq müəllimi (6 il) işləmişdir.

Xocalı faciəsindən sarsılaraq erməni təcavüzkarlarına qarşı mübarizə aparmaq məqsədilə könüllü DİN Daxili Qoşunlarında xidmətə (1992-ci ilin yayında) girən baş leytenant Mətləb Quliyev bir sıra qanlı döyüşlərin iştirakçısı olmuşdu. O, döyüş bölgəsindəki hissələrdən birində tağım (vzvod) komandiri təyin edilmişdi. Qarabağda Canyataq, Gülyataq və Çıldıran kəndlərinin düşməndən təmizlənməsində Mətləb əvvəldən-axıradək əldə silah döyüşmüşdür.

Baş leytenant M.Quliyevin son döyüşü Ağdam rayonu ərazisində 1992-ci il avqustun 31-də Çıldıran və Mehmanə kəndlərinin arasındakı yüksəklikdə olmuşdur. Mətləb həm də mahir snayperçi idi. Ancaq o, pulemyotdan və qumbaraatandan da sərrast atəşlər açırdı. Son döyüşdə o təkbaşına 30-a qədər ermənini məhv etmiş, düşmənlər istəklərinə nail ola bilməmişdilər. Təəssüf ki, M.Quliyev özü də (yaralanmış döyüşçü yoldaşı Maisi qucağına alıb xilas edərkən) qəhrəmancasına həlak olmuşdur.

M.Quliyev ailəli idi. Faiq adlı oğlu və Arzu adlı qızı qalmışdır. Xatirəsi əbədiləşdirilmişdir. Sumqayıt şəhərində bir vaxtlar



Azərbaycan Milli Kitabxanası

işlədiyi orta məktəb onun adını daşıyır. Məktəbin həyətində büstü ucaldılmışdır. Vaxtilə ermənilərdən müdafiə etdiyi Cəbrayıl rayonunun Süleymanlı kəndində də Mətləb şəhid olduqdan sonra kənd camaatı öz hesabına kəhrizin yanında onun büstünü uçaltmışdı. Lakin 1993-cü ilin avqustunda erməni qəsbkarları Cəbrayılı işğal edəndə Mətləbin büstünü maşının arxasına qoşaraq dağıtmışdılar.

Azərbaycan Respublikası Prezidentinin 6 noyabr 1992-ci il tarixli 290 №-li Fərmanı ilə DİN Daxili Qoşunlarının baş leytenantı Quliyev Mətləb Kamran oğlu «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına (ölümündən sonra) layiq görülmüşdür.



## QULİYEV NAZİM QABİL OĞLU (1965-1992)



1965-ci ildə Beyləqan rayonunun Örənqala qəsəbəsində anadan olmuşdur. Orta məktəbi də Örənqalada bitirmişdir. Sonra hərbi xidmətə yollanmış və oradan starşina rütbəsində qayıtmışdır. Nazimin ata yurdu Füzuli rayonunun Yuxarı Yağlıvənd kəndi idi. 1986-cı ildə Yağlıvəndə gəlib əvvəl fəhlə işləyib. Sonra isə sürücülük məktəbini bitirib. Ermənilərin torpaqlarımıza təcavüzü gücləndikdə Nazim onlarla döyüşmək imkanı əldə etmək üçün 1991-ci il aprelin 15-də Füzuli RDİŞ-ə Post-Patrul Xidməti rotasına milis nəfəri vəzifəsinə daxil olmuşdur.

Avtomatdan və tapançadan əla atırdı. Mahir atıcılığı, yaxşı fiziki və döyüş hazırlığına malik intizamlı döyüşçü olduğuna görə tezliklə onu tağım komandirinin müavini qoymuşdular. Milis starşinası Nazim Quliyev hələ əsgərlikdə zirehli döyüş texnikasını - BTR-i idarə etməyi öyrəndiyi üçün həmin maşın ona etibar edilmişdi. Həmişə öndə döyüşməyə can atan N.Quliyev Füzuli rayonunun bir çox kəndlərini elə həmin BTR-lə müdafiə edir və düşmənə tutarlı zərbələr vururdu.

N.Quliyevin son döyüşü 1992-ci il yanvarın 9-da Qaradağlı kəndi uğrunda olmuşdu. Rayonun Xələfşə və Cuvarlı kəndlərində erməni qəsbkarlarının hücumlarının dəf edilməsində şəxsi igidlik göstərmiş Nazim Quliyev Qaradağlı kəndinin ermənilər tərəfindən mühasirəyə alınmasını eşitdikdə BTR-i ilə özünü Qaradağlının köməyinə yetirmişdi. Nazim və döyüşçü dostları düşməni kənddən qovub uzaqlaşdırsalar da, həmin döyüşdə həlak olanlar da yox deyildi. Onların içərisində Nazim Quliyev də vardı.

Nazim subay idi. Xatirəsi əbədiləşdirilmişdir. Füzuli rayonunun Yağlıvənd kənd və Beyləqan rayonunun Örənqala qəsəbə orta

Azərbaycan Milli Kitabxanası

məktəbləri, habelə Füzuli şəhərində bir küçə Nazim Quliyevin adını daşıyır. 2000-ci ildə xeyriyyəçi Nizami Məmmədovun şəxsi vəsaiti hesabına Nazimin oxuduğu Örənqala qəsəbə orta məktəbinin qarşısında onun böyük bir memorial-xatirə kompleksi ucaldılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 №-li Fərmanı ilə polis nəfəri, polis starşinası Quliyev Nazim Qabil oğlu «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına (ölümündən sonra) layiq görülmüşdür.





## QULİYEV MİRZƏ MƏCİD OĞLU

1974-cü il yanvarın 11-də Bərdə rayonunun Saatlı kəndində kəndli ailəsində anadan olmuşdur. Orta məktəbdə fəal ictimaiyyətçi, məktəb komsomol təşkilatının katibi və futbol yığma komandasının üzvü idi. Orta məktəbdən sonra Mingəçevirdə Texniki Peşə Məktəbində təhsil alıb çilingərlik peşəsinə yiyələnib. 1992-ci ilin avqustundan 1996-cı ilin noyabrınadək Milli Orduda hərbi xidmət keçmişdir. Müharibə veteranıdır.

Orduda zirehli texnikada – BTR-də nişanlaycı döyüşçü olmuş, Naxçıvanda Sədərək, Batabat bölgələrində, habelə Qarabağda – Ağdamda, Füzulidə, Cəbrayılda, Tərtərdə erməni qəsbkarlarına qarşı döyüşmüş, döyüşlərdən birində kontuziya almışdır.

M.Quliyev ordudan tərxis edildikdən sonra DİO-ya qəbul olunmuşdur. 1997-ci il aprelin 4-də Bakı şəhəri Baş Polis İdarəsinin Çevik Polis Alayında polis serjantı kimi polis nəfəri vəzifəsində fəaliyyətə başlamışdır. Alayın 7-ci tağımında çalışan M.Quliyev 30 aprel 1999-cu ildə polis baş sejantı rütbəsi almışdır. İşləyə-işləyə AR DİN-in Polis Akademiyasında (qiyabi) oxumuş və 2000-ci ildə oranı bitirərək hüquqşünas ixtisasına yiyələnmişdir. 2003-cü il martın 5-dən ona polis leytenantı xüsusi rütbəsi verilmişdir. Mirzə Quliyev 6 mart 2003-cü ildən Bakı şəhəri Nəsimi RPİ-nin 20-ci Polis Bölməsində Cinayət-Axtarışı üzrə əməliyyat müvəkkili vəzifəsində çalışır. Ailəlidir.

Bakıda keçirilmiş Respublika Daxili İşlər Orqanları gənc əməkdaşlarının 1-ci toplanışında (2001-ci il 2-3 aprel) iştirak və çıxış etmiş Mirzə Quliyevin xidmətləri dövlət mükafatları ilə qiymətləndirilmişdir. O, cəbhədə göstərdiyi döyüş şücaətlərinə görə hələ Azərbaycan Respublikası Prezidentinin 15 yanvar 1995-ci il tarixli

Azərbaycan Milli Kitabxanası

Fərmanına əsasən «İgidliyə görə» medalı ilə təltif edilmişdi. Bakıda 1995-ci ilin 13-17 mart hadisələri zamanı dövlət çevrilişinə cəhdin qarşısının alınmasında xüsusilə fərqləndiyinə görə isə Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 №-li Fərmanı ilə Quliyev Mirzə Məcid oğlu «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına layiq görülmüşdür. 1998-ci il mayın 5-də Azərbaycan Respublikasının Prezidenti, mərhum öndərimiz Heydər Əliyev Prezident Sarayında Mirzə Quliyevə Azərbaycan Respublikasının Milli Qəhrəmanının «Qızıl Ulduz» medalını (9 №-li) şəxsən təqdim etmişdir.



# QULİYEV NOFƏL ZAHİD OĞLU (1969-1991)



1969-cu il noyabrın 4-də Əli-Bayramlı şəhərində anadan olmuşdur. Atasını erkən itirmişdi. 1981-ci ildə həmin şəhərdəki orta məktəbi bitirmişdir. 1981-1983-cü illərdə Bakıda hərbi xidmətdə olmuşdu. Hərbi xidmətdən sonra Tümenə yollanmış və orada qalıb işləmişdir. İdmanla ciddi məşğul olurdu. Boks üzrə 1-ci dərəcəli idmançı idi, həm də karate ilə məşğul olmuşdur. İşləyə-işləyə Tümendəki tikinti texnikumuna girmişdi. Ancaq Qarabağın dağlıq hissəsində ermənilərin fitnəkarlığı, Ermənistandakı azərbaycanlıların vəhşicəsinə doğma yurdyuvalarından qovulması, Bakıdakı kütləvi mitinqlər Nofələ rahatlıq vermirdi. Odur ki, bu vətənpərvər və millətsevər oğul 1990-cı ildə Tümendən Bakıya köçmüşdü.

Nofəlin idmana həvəsi həmişə daxili işlər orqanlarında işləmək arzusu ilə yanaşı olmuşdu. Çox çətinliklə də olsa N.Quliyev 1990-cı ilin dekabrında DİN-in Xüsusi Təyinatlı Milis Dəstəsinə (XTMD) milis nəfəri vəzifəsinə qəbul olunmuşdu. Xidmətinin ilk aylarından Nofəl dəfələrlə Qarabağa, sərhəd bölgələrinə ezamiyyətə getmişdi. Nofəl tezliklə yenilməz bir «OMON»çu adını qazanmışdı. Hər cür hərbi silah və texnikadan başı çıxan N.Quliyev ən qaynar döyüş nöqtələrində öz qəhrəmanlıqları ilə böyük şöhrətə malik olmuşdu. Nofəl bütün döyüşlərə birinci girib axırıncı çıxırdı.

Ancaq yaxın döyüş dostu Yuri Kovalyovun həlakı ona pis təsir etmiş və düşmənə qarşı nifrət və qəzəbini daha da artırmışdı. Füzulidə, Goranboyda, Dağlıq Qarabağda erməni yaraqlıları ilə döyüşlərdə şücaətlər göstərən cəsur milis serjantı Nofəl Quliyev 1991-ci il iyulun 15-də Goranboyun Todan kəndində düşmənlə qeyri-bərabər döyüşdə son damla qanınadək vuruşaraq qəhrəmancasına həlak olmuşdur…

Azərbaycan Milli Kitabxanası

...Həmin gün erməni yaraqlıları və onlara havadarlıq edən rus əsgərləri Todan kəndinə hücum etmişdilər. Qüvvələr düşmənin xeyrinə idi. Onlar həm də ağır texnikanın köməyi ilə irəliləyirdilər. Nofəl və iki «OMON»çu kəndin qırağındakı yüksəklikdə mövqe tutmuşdular. Elə bu zaman əmr gəldi ki, müvəqqəti geri çəkilib kəndi tərk etsinlər. Nofəl döyüş yoldaşlarının təhlükəsizliyini təmin etmək üçün öz ölümsaçan ayaqlı əl pulemyotu ilə düşmənin başını qatmağa başladı. Nofəlgil düşmənin zərbəsindən yayınmaq üçün kəndin qırağındakı maşına oturub tərpənəndə hər tərəfdən ermənilərin atəşinə məruz qaldılar. Nofəl müdafiə mövqeyi tutub atışa-atışa kənddəki qərargahımıza doğru irəlilədi. Lakin o xəbərsiz idi ki, düşmən artıq bizim qərargahı ələ keçirib. Dörd tərəfdən düşmən əhatəsinə düşən igid «OMON»çu son nəfəsinədək vuruşmağı qərara aldı. Sürünə-sürünə yaxınlıqdakı binanın zirzəmisinə düşdü və kiçik pəncərədən atəş açmağa başladı. Lakin gülləsi qurtarmaq üzrə idi. Düşmənin «Əllər yuxarı!», «Təslim ol!», «Təslim ol!», «Silahı at!» kimi əmrlərinə hər dəfə atəşlə cavab verirdi. Nəhayət, sonuncu gülləni qəddar düşmənə əsir düşməmək üçün özünə vurdu.

Milli Ordumuz və XTMD əks-hücuma keçib Todanı azad edəndə elə həmin binanın zirzəmisində Nofəlin meyitini və onun yanında da 27 nəfər erməni əsgərinin cəsədini tapmışdılar. Nofəl Quliyev ömrünün 22 yaşında həyatdan vaxtsız getmişdir. O, müqəddəs şəhidlik zirvəsinə ucalmışdır. Doğma Əli-Bayramlıda dəfn olunmuşdur. Ailəli idi. Həlak olanda 3 yaşında İlkin adlı oğul yadigarı qalmışdır.

Azərbaycan Respublikası Prezidentinin 5 iyun 1992-ci il tarixli 831 №-li Fərmanı ilə DİN XTPD-nin sabiq polis nəfəri, polis serjantı Quliyev Nofəl Zahid oğlu «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına (ölümündən sonra) layiq görülmüşdür.



## MAKEYEV İQOR VLADİMİROVİÇ (1971-1992)



1971-ci ildə Gəncə şəhərində dünyaya göz açmışdır. Gəncə şəhərindəki 30 saylı orta məktəbi bitirib, təhsilini 9 saylı şəhər peşə-texniki məktəbində davam etdirmiş və aviasiya çilingəri peşəsinə yiyələnmişdi. Sonra Rostov şəhərində 2 il hərbi xidmət çəkmişdir. Lakin Vətənə qayıtdıqda evdə dinc otura bilməmiş, erməni qəsbkarlarına qarşı döyüşlərdə iştirak etmək məqsədilə 1992-ci il yanvarın əvvəlində AR DİN-in Daxili Qoşunlarına sıravi əsgər vəzifəsinə qəbul olunmuşdur.

...Tərkibində daxili xidmət serjantı İqor Makeyevgilin olduğu hərbi hissə Ağdərə ətrafında döyüşürdü. Artıq İ.Makeyevin də adı cəsur döyüşçülərin sırasında çəkilirdi. 1992-ci il avqustun 5-də başlanan şiddətli döyüşdə İqor yenə də öndə vuruşurdu. Ancaq avqustun 6-da Ağdərə uğrunda gedən qanlı döyüşdə igid əsgər İqor Makeyev başından aldığı ağır yaradan sonra qəhrəmancasına həlak oldu. Cəmi 21 yaşı vardı İqorun. Subay idi. 1992-ci il avqustun 7-də İ.Makeyev Gəncə şəhərindəki Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 6 noyabr 1992-ci il tarixli 290 №-li Fərmanı ilə DİN XTPD-nin sabiq sıravi əsgəri, daxili xidmət serjantı Makeyev İqor Vladimiroviç Vətən torpaqları uğrunda gedən qanlı döyüşlərdə göstərdiyi igidliyə və şücaətə görə «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına (ölümündən sonra) layiq görülmüşdür.

Azərbaycan Milli Kitabxanası



## MEHDİYEV FAZİL UMUD OĞLU (1966-1991)

1966-cı ildə Laçın rayonunun Ələkçi kəndində anadan olmuşdur. Kənd orta məktəbini bitirib ordu sıralarında hərbi xidmətə yollanmışdır. Tərxisdən sonra Ağdam şəhərində yaşamağa başlamış və elə orada da Rayon daxili İşlər Şöbəsinin Post-Patrul Alayına milis nəfəri vəzifəsinə daxil olmuşdur. Milis serjantı rütbəsi vardı.

Fazil Mehdiyevi cəbhədə vuruşan milis dəstələri sırasına gətirib çıxaran Vətənə böyük məhəbbəti və düşmənə olan hədsiz nifrəti idi. Cəsur, ağıllı, igid döyüşçü kimi tanınan Fazil sürücü-kəşfiyyatçı idi. 1991-ci il sentyabrın 24-də F.Mehdiyev gecə öz «VAZ»-ında növbəti kəşfiyyata gedərkən Ağdamın Abdal-Gülablı kəndi istiqamətində erməni yaraqlıları ilə üzləşmiş və döyüşə girişmişdi. Bir neçə yaraqlını məhv etsə də, özü də aldığı yaradan həlak olmuşdur. Döyüşçülərimiz onun köməyinə yetişəndə Fazil artıq canını tapşırmışdı. Ağdamda dəfn olunmuşdur. Ailəli idi.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 №-li Fərmanı ilə polis serjantı Mehdiyev Fazil Umud oğlu «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına (ölümündən sonra) layiq görülmüşdür.



## MƏHƏRRƏMOV SƏXAVƏT ƏLAMDAR OĞLU (1973-1992)



1973-cü il dekabrın 3-də Qərbi Azərbaycanın Amasiya rayonunun Qaraçanta kəndində sadə ailədə dünyaya gəlmişdir. 15 yaşı olanda erməni millətçilərinin təzyiqi altında ailələri Azərbaycana köçməli olmuşdur. Valideyinləri Bakının Qaradağ rayonunda Lökbatan qəsəbəsində məskunlaşmışdı. Səxavət Lökbatandakı 106 saylı orta məktəbi bitirib ərizə yazaraq könüllü hərbi xidmətə yola düşmüşdü. Sıravi kimi AR DİN-in Daxili Qoşunlarında xidmət edirdi.

S.Məhərrəmov həmişə çalışırdı ki, döyüş cəbhəsinə gedib onları doğma ev-eşiklərindən didərgin salmış erməni yağılarından qisas alsın. İşğal edilmiş Vətən torpaqlarımızı murdar daşnak dəstələrinin tapdaqlarından azad etsin. Komandirinin adına raport da yazmışdı. Nəhayət, arzusuna çatmışdı. Onu da Qarabağa, qaynar döyüş nöqtələrindən birinə göndərmişdilər. Bu, 1992-ci ilin iyulunda baş vermişdi. S.Məhərrəmovun döyüşdüyü alay Ağdərə rayonunun kəndlərinin birində, ön xəttdə mövqe tutmuşdu. Cəbhəyə gəldiyi gündən gənc əsgər Səxavət Məhərrəmov öz qorxmazlığı və igidliyi ilə tanınmış, qısa vaxtda qanlı döyüşlərdə neçə-neçə işğalçını məhv edərək, intiqamını almışdı.

...1992-ci il avqustun 18-i idi. Səxavətgilin alayı torpaqlarımızı azad edə-edə Ağdərənin Mehrətac kəndinə yaxınlaşmışdılar. Düşmən strateji əhəmiyyət kəsb edən bu kəndi nəyin bahasına olursa-olsun əldən verməк istəmirdi. Təəssüf ki, qanlı döyüşdə xüsusi tapşırığı yerinə yetirərkən qeyri-bərabər savaşda Səxavət və yoldaşları qəhrəmancasına həlak olmuşdular.

Daxili xidmət sıravisi Səxavət Məhərrəmov həlak olanda

Azərbaycan Milli Kitabxanası

cəmi 19 yaşı vardı. Subay idi. Məzarı Bakıda Şəhidlər Xiyabanındadır. Xatirəsi əbədiləşdirilmişdir. Bir vaxtlar Səxavətin oxuduğu Lökbatandakı 106 saylı orta məktəb indi onun adını daşıyır.

Azərbaycan Respublikası Prezidentinin 6 noyabr 1992-ci il tarixli 290 №-li Fərmanı ilə DİN Daxili Qoşunlarının sabiq sıravi əsgəri, sıravi Məhərrəmov Səxavət Ələmdar oğlu «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına (ölümündən sonra) layiq görülmüşdür.



## MƏDƏTOV FARİZ ƏLÖVSƏT OĞLU



1972-ci il aprelin 18-də Yevlax rayonunun Varvara kəndində anadan olmuşdur. 1989-cu ildə kənd orta məktəbini bitirmişdir. 1990-cı ilin mayından 1992-ci ilin martınadək Sovet Ordusunun Qərb Qoşun qrupunda həqiqi hərbi xidmət keçmişdir. Lakin tərxis edilib Azərbaycana qayıtdıqdan sonra 1992-ci il avqustun 19-dan 1996-cı il avqustun 14-dək Azərbaycan Respublikasının Milli Ordusunda da könüllü həqiqi hərbi xidmətdə olmuşdur. Milli Orduda tağım komandirinin müavini vəzifəsində qulluq etmişdir.

Fariz Mədətov Milli Orduda xidmət edərkən Dağlıq Qarabağda və ətraf rayonlarda erməni işğallarına qarşı aparılan hərbi əməliyyatlar zamanı xüsusi fədakarlıqlar nümayiş etdirmişdir. 1997-ci ildə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin «N» hərbi hissəsinin təqdimatı ilə daxili işlər orqanlarında xidmətə göndərilmişdir.

F.Mədətov 1997-ci il fevralın 1-dən Yevlax RPŞ-nin nizami bölməsində polis nəfəri, polis serjantı kimi DİO-da fəaliyyətə başlamış 2000-ci il iyunun 5-dək həmin vəzifədə xidmət etmişdir. 1999-cu ildə polis baş serjantı rütbəsi almışdır. 2000-ci il iyunun 5-dən 2004-cü il iyunun 14-dək Yevlax RPŞ PPX Bölüyünün tağım komandiri olmuş, 2002-ci ilin iyunun 13-də polis kiçik leytenantı, 2003-cü il iyunun 18-dən isə polis leytenantı xüsusi rütbələrinə layiq görülmüşdür. 2003-cü ildə AR DİN-in Polis Akademiyasını bitirib ali hüquqşünas ixtisasına yiyələnmişdir. F.Mədətov 2004-cü il iyunun 18-dən Yevlax RPŞ-nin polis sahə inspektoru vəzifəsinə təyin edilmişdir. Hazırda da həmin vəzifədə çalışır. Ailəlidir.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 №-li Fərmanı ilə Mədətov Fariz Ələvsət oğlu torpaqlarımızın müdafiəsində və suverenliyimizin qorunmasında göstərdiyi şəxsi şücaətlərə görə «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına layiq görülmüşdür.

Azərbaycan Milli Kitabxanası



## MƏMMƏDOV AYTƏKİN İSRAFİL OĞLU (1967-1991)

1967-ci ildə Gədəbəy rayonunun Şınıx bölgəsində Göyəmli kəndində kəndli ailəsində anadan olmuşdur. Orta məktəbi kənddə bitirdikdən sonra Bakıya gəlib 54 saylı texniki-peşə məktəbində oxumuşdur. Əfqanıstanda hərbi xidmətdə olarkən döyüş təcrübəsi qazanmışdı. Baş serjant rütbəsində əsgərlikdən geri dönmüşdü. Erməni təcavüzkarları doğma Şınıx və Gədəbəyin digər sərhəd ərazilərinə basqınları gücləndirdikdə Aytəkin dözməyərək 1991-ci ilin fevralında DİN-in Xüsusi Təyinatlı Milis Dəstəsinə daxil olmuşdu.

1991-ci ilin ortalarınadək erməni qəsbkarlarının torpaqlarımızı ələ keçirmək üçün başladıqları elan olunmamış müharibədə AR Daxili İşlər Nazirliyinin 55 əməkdaşı həlak olmuşdu ki, bunun da 9 nəfəri Xüsusi Təyinatlı Milis Dəstəsinin üzvi idi. Milis baş serjantı Aytəkin Məmmədovun da adı onların sırasında idi.

...Xanlar rayonunun kəndlərini qorumağa yola düşən XTMD-nin tərkibində Aytəkin Məmmədov da vardı. 1991-ci il aprelin 12-də erməni yaraqlıları rayonun Quşçu kəndini ələ keçirmək üçün həmləyə başladılar. Aytəkin bir neçə paqondaşı ilə ön müdafiə postunda mövqe tutmuşdu. Milislər ermənilərı yaxına buraxıb sərrast atəşlə bir-bir yerə sərirdilər. Hücumlarının bir nəticə vermədiyini görən yaraqlılar yandırıcı güllələrdən istifadə edərək xeyli kənd əhalisinin sığınacaq tapdığı binanı atəşə tutdular. Yanğın başlananda Aytəkin və yoldaşları atəş altında adamları xilas etməyə atılıb, qadınları, uşaqları və qocaları təhlükəsiz yerə çıxara bildilər və yenidən döyüş mövqeyinə qayıtdılar.

Lakin erməni yaraqlılarının növbəti güclü hücumunu dəf edərkən Aytəkin Məmmədov əvvəlcə çiynindən və sonra da başından ağır yaralandı. Bu vaxt düşmən tam məğlub edilib kəndin həndəvərindən qovulmuşdu. Ancaq Aytəkin çoxlu qan itirmişdi. Döyüşçü yoldaşı, milis starşinası Cahangir Mirzəyev maşınla erməni yaraqlılarının ələ keçirə bilmədikləri yeganə yolla onu Gəncəyə çatdırsa da, həkimlər Aytəkinin həyatını xilas edə bilmədilər.

XTMD-nin döyüşçü qrupunun rəhbəri, milis baş leytenantı Qalib Şirinov, Aytəkinin yaxın dostu Səməd Həsənov, Xüsusi Təyinatlı Milis Dəstəsinin komandiri, milis mayoru Nizami Məmmədov və başqaları Aytəkinin dəfni zamanı söylədikləri vida nitqlərində onu igid, cəsur döyüşçü kimi səciyyələndirdilər.

Milis baş serjantı Aytəkin Məmmədov cəmi 20 ildən bir qədər çox yaşamışdır. Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 №-li Fərmanı ilə DİN XTPD-nin polis nəfəri, polis baş serjantı Məmmədov Aytəkin İsrafil oğlu «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına (ölümündən sonra) layiq görülmüşdür.

Azərbaycan Milli Kitabxanası

## MƏMMƏDOV ƏLİ HÜSEYN OĞLU (1955-1992)



1955-ci ildə Naxçıvan şəhərində anadan olmuşdur. Orta texniki peşə məktəbini bitirib Dadaş Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna daxil olmuşdu. 70-ci illərdə ordu sıralarında hərbi xidmətə çağrılmışdı. Tərxis olunduqdan sonra 1978-ci ildə daxili işlər orqanlarında işə girmişdir. N. Rizayev adına Bakı Xüsusi Orta Milis Məktəbinin məzunu idi. Sonuncu iş yeri Bakı şəhəri BPİ Binəqədi RPİ-də əməliyyat müvəkkili vəzifəsi olmuşdur. Polis kapitanı rütbəsi vardı.

Əli Məmmədov tez-tez Qarabağda döyüş bölgələrində ezamiyyətdə olurdu. Erməni işğalçıları ilə şiddətli döyüşlərdə, Vətənimizin suverenliyinin və ərazi bütövlüyünün qorunması, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində Ə.Məmmədov şəxsi igidliklər və şücaətlər göstərmişdi. Əlinin son döyüşü 1992-ci il oktyabrın 1-də Laçının Mazutlu kəndi yaxınlığında yerləşən strateji əhəmiyyətli Qızartı yüksəkliyi uğrunda olmuşdur. Bütün gün ərzində erməni qəsbkarları ilə cəsarətlə döyüşən Əli və paqon yoldaşları vacib əhəmiyyət kəsb edən yüksəkliyi düşməndən təmizləyib nəzarət altına almışdılar. Lakin axşama yaxın Əli düşmənin snayper gülləsi ilə başından aldığı ağır yaradan həlak olmuşdu.

Ə.Məmmədov ailəli idi. Xatirəsi əbədiləşdirilmişdir. Bakıda Binəqədi RPŞ-nin inzibati binasının yerləşdiyi küçə uzun müddət Əli Məmmədovun adını daşımışdır…

Azərbaycan Respublikası Prezidentinin 19 oktyabr 1992-ci il tarixli 273 №-li Fərmanı ilə Binəqədi RPİ-nin sahə inspektoru, polis kapitanı Məmmədov Əli Hüseyn oğlu «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına (ölümündən sonra) layiq görülmüşdür.



## MƏMMƏDOV KAZIM ƏRŞAD OĞLU (1969-1991)



1969-cu il oktyabrın 1-də Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndində anadan olmuşdur. Kənd orta məktəbini bitirmişdir. Sonra ordu sıralarında xidmət etmişdir. 1991-ci ilin fevralında Cəbrayıl RDİŞ-in Post-Patrul Xidməti rotasına (bölüyünə) milis nəfəri vəzifəsinə daxil olmuşdur. Milis serjantı rütbəsi vardı.

Kazım Məmmədov Cəbrayıl rayonunun və digər qonşu rayonların sərhəd ərazilərinin erməni təcavüzkarlarından qorunmasında rəşadətlər göstərmişdir. Kazımın son döyüşü 1991-ci il noyabrın 15-də olmuşdur. Həmin gün ermənilər böyük qüvvə ilə bir neçə milisin qoruduğu Zamzur kəndinə hücum etmişdilər. Erməni yaraqlıları müdafiəni yarıb kəndə soxulmuş, qızğın döyüşdə Kazım yoldaşlarını itirərək tək qalmışdı. O, axıradək düşmənə müqavimət göstərib 10 ermənini məhv etmişdi. Düşmənlər Kazıma təslim olmağı təklif edəndə Kazım bu təklifə hər dəfə şiddətli atəşlə cavab verirdi. Daha bir neçə ermənini məhv edəndə düşmənlər yandırıcı güllələrlə Kazımın mövqe tutduğu evə od vurdular. Lakin cəsur milis işçisi təslim olmadı və sonadək vuruşaraq qəhrəmancasına həlak oldu.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 №-li Fərmanı ilə Cəbrayıl RPŞ-nin polis nəfəri, polis serjantı Məmmədov Kazım Ərşad oğlu «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına (ölümündən sonra) layiq görülmüşdür.



## MƏMMƏDOV MÖVSÜM ŞAHİN OĞLU

1967-ci ilin iyunun 6-da Qarabağda Əsgəran rayonunun Kosalar Sovetliyinin Canhəsən kəndində anadan olmuşdur. 1985-1987-ci illərdə Uzaq Şərqdə Xabarovsk şəhərində hərbi xidmət keçmişdir. Əsgərlikdən qayıdıb özünümüdafiə dəstəsinə üzv yazılan Mövsüm 1990-cı ilin yanvarında Meşəli Milis Bölməsi yarananda könüllü olaraq həmin bölməyə daxil olmuş və əldə silah düşmənlə döyüşlərə atılmışdır. 1992-ci il iyunun 14-dək həmin bölmədə işləmişdir. Özünü əsl Vətən oğlu və mərd milis işçisi kimi göstərmiş, Canhəsənin, Cavadların, Qara Kavin, Kosaların, Cəmillinin müdafiəsində erməni işğalçıları ilə döyüşlərdə fəal iştirak etmiş başından yaralanmışdır Mövsüm Məmmədov çox keçmədən Şuşa RPŞ PPX-nin tağım, sonra isə polis batalyonunun komandiri olmuşdur. 1992-1995-ci illərdə həmin vəzifələrdə calışan M.Məmmədov 1998-ci ildə DİN Polis Akademiyasını da qiyabi yolla bitirmiş, ali hüquq təhsili almışdır.

Mövsüm Məmmədov 1999-cu il fevralın 4-dən Şuşa RPŞ-nin xidmət üzrə rəis müavini, polis mayorudur. Valideyinləri Şəkidəki turist bazasında məskunlaşıblar. Mövsüm ailəlidir.

Azərbaycan Respublikası Prezidentinin 25 fevral 1997-ci il tarixli 553 №-li Fərmanı ilə Azərbaycanın ərazi bütövlüyünün qorunmasında, erməni qəsbkarlarına qarşı mübarizədə, Xocalı soyqırımı zamanı dinc əhalinin xilas edilməsində, xüsusilə fərqlənərək şəxsi şücaət və mərdlik göstərdiyinə, Vətən qarşısında borcunu şərəflə yerinə yetirdiyinə görə Məmmədov Mövsüm Şahin oğlu «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına layiq görülmüşdür.



## MƏMMƏDOV NİZAMİ MURAD OĞLU (1958-1992)



1958-ci ildə Xankəndində doğulmuşdur. Orta məktəbi bitirib bir müddət təsərrüfatda çalışmış, sonra hərbi xidmətə çağırılmışdır. Ordudan qayıdaraq Dağlıq Qarabağ Muxtar Vilayəti DİI yanında Müəssisədənkənar Mühafizə Şöbəsində milis nəfəri kimi fəaliyyətə başlamışdır. Sonra Şuşa RDİŞ-ə milis nəfəri vəzifəsinə keçmiş, milis baş serjantı rütbəsi almışdır.

Nizami Məmmədov lap əvvəldən erməni qəsbkarlarına qarşı mübarizənin mərkəzində idi və çox hadisələrin, erməni dönüklüyünün və xəyanətinin şahidi olmuşdu. Nizami hələ 10 yaşı olmayanda Xankəndində erməni millətçilərinin vəhşiliyinin, nahaqdan müqəssirləndirilib dustaq maşınına salınmış iki azərbaycanlının şəhərin mərkəzində, hüquq-mühafizə orqanlarının gözü qarşısında diri-diri yandırılmasını gözləri ilə görmüşdü. Lakin o zaman sadə uşaq təxəyyülü bu qeyri-insani hərəkətin əsl mahiyyətini dərk etməkdən çox-çox uzaq idi.

Nizami onu düşündürən sualların cavabını çox sonralar başa düşmüş və erməni millətçilərinə qarşı onda dərin nifrət hissi alovlanmışdı. Nizami Məmmədov özünə axıradək sadiq qaldı. Çoxları kimi Dağlıq Qarabağdan uzaqlaşmadı. Şuşada qaldı, erməni yaraqlılarına qarşı mübarizəni bir an səngitmədi. Elə Şuşa uğrunda da canını qurban verdi. O, 1992-ci il martın 25-də Şuşanı atəşə tutan erməni yaraqlıları və bədnam rus alayının (366-cı alayı) hücumlarından dinc əhalini xilas və onların təhlükəsizliyini təmin edərkən qəhrəmanlıqla həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 №-li Fərmanı ilə Şuşa RPŞ-nin polis nəfəri, polis baş serjantı Məmmədov Nizami Murad oğlu «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına (ölümündən sonra) layiq görülmüşdür.

Azərbaycan Milli Kitabxanası



## MƏMMƏDOV SAHİL ƏLƏMDAR OĞLU

1964-cü il fevralın 25-də Qərbi Azərbaycanın (Ermənistanın) Eçmiədzin (Üçkilsə) rayonunun Böyük Nəcirli kəndində anadan olmuşdur. 1981-ci ildə orta məktəbi bitirib Ermənistanın Masis rayonunun Nizami kəndindən əsgərliyə çağırılıb. Əsgərlikdən bir ildən sonra onu SSRİ DİN-in Ali Siyasi Məktəbinə oxumağa göndərmişlər. 1983-cü ildə təhsili başa vurduqda Sahil Məmmədovun təyinatını Ukraynaya daxili qoşunlara vermişlər. S.Məmmədov düz 5 il orada xidmət etmişdir. 1988-ci ildə valideynləri və digər doğmaları Ermənistandakı yurd-yuvalarından qovulanda Sahil Məmmədov xidmət yerini Azərbaycana dəyişmək barədə komandanlığa müraciət etsə də, onun xahişinə məhəl qoymamışdılar. Sahil isə öz qərarından dönməyib qəti bildirmişdi: - Ya icazə verin, ya da xidmətdən xaric edin!

Nəhayət, 1991-ci ilin sonunda uzun sürən çək-çevidən sonra o, Azərbaycana dəyişilib DİN Daxili Qoşunlarında xidmətini davam etdirməyə başlamışdı. 1992-ci il yanvarın 13-dən AR DİN Daxili Qoşunlarının 5-ci motoatıcı diviziyasında komandir müavini vəzifəsinə təyin edilən Sahil Məmmədov çox keçmədən ön cəbhədə erməni təcavüzkarlarına qarşı ölüm-dirim savaşı aparan daxili qoşunların tərkibində qızğın döyüşlərə atılmışdı...

...Zəngilanda rota komandiri kimi kəndlərimizin müdafiəsində duran Sahil Məmmədov öz döyüşçüləri ilə birlikdə, mərdliklə vuruşur, şücaətlər göstərirdi. Lakin o, 1992-ci il iyunun 3-də şiddətli döyüş zamanı mərmi partlayışı nəticəsində ayaqlarından ağır yaralanmış, həkimlərin konsilimundan sonra bir ayağı ambutasiya olunmuşdu.



Bir müddət hospitalda yatıb sağalandan sonra S.Məmmədov 1993-cü il yanvarın 1-dən AR DİN-in Daxili Qoşunların Baş İdarəsində Gənclərlə iş üzrə bölmənin rəis köməkçisi təyin edilmişdir. 1994-cü ildə o, polisdə xidmətə keçmişdir. 1994-cü il yanvarın 18-dən AR DİN-in Pasport İşi, Viza və Qeydiyyat İdarəsinin inspektoru vəzifəsinə təyin olunmuş, ona polis mayoru rütbəsi verilmiş və Sahil həmin vəzifədə 1997-ci il avqustun 20-dək çalışmışdır.

Sahil Məmmədov 1997-ci il avqustun 20-dən hal-hazıradək DİN-in Pasport, Qeydiyyat İdarəsinin Viza və Qeydiyyat Şöbəsinin qəbul qrupunun baş inspektorudur. İşləyə-işləyə AR DİN-in Polis Akademiyasını bitirmiş S.Məmmədov 2001-ci il noyabrın 25-də polis polkovnik-leytenantı xüsusi rütbəsi ilə təltif edilmişdir.

Sahil Məmmədov ailəlidir. Rəvan adlı 1 oğlu var.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 №-li Fərmanı ilə DİN Daxili Qoşunlarının sabiq baş leytenantı Məmmədov Sahil Ələmdar oğlu «Azərbaycan Milli Qəhrəmanı» fəxri adına layiq görülmüşdür.



Azərbaycan Milli Kitabxanası

## MƏMMƏDOV SƏFƏRALI QURBAN OĞLU (1963-1992)



1963-cü ildə Masallı rayonunun Sərçuvar kəndində fəhlə ailəsində dünyaya göz açmışdır. Ailədə 11 uşaq böyüdüb tərbiyə edən Qurban kişi ilə Şahdəstə xalanın üçüncü övladı idi Səfəralı. Doğma kəndi Sərçuvarda orta məktəbi başa vuranda 1981-ci il idi. Elə həmin il də hərbi xidmətə çağırılmışdı. İki illik hərbi xidmətini Belarusiyanın paytaxtı Minsk şəhərində keçmişdir.

1983-cü ildə Minsk şəhərində hərbi xidmətdən tərxis olunub Türkmənistanın Krasnovodsk liman şəhərinə gəldi. Səfaralı buradakı həmyerlilərinin bələdçiliyi ilə çoxdan arzusunda olduğu milisə daxil oldu. 1984-cü ilin iyununda Krasnovodsk şəhər DİI yanında Müəssisədənkənar Mühafizə Şöbəsində milis nəfəri kimi xidmətə başladı. Az bir müddətdə öz çalışqanlığı və nizam-intizamı ilə fərqləndi. Xidmətinin elə ilk ilində 2 dəfə mükafatlandırıldı.

1988-ci ildə yaxşı işini nəzərə alaraq Krasnovodsk Vilayət Daxili İşlər İdarəsinin rəyi ilə Səfəralı SSRİ DİN-in N.Rizayev adına Bakı Xüsusi Orta Milis Məktəbində qiyabi təhsil almağa göndərildi. Hələ həmin məktəbin kursantı ikən S.Məmmədov Qarabağ hadisələri ilə əlaqədar qaynar döyüş nöqtələrinə ezam olunmuş, orada azərbaycanlıların təhlükəsizliyinin təmin edilməsində və ümumiyyətlə ictimai asayişin mühafizəsində yaxından iştirak etmişdi.

1990-cı ilin sentyabrında iki illik N.Rizayev adına Bakı Orta Xüsusi Milis Məktəbini uğurla bitirən Səfəralı milis leytenantı xüsusi rütbəsi alaraq təyinatla Ağdamda işləməyə başladı. Ağdam RDİŞ-in Post-Patrul Xidməti batalyonunun tağım (vzvod) komandiri təyin olunmuş, milis leytenantı Səfəralı Məmmədov ən təhlükəli və odlu döyüş nöqtələrində ölümdən zərrəcə qorxmadan erməni qəsbkarlarına qarşı vuruşurdu. Qarabağın sərhəd kəndlərində günahsız əhalini qırıb-çatan, vəhşicəsinə qətlə yetirən, od-alov içində yandıran azğın erməni yaraqlılarına qarşı Səfəralıgilin dəstəsi ölüm-dirim savaşına girmişdi.



Özünü hər cəhətdən yaxşı göstərən milis leytenantı Səfəralı Məmmədov «DİN əlaçısı» döş nişanı ilə mükafatlandırılmışdı. Ona həmişə böyük etimad göstərilirdi. Səfəralı dəfələrlə sabiq daxili işlər naziri, mərhum general Məhəmməd Əsədovu, sabiq respublika prokuroru, mərhum İsmət Qayıbovu və digər rəhbər işçiləri «qaynar nöqtələrində» müşayiət etmişdi. Xankəndinə səfərdən sonra İsmət Qayıbov Səfəralıya qiymətli qol saatı və şahmat bağışlamışdı.

Rus dilini yaxşı bilən sarışın simalı Səfəralı Məmmədov lazım olanda kəşfiyyata gedib «dil»də gətirirdi. O, bir dəfə təkbaşına ermənilərin BTR-nin qabağına gəlmiş, 2 ermənini - 1 polkovniki, 1 kapitanı və BTR-i öz tərəfimizə girov gətirmiş, 2 nəfər silahdaşı ilə Fərrux kəndində 11 ermənini məhv etmiş, Ağbulaq fermasında 4 ermənini girov tutmuş və 1991-ci il 20 noyabr Qarakənd faciəsi zamanı yenə 2 ermənini «dil» kimi gətirmişdi. Ermənilər meyitlərimizi verməyəndə S.Məmmədov Xankəndinin rabitəsini kəsib qaytarılmayan başqa meyitlərimizində verilməsinə erməniləri məcbur etmişdi. Respublika Prokurorluğunun məsul işçisi Şükür Rzayev ermənilər tərəfindən girov götürülərkən onun buraxılmasında da Səfəralı ən çətin tapşırıqları müvəffəqiyyətlə icra etmişdi…

Milis leytenantı Səfəralı Məmmədovun son döyüşü 1992-ci il fevralın 16-da günortadan sonra Xocavəndin Qaradağlı kəndində olmuşdur. Həmin gün erməni yaraqlıları Qaradağlını mühasirəyə almışdılar. Səfəralı dinc kənd əhalisini xilas etmək üçün döyüşçü dostları ilə zirehli maşının üstündə təcili Qaradağlıya yola düşdü. Erməniləri öz qorxmazlığı və cəsarətli döyüşü ilə heyrətə gətirirdi Səfəralı. O, düşmənə tələfat verə-verə irəliləyir, döyüşçülərimizə ölənlərimizin meyitlərini götürməyə şərait yaradırdı. Lakin birdən Səfəralının zirehli maşını qumbaraatanla vurulanda qəlpələr onun üstündəki qumbaranı da partlatmış, sürücü yaralanmış, igid koman-



Azərbaycan Milli Kitabxanası

dir də yerindəcə dünyasını dəyişmişdi.

Səfəralı Məmmədovun tabutu Ağdamın qurtaracağına qədər döyüş dostlarının çiyində getdi. Oradan isə böyük təntənə ilə doğulduğu kəndə yola salındı. S.Məmmədovun məzarı Masallının Sərçuvar kənd qəbiristanlığındadır. Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 5 iyun 1992-ci il tarixli 831 №-li Fərmanı ilə Ağdam RPİ-nin Post-Patrul Alayının tağım komandiri, polis leytenantı Məmmədov Səfəralı Qurban oğlu «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına (ölümündən sonra) layiq görülmüşdür.



## MİRZƏYEV KƏRƏM ƏRŞAD OĞLU (1960-1992)



1960-ci il mayın 20-də Qubadlı rayonunun Həkəri çayı sahilindəki böyük tarixi keçmişi olan gözəl Xanlıq kəndində ziyalı ailəsində anadan olmuşdur. 1977-ci ildə orta məktəbi bitirib bir il rayon Yol İstehsalat İdarəsində fəhlə işləmişdir. 1978-ci ildə qəbul imtahanlarını müvəffəqiyyətlə verib Azərbaycan İnşaat Mühəndisləri İnstitutuna daxil olmuş, su qurğuları tikinti mühəndisi fakültəsini bitirib, rayona qayıtmışdı. 1983-1985-ci illərdə Sovet ordusu sıralarında xidmət etmişdi. Tərxis olunduqdan sonra 1990-cı ilədək rayondakı 21 saylı Tikinti İdarəsində mühəndis işləyirdi. 1989-cu ildə Laçın rayonu ərazisində məşhur Qayğı qəsəbəsinin tikintisində onun böyük xidmətləri olmuşdur.

Erməni qəsbkarlarının hərəkətlərindən qəzəblənən K.Mirzəyev onlarla döyüşmək üçün polisə girməyi qərara almış və 1990-cı ilin əvvəlində könüllü Qubadlı RDİŞ-ə sahə müvəkkili vəzifəsinə qəbul olunmuşdu. Tezliklə ona milis baş leytenantı rütbəsi verilmişdi. AR DİN qısa müddətdə yaxşı işini, xidmətlərini və arzusunu nəzərə alaraq Kərəm Mirzəyevi Rusiyaya Kalininqrad Ali Hüquq Akademiyasına təhsil almağa göndərmişdi. Fərq imtahanlarını müvəffəqiyyətlə verən K.Mirzəyev birbaşa Akademiyanın 2-ci kursuna qəbul edilmişdi.

Rayon ərazisinin erməni təcavüzündən qorunmasında polis baş leytenantı Kərəm Mirzəyevin müstəsna xidmətləri var idi. O, Qubadlının Novlu, Seytaş, Yuxarı və Aşağı Cibikli, Əyin, Əliquluuşağı və başqa sərhəd kəndlərində gedən qızğın döyüşlərdə, polis şöbəsində hazırlanıb həyata keçirilən ən çətin və məsul əməliyyatlarda fəal iştirak etmiş və əsl igidlik nümunələri göstərmişdir.

Azərbaycan Milli Kitabxanası

1991-ci il aprelin 7-də Gorus rayonunun Şurnuxu kəndində, 1992-ci il iyunun 18-də Qubadlının Əliquluuşağı kəndində və həmin il sentyabrın 28-də Laçının Səfiyan kəndində gedən döyüşlərdə qazanılan qələbələrdə Kərəm xüsusi rol oynamışdı.

1992-ci ilin aprelində Laləzar körpüsü yaxınlığında polis işçilərimiz Qubadlı RDİŞ-in o vaxtkı rəisi Nadir Hüseynovun rəhbərliyi altında qaniçən erməni daşnak Karenin başçılıq etdiyi quldur dəstəsini böyük məharətlə mühasirəyə alıb məhv etmiş, Karen (bu murdar daşnakın meyiti 30 azərbaycanlı girova dəyişdirilmişdi – İ.Ə.) də öldürülmüşdü. Həmin döyüşdə Kərəm Mirzəyevin də şücaətləri danılmaz idi. Polis baş leytenantı Kərəm Mirzəyevin son döyüşü 1992-ci il oktyabrın 1-də Laçın rayonunun Mazutlu kəndində olmuşdur. Cəsur polis zabiti həmin gün baş verən şiddətli döyüşdə dostu, Suraxanı RPİ-dən olan polis kapitanı İlqar İsmayılovla birlikdə qəhrəmancasına həlak olmuşdur.

K.Mirzəyevin ölümündən 37 gün sonra yeganə oğul yadigarı dünyaya gəlmişdir. Adını Cahandar qoymuşlar. Mirzəyevlər ailəsi indii Sumqayıtda və Bakıda məskunlaşmışlar. Onlar və həmçinin bütün qubadlılar öz sevimliləri, Vətən, torpaq uğrunda canından keçmiş Kərəmlə haqlı olaraq fəxr edirlər.

Azərbaycan Respublikası Prezidentinin 6 noyabr 1992-ci il tarixli 290 №-li Fərmanı ilə Qubadlı RPŞ-nin sahə müvəkkili, polis baş leytenantı Mirzəyev Kərəm Ərşad oğlu «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına (ölümündən sonra) layiq görülmüşdür.



## MURADOV RUSLAN HƏMİD OĞLU (1973-1992)



1973-cü il iyunun 27-də Mingəçevir şəhərində anadan olmuşdur. 1990-cı ildə orta məktəbi yaxşı qiymətlərlə başa vurmuşdur. 1992-ci ildə orduya çağırış alıb birbaşa hərbi komissarlığa gəlmişdi. Ruslanın xidməti AR DİN-in Daxili Qoşunlarında belə başlamışdı. Sıravi əsgər kimi. Yaxşı xidmətinə görə tezliklə daxili xidmət starşinası rütbəsi almışdı. Təlim-məşq toplanışlarında bütün tapşırıqları yüksək göstəricilərlə yerinə yetirirdi.

Nəhayət, sıravi R.Muradovun xidmət etdiyi hərbi hissə 1992-ci ilin aprelində Ağdam rayonuna yola düşdü. Ruslanın döyüş yolu da elə həmin vaxtdan başlandı. Hissə rəhbərliyi igidliyini, çevikliyini və qorxmazlığını nəzərə alıb Ruslana kəşfiyyatçılar dəstəsinə başçılıq etməyi həvalə etmişdi. Ruslan Muradov döyüşlərə atıldığı gündən dəfələrlə düşmən arxasına kəşfiyyata getmişdi. Onun rəhbərlik etdiyi kəşfiyyatçılar dəstəsi bir neçə dəfə düşmən mühasirəsinə düşərkən məhz Ruslanın ağlı, məharəti, cəldliyi və cəsarəti sayəsində kəşfiyyatçılar ermənilərin əlinə keçməmişdilər.

...1992-ci ilin 22 avqustu gənc kəşfiyyatçı Ruslan Muradovun həyatının son günü oldu. Həmin gün Ağdamın Gülyataq kəndini düşməndən azad edib meşəlikdə son yüksəklik uğrunda gedən döyüşdə kəşfiyyat dəstəsinə rəhbərlik edən cəsur əsgər Ruslan Muradov qəhrəmancasına həlak oldu. Subay idi. Cəmi 19 yaşı vardı. Mingəçevirdəki Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 6 noyabr 1992-ci il tarixli 290 №-li Fərmanı ilə DİN Daxili Qoşunlarının sıravi əsgəri, daxili xidmət starşinası Muradov Ruslan Həmid oğlu «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına (ölümündən sonra) layiq görülmüşdür.

Azərbaycan Milli Kitabxanası

## MÜRSƏLOV VÜQAR MİRƏZBƏR OĞLU (1963-1992)



1963-cü ildə Cəlilabad rayonunun Göytəpə kəndində anadan olmuşdur. 1982-1984-cü illərdə Belarusiyanın Brest şəhərində əsgərlik çəkmişdir. Ordudan tərxis edildikdən sonra Göytəpə Avtomobil Təmiri zavodunda işləmişdir. 1991-ci ilin əvvəlində könüllü olaraq DİN-in Xüsusi Təyinatlı Milis Dəstəsinə üzv yazılmış və Ağdam, Tərtər, Ağdərə, Goranboyda erməni qəsbkarlarına qarşı, qızğın döyüşlərdə iştirak etmişdir. Qəsbkarlara qarşı sürdüyü tank onun əsl kişi qüdrətinin timsalı kimi oddan, alovdan keçmişdir. Marquşavan, Həsənqaya, Malakan, Mağavuz kəndlərinin yağılardan təmizlənməsində mühüm rol oynayan V.Mürsəlov 1992-ci il iyunun 9 - da Ağdərədə Cəmilli kəndi yaxınlığında şiddətli vuruşmalardan birində qəhrəmancasına həlak olmuşdur. Məzarı Göytəpə qəbirstanlığındadır.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 №-li Fərmanı ilə DİN XTPD-nin polis nəfəri, polis starşinası Mürsəlov Vüqar Mirəzbər oğlu «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına (ölümündən sonra) layiq görülmüşdür.



## MÜSLÜMOV VALEH ƏLİZAİD OĞLU (1968-1992)



1968-ci il sentyabrın 2-də Lerikdə müəllim ailəsində anadan olmuşdur. Əlizaid müəllim və Nənəgül xala 10 uşağın (yeddi oğlan və üç qız) hamısını elə kiçik yaşlarından əməksevər və Vətənə məhəbbət ruhunda böyüdüb tərbiyə etmişdilər. Valeh 1983-cü ildə Lerikdə 8-ci sinfi bitirdikdən sonra həmin il Sumqayıta gələrək 17 saylı texniki peşə məktəbinə daxil olmuşdu. 1984-cü ildə peşə məktəbini bitirib dülgər peşəsinə yiyələnmişdi. Hələ uşaqlıqdan hər cür texnikadan sanki anadangəlmə başı çıxan Valehin əlləri də qızıl idi. O, Sumqayıtdakı 2 saylı Trestin Səyyar Mexanikləşdirilmiş Dəstəsində fəhlə işləyə-işləyə eyni zamanda gecə məktəbində orta təhsil almışdı. 1986-1988-ci illərdə hərbi xidmətdə olmuşdu. Hərbi xidmətdən sonra Sumqayıta qayıdıb AXC sıralarına daxil olmuş, öz məslək dostları ilə könüllü olaraq Qubadlı rayonuna erməni işğalçıları ilə mübarizə aparmağa yollanmışdı...

Valeh düşmənlə daha mütəşəkkil mübarizə aparmaq məqsədilə 1991-ci ilin avqustunda Azərbaycan Respublikası DİN-in Xüsusi Təyinatlı Milis Dəstəsinə daxil olmuşdur. O, Şuşada, Xocalıda, Tovuzda, Qubadlıda və digər qaynar cəbhə bölgələrində keçirilən bir sıra uğurlu döyüş əməliyyatlarında fərqlənmişdir.

90-cı illərin əvvəlində hələ Milli Ordumuz formalaşmadığından respublikanın suverenliyinin, ərazi bütövlüyünün qorunmasında və torpaqlarımızın düşməndən müdafiə olunmasında əsas ağırlıq milis orqanları əməkdaşlarının və DİN-in Xüsusi Təyinatlı Milis Dəstəsinin üzərinə düşmüşdü. Həmin dövrdə erməni qəsbkarlarına tutarlı zərbələr vuran, düşmənin dilindən «Əsədov bandası» kimi düşməyən, bizlərinsə «OMON» kimi tanıdığımız DİN-



Azərbaycan Milli Kitabxanası

in Xüsusi Təyinatlı Milis Dəstəsinə (bu dəstə mərhum daxili işlər naziri, general Məhəmməd Əsədovun təşkilatçılığı ilə rəsmən 26 mart 1990-cı ildə yaradılmışdı. Milis mayoru (sonralar polis polkovniki) mərhum Əbil Hüseyn oğlu Rzayev onun ilk komandiri olmuşdur – İ.Ə.) könüllü olaraq birinci yazılanlardandı Valeh. Valeh Müslümov XTMD üçün göydəndüşmə idi. Mahir karateçi olan Valeh vaxtilə Sumqayıtda, Bakıda keçirilən həmin növ üzrə yarışlarda dəfələrlə fərqlənmişdi. İndi o «OMON»da olarkən neçə-neçə gənci cəsur və çevik, fiziki cəhətdən döyüş tələblərinə uyğun hazırlamışdı.

Hərbi texnikanın sirlərinə yaxından bələd olan Valeh bütün varlığı ilə həmişə ən təhlükəli və «qaynar nöqtələrə» can atırdı. Qubadlı bölgəsində Davudlu, Eyvazlı və Gürcülü kəndlərində erməni quldurları ilə gedən ağır döyüşlərdə Valeh Müslümov öz yüksək döyüşçülük qabiliyyətini nümayiş etdirmişdi. Füzuli rayonunun Hoğa kəndi uğrunda gedən qanlı döyüşlərdə erməni yaraqlıları həlak olmuş soydaşlarımızın meyitlərini götürməyə imkan vermirdilər. Düşmənin güclü müqavimətinə baxmayaraq, məhz Valeh ölümünü gözünün qabağına alaraq həlak olanlarımızı və yaralıları güllə yağışı altından çıxarmağa müvəffəq olmuşdu.

...Xocavənd rayonunun Çartaz kəndi ətrafında gedən döyüşlərdə də Valeh Müslümov öz şücaəti ilə düşməni heyrətdə qoymuş, gözlənilmədən şərab zavodunun iri çənləri üzərinə çıxaraq ermənilərin ağlına gəlməyən tərəfdən onların pulemyotunu sərrast atəşləri ilə susdurmuş, neçə-neçə yaraqlının meyitini yerə sərmişdi.

...Valeh daim ən çətin tapşırıqları yerinə yetirməyə can atardı. Bir dəfə Bərdədə təlim məşqləri zamanı Tərtər-Ağdərə istiqamətində düşmən mövqeləri barədə məlumat əldə etmək üçün «dil»ə gətirmək lazım idi. Valeh döyüşçü dostları ilə gecə Tərtərə bitişik olan Ağdərənin Marquşavan kəndinə gəlmiş, erməni keşikçisini oğurlayaraq səhər tezdən onu gətirib komandanlığa təhvil vermişdi. Valehin döyüşlərdə göstərdiyi şücaətəlr artıq düşmənin dilində hallanırdı. Ermənilər bu cəsur, şöhrətli «OMON»çunun başına 200 min manat məbləğində mükafat ayırmışdılar.

Cəsur «OMON»çu Valeh Müslümovun son döyüşü 1992-ci il



aprelin 14-də Ağdərənin Marquşavan kəndində olmuşdur. Həmin gün erməni silahlı birləşmələri güclü hərbi texnika və xeyli canlı qüvvə ilə Tərtərə hücum etmişdilər. Düşmənin qarşısına birinci «OMON»çular çıxmışdı. Milli Ordumuzun əsgərləri də köməyə gəlmişdilər. Bu qeyri-bərabər döyüşdə Valeh də öz dəstəsi ilə ölüm-dirim savaşında idi. Valeh həmin ağır döyüşdə həm düşmən nöqtələrini susdurur, həm də yaralanmış döyüş yoldaşlarını təhlükəsiz yerə çıxarırdı. Birdən döyüşçü dostu İlham Qayıbovun yaralanıb al qan içində çabaladığını görən Valeh öz həyatını riskə qoyaraq ona doğru süründü. İgid, qorxmaz «OMON»çu 12 quldluru məhv edərək İlhamı xilas etməyə nail oldu, ancaq özü də qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə yüksəldi.

Valehin Tərtərdə və ya Bakıda Şəhidlər Xiyabanında dəfn olunması təklifinə valideyinləri razı olmadılar. O, doğulduğu doğma Lerikdə torpağa tapşırılmışdır. Valeh subay idi. Xatirəsi əbədiləşdirilmişdir. Vaxtilə Lerikdə 8 il oxuduğu məktəb Valeh Müslümovun adını daşıyır. Lerik Polis Şöbəsində də onun xatirə güşəsi düzəldilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 5 iyun 1992-ci il tarixli 831 №-li Fərmanı ilə DİN XTPD-nin polis nəfəri, polis serjantı Müslümov Valeh Əlizaid oğlu «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına (ölümündən sonra) layiq görülmüşdür.

Azərbaycan Milli Kitabxanası



## NƏCƏFOV FƏXRƏDDİN VƏLİYƏDDİN OĞLU (1967-1992)

1967-ci il martın 31-də Bakı şəhərində anadan olmuşdur. Ancaq orta məktəbi Yevlax rayonunun Yeldili kəndində başa vurmuşdur. Orta məktəbdən sonra Bakı şəhər 2 nömrəli yanğınsöndürmə məntəqəsində işə düzəlmişdir. Bir müddət keçmiş ordu sıralarına hərbi xidmətə çağırılmışdı. Hərbi xidməti şimalda – uzaq Arxanqelsk şəhərində keçmişdir. Hərbi xidmətdən tərxis edilən Fəxrəddin, Xarkov Ali Yanğınsöndürmə Məktəbinə oxumağa göndərilmişdir. Təhsilini başa vurub leytenant rütbəsilə doğma Vətənə qayıtmışdır. Gənc mütəxəssis Bakıdakı 14 №-li yanğınsöndürmə məntəqəsində xidmət etsə də, erməni qəsbkarlarının Dağlıq Qarabağdakı vəhşilikləri onu rahatsız edirdi.

Odur ki, F.Nəcəfov 1991-ci ildə könüllü olaraq Goranboy cəbhəsinə yola düşmüşdü. O zaman Goranboy cəbhəsində düşmənlərlə qanlı döyüşlər gedirdi. Fəxrəddin Goranboyun Todan və Buzluq kəndlərinin yağı düşməndən azad edilməsi uğrundakı döyüşlərdə neçə-neçə ermənini cəhənnəmə vasil etmişdi.

...1992-ci ilin martında Fəxrəddin Nəcəfov AR DİN-in Daxili Qoşunlarına xidmətə girdi. İyun ayının əvvəllərində o, Ağdam cəbhəsinə yola düşdü. Bir neçə qanlı döyüşlərdə iştirak edən Fəxrəddin Ağdərə istiqamətindəki döyüşlərdən birində ayağından yaralandı. On gün DİN-in hospitalında müalicə olunduqdan sonra yenidən döyüşçü dostlarının yanına qayıdıb. Bu barədə heç valideynlərinin xəbəri də olmadı.

...Qarabağ torpaqlarında qanlı müharibə gedirdi. Döyüşlərdən birində ermənilər təyyarəmizi vurmuş, təyyarəçimiz məcbur olub paraşütlə düşmən ərazisinə tullanmışdı. F.Nəcəfovun komandir olduğu bölüyə belə bir çətin tapşırıq vermişdilər ki, təyyarəçimiz nəyin bahasına olursa-olsun xilas edilməli, düşmən əlinə keçməməlidir. Fəxrəddin çətinliklə də olsa, ağır yaralanmış təyyarəçimizi tapmış, lakin onunla geri dönərkən Canyataq kəndində düşmənlərin mühasirəsinə düşmüşdü.

Üç gün düşmənlə üz-üzə döyüşmüşdülər. Ermənilər qarşıdakı yüksəklikdə mövqe tutub Fəxrəddingilin irəliləməsinə imkan vermirdilər. Onların ərzağı da tükənmək üzrə idi. Yaralı təyyarəçinin də vəziyyəti getdikcə pisləşirdi. Fəxrəddin riskə gedib bir neçə cəsur əsgərlə sürünə-sürünə düşmənin arxasına keçdi. Əsgərlərdən biri çox təcrübəli və səriştəli idi. O, Əfqanıstan müharibəsində odalovdan keçib gəlmişdi. Onun təcrübəsi kara gəldi. Düşmən qərargahına yaxınlaşan Fəxrəddinlə döyüşçü dostu 3 nəfər erməni dığasını məhv etdilər. Onlar mühasirəni yarıb yaralı təyyarəçini sağsalamat hərbi hospitala çatdırdılar. Bu mürəkkəb əməliyyatı uğurla başa çatdırdığına görə Fəxrəddinə pul mükafatı və baş leytenant hərbi rütbəsi verilmişdi.

Növbəti döyüşlərdən birində Fəxrəddin Nəcəfov ağır yaralandı. İyirmi gün Bakıda DİN-in hospitalında müalicə olunandan sonra bədənindəki yaralar hələ tamam sağalmamış yenidən döyüş cəbhəsinə yollandı. Onun komandir olduğu bölük Çıldıran kəndinin düşməndən azad edilməsində böyük şücaət göstərdi. Lakin 1992-ci il sentyabrın 4-də cəsur komandir Fəxrəddin Nəcəfov gözündən ağır yaralanmış əsgəri qucağına alaraq atəş mövqeyindən uzaqlaşdırıb səngərə çəkərkən yuxarıda əlverişli yerdə gizlənmiş erməni snayperi onun başından vurmuş və igid döyüşçümüz çoxlu qan itirməsindən əbədi gözlərini yummuşdur.

Baş leytenant Fəxrəddin Nəcəfov 1992-ci il sentyabrın 6-da Bakıda Şəhidlər Xiyabanında dəfn olunmuşdur. O, evlənməyə hazırlaşırdı, nişanlı idi. Cəmi 25 il yaşayıb həyatdan nakam getdi. Fəxrəddinin xatirəsi əbədiləşdirilmişdir. Onun vaxtı ilə Yevlax rayonunun Yeldili kəndində oxuduğu məktəb qəhrəmanının adını daşıyır. Bakı şəhərində Nəsimi rayonundakı 266 nömrəli orta məktəbə Fəxrəddin Nəcəfovun adı verilmiş və onun həyətində büstü




Azərbaycan Milli Kitabxanası

qoyulmuşdur. Məktəbdə qəhrəman şəhid döyüşçünün həyat və fəaliyyətini əks etdirən zəngin guşə düzəldilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 6 noyabr 1992-ci il tarixli 290 №-li Fərmanı ilə DİN Daxili Qoşunların bölük komandiri, daxili xidmət baş leytenantı Nəcəfov Fəxrəddin Vəliyəddin oğlu «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına (ölümündən sonra) layiq görülmüşdür.



## NİFTƏLİYEV CƏMİL SƏMƏDXAN OĞLU (1966-1992)



1966-cı il oktyabrın 5-də Yardımlı rayonunun Şəfəqli kəndində anadan olmuşdur. 1973-cü ildə ailələri Bakıya köçüb, Qaradağ rayonunun Lökbatan qəsəbəsində məskunlaşmışdı. Cəmil Lökbatandakı 233 saylı orta məktəbə daxil olmuş (1976-cı il) və 1986-cı ildə oranı bitirmişdir. Orta məktəbdən sonra AR DİN-in Yanğından Mühafizə və Qəza Xilasetmə Baş İdarəsində (DİN YM və QXBİ) 4-cü Müstəqil Hərbiləşdirilmiş Yanğından Mühafizə Hissəsində əmək fəaliyyətinə başlamışdı. 1986-cı ildə oradan hərbi xidmətə yola düşmüşdür.

C.Niftəliyev hərbi xidmət illərini Əfqanıstanda keçirmiş, orada gedən müharibədə iştirak etmiş, döyüş əməliyyatlarında üç dəfə yaralanmış, ağır sınaqlardan çıxaraq mətinləşmişdi. 1989-cu ildə yenidən əvvəlki iş yerinə qayıtmışdır. Daxili xidmət serjantı rütbəsi vardı.

Bölmə komandiri vəzifəsinə irəli çəkilmiş Cəmil Niftəliyev 1992-ci il martın 10-da AR DİN YM və QXBİ tərəfindən yaradılmış 60 nəfərdən ibarət yanğın batalyonunun tərkibində döyüşən cəbhəyə Ağdam bölgəsinə yollanmışdı. Batalyon ezam olunduğu gündən Ağdamın Şelli kəndini erməni qəsbkarlarından müdafiə edirdi. Cəsur yanğınsöndürənlər məkrli düşmənin qarşısında dəyanətlə duraraq, qəhrəmanlıqlar göstərirdilər. Vətən torpaqlarının müdafiəsi uğrunda gedən döyüşlərdə Əfqanıstandakı müharibənin odlu-alovlu əməliyyatlarından çıxmış serjant C.Niftəliyev şəxsi şücaətləri ilə erməni təcavüzkarlarına sarsıdıcı zərbələr vuraraq, onlara əhəmiyyətli itkilər verirdi. Cəmil Niftəliyev qısa bir zamanda yenilməz döyüşçü hörməti qazanmışdı.

1992-ci il martın 29-u Cəmilin həyatında sonuncu gün oldu.

Azərbaycan Milli Kitabxanası

O, həmin gün ermənilərə qarşı aparılan əməliyyat zamanı düşmənin güclü müqavimətinə rast gəlmiş, öz döyüş dostları ilə birlikdə əlavə qüvvə gələnədək onların irəliləməsinə imkan verməmişdi. Lakin igid yanğınsöndürən son damla qanınadək düşmənə sinə sərmiş, al qan içərisində olmasına baxmayaraq düşmənin 7 nəfərini öldürmüş, 11 nəfərini isə yaraladıqdan sonra özü də yoldaşlarını döyüş meydanında tək qoymamış və qəhrəmancasına həlak olmuşdur. Bu hadisə Ağdamın Şelli kəndində baş vermişdir.

Daxili xidmət serjantı Cəmil Niftəliyev Bakıda Şəhidlər Xiyabanında dəfn edilmişdir. Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 №-li Fərmanı ilə daxili xidmət serjantı Niftəliyev Cəmil Səmədxan oğlu Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunması, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyini şəxsi igidlik və şücaətə görə «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına (ölümündən sonra) layiq görülmüşdür.



## RƏFİYEV FAİQ QƏZƏNFƏR OĞLU (1955-1992)



1955-ci il fevralın 22-də Füzuli rayonunun ermənilərlə həmsərhəddə yerləşən Saracıq kəndində anadan olmuşdur. Qaradağlı kənd orta məktəbini bitirdikdən sonra Ukraynada hərbi xidmət keçmişdir. Ordudan tərxis olunaraq Leninqrad (indiki Sankt-Peterburq) Ali Milis Məktəbini bitirən Faiq təyinatla uzaq Arxanqelsk vilayətinin Plisetski qəsəbəsində sahə müvəkkili vəzifəsində işləyirdi. Milis kapitanı rütbəsi almışdı.

Lakin Faiqi Vətən sevgisi özünə çəkirdi. Ermənilərlə həmsərhəd olan yaraşıqlı kəndlərinin, habelə başqa qonşu Qaradağlı, Güzdək, Çimənli, Arış və digər kəndlərimizin saqqalı daşnak yaraqlılarının həmlələrinə məruz qalıb yandırılması, dinc əhalinin qətlə yetirilməsi gözünün önündən bir an belə uzaqlaşmırdı. Vəzifəsini, rahat güzəranını, təzəcə sahmana saldığı ev-eşiyini buraxıb Vətənə gəldi. Əvvəlcə Tuğ kəndində ərazi milis bölməsində işə düzəldi. Sonra təcrübəli olduğunu nəzərə alıb onu döyüş zonası olan Xocavənd rayonunun Axullu ərazi milis bölməsinin rəisi təyin etdilər.

Milis kapitanı Faiq Rəfiyev gecəsini-gündüzünü döyüş səngərlərində keçirir, kəndlərimizin təhlükəsizliyini təmin etmək üçün ermənilərin hücumlarının qarşısını mərdliklə alır, düşmənləri irəliləməyə qoymurdu. Sərrast atıcı kimi də ad çıxarmış F.Rəfiyev bütün döyüşlərdə qəhrəmanlıq nümunəsi göstərirdi. 1992-ci il yanvarın 9-u Faiq Rəfiyevin həyatının son günü oldu. Həmin gün erməni yaraqlıları güclü hərbi texnikanın və xeyli silahlı qüvvənin köməkliyi ilə Füzulinin Qaradağlı kəndinə hücum edib onu yandırmağa başlamışdılar. Bu kənd Hadrutun lap yaxınlığında olan erməni Köçbəy kəndi ilə demək olar ki, bitişik idi. Kənddə cəmi 5 nə-



Azərbaycan Milli Kitabxanası

fər polis əməkdaşı və 7 nəfər də könüllü özünümüdafiə dəstəsinin üzvü vardı. Faiq paqon yoldaşları ilə özünü yetirəndə qızğın döyüş gedirdi. Füzuli RPŞ-nin əməkdaşları da köməyə gəlmişdilər. Kəndin ortasındakı postda Faiq sərrast atəşlə bizimkilərə aman verməyən bir erməni saqqallısını öldürüb düşmənin həmləsini zəiflətmişdi. Kənd od tutub yanırdı. Lakin Faiqgil yanan evlərin içərisindən keçib irəliləyirdilər. Birdən qonşu evlərdən birinin içərisindən atılan güllələr Faiqi ağır yaraladı. Döyüşçü dostları onu vuran ermənini qaçmaq istərkən dərhal məhv etdilər. Şiddətli döyüşdə ermənilər kənddən vurulub çıxarılsa da, igid milis zabiti Faiq Rəfiyev aldığı ölümcül yaralardan Qaradağlıya çatdırılan kimi dünyasını dəyişdi. Elə həmin kənddə də torpağa tapşırıldı. Ailəli idi. Füzuli RPŞ-nin şəxsi heyətinin gücü ilə şəhid polislərin xatirəsinə ucaldılmış abidənin üzərində igid polis zabiti Faiq Rəfiyevin də adı qızılı hərflərlə həkk olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 №-li Fərmanı ilə Xocavənd rayonu Axullu ərazi polis bölməsinin rəisi, polis kapitanı Rəfiyev Faiq Qəzənfər oğlu «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına (ölümündən sonra) layiq görülmüşdür.



## RÜSTƏMOV HİDAYƏT ELDAR OĞLU (1970-1991)



1970-cı ildə Ağdam rayonunun Xıdırlı kəndində anadan olmuşdur. Orta təhsilini kənd məktəbində almışdı. Orta təhsilini başa vurduqdan sonra orduda hərbi xidmətə yollanmışdır. Əsgərlikdən qayıdıb, 1991-ci ildə Ağdam Rayon Daxili İşlər Şöbəsinin Post-Patrul alayında milis nəfəri vəzifəsində xidmətə başlamışdır. Milis serjantı rütbəsi vardı.

Milis serjantı Hidayət Rüstəmovun qulluq etdiyi Post-Patrul Alayı erməni işğalçılarına qarşı şiddətli döyüşlər aparırdı. Ermənilər bu alayın cəsur, qorxmaz döyüşçülərindən çox çəkinirdilər. Onlardan biri də Hidayət Rüstəmov idi. Gənc milis kiçik komandiri alayın tərkibində müxtəlif döyüşlərdə iştirak etmişdi.

1991-ci il dekabrın 23-də Əsgəranın balaca Meşəli kəndində ölüm-dirim savaşı baş verdi. Hidayətgilin kəndini müdafiə edən kiçik dəstəsi özündən bir neçə dəfə üstün olan erməni yaraqlıları ilə qızğın döyüşə girmişdi. Hidayət evlərdən birində mövqe tutub dalbadal öz sərrast atəşlərilə düşməni yerə yatmağa məcbur edir, dinc əhalinin kəndi tərk etməsi üçün şərait yaradırdı. Nəhayət, ermənilər onun yerini müəyyənləşdirib evi mühasirəyə aldılar və Hidayətə təslim olmağı təklif etdilər. Hidayət onların təslim olmaq təklifini hər dəfə güclü cavab atəşi ilə qarşılayırdı. Belə olanda yaraqlılar Hidayətin alınmaz istehkama çevirdiyi evə od vurdular. İgid polis işçisi yenə də mübarizəni davam etdirdi. O, şərəfli ölümü təslim olmaqdan üstün tutdu. Onun ermənilərə verdiyi son cavab atəşi evin yanan tavanının uçaraq üstünə düşməsi ilə eyni vaxta düşdü. İyirmi iki yaşlı gənc polis əməkdaşı Vətən uğrunda canını qurban verdi.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 №-li Fərmanı ilə Ağdam RPŞ-nin Post-Patrul Alayının polis nəfəri, polis serjantı Rüstəmov Hidayət Eldar oğlu «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına (ölümündən sonra) layiq görülmüşdür.

Azərbaycan Milli Kitabxanası



## SALAHOV ŞAKİR ŞAMİL OĞLU
## (1966-1992)

1966-cı ildə Əsgəran rayonunun Cəmilli kəndində anadan olmuşdur. Orta təhsilini kəndlərində başlayıb Xankəndində davam etdirməklə başa vurmuşdur. 1984-1986-cı illərdə əsgərliyə getmişdir. Əsgərlikdən tərxis olunub qayıtdıqda artıq ermənilərin torpaq iddiaları şiddətlənmiş, Qarabağda vəziyyət kəskinləşmişdi. Bir qarabağlı kimi Şakir ermənilərin iç üzünə yaxşı bələd idi. O, ermənilərlə gec-tez üzləşəcəklərini yaxşı duyurdu. Onlarla mübarizə aparmaq üçün silah lazım idi. Bu imkana yiyələnməyin yolu isə milisə daxil olmaq idi.

Odur ki, Əsgəran RPŞ-də Cəmilli ərazi milis bölməsi yaradılanda könüllü həmin bölməyə milis nəfəri vəzifəsinə daxil oldu. Milis serjantı rütbəsi də almışdı.

Erməni millətçilərinin fitnə-fəsadlarına yaxşı bələd olan Şakir Salahov doğma kəndinin müdafiəsini bir an belə gözdən qoymurdu. 1992-ci il yanvarın 28-də erməni yaraqlıları Cəmillini və Kosalar kəndini mühasirəyə alanda dinc əhalini soyqırımı təhlükəsindən xilas etməyə ilk tələsənlərdən biri məhz Şakir idi. Lakin onun xüsusi tapşırıq üzrə Ağdamdan Şuşaya uçduğu vertolyotu pusquda duran ermənilər və onlara havadar olan rus əsgərləri Kosalar kəndi üzərində vurmuş, beləliklə, gənc milis əməkdaşı qəhrəmancasına həlak olmuşdu. Onun bu şücaəti diqqətdən kənar qalmamışdır.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 №-li Fərmanı ilə Əsgəran RPŞ-nin Cəmilli polis bölməsinin polis nəfəri, polis serjantı Salahov Şakir Şamil oğlu «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına (ölümündən sonra) layiq görülmüşdür.





## SEYİDOV MƏHƏRRƏM MİRƏZİZ OĞLU
## (1952-1990)

1952-ci ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Alışar kəndində anadan olmuşdur. 1959-69-cu illərdə Şərur rayonundakı N.Nərimanov adına orta məktəbdə təhsil almışdır. 1969-cu ildə orta məktəbi bitirib Ukraynanın Xerson şəhərində hərbi xidmət keçmişdir. Ordudan tərxis edildikdən sonra SSRİ DİN-in N.Rzayev adına Bakı Xüsusi Orta Milis Məktəbinə daxil olmuş, milis leytenantı xüsusi rütbəsi almışdır. Təyinatla Naxçıvan MR SSR DİN-in Şərur Rayon Daxili İşlər Şöbəsi yanında Mühafizə Şöbəsinin baş inspektoru vəzifəsinə təyin edilmişdir. Sonralar milis kapitanı rütbəsi almışdır.

Məhərrəm Seyidov həmişə qabaqcıl milis işçisi olmuşdur . Hələ 1980-ci ildə Moskva İdman Olimpiadasında ictimai asayişin mühafizəsində fərqləndiyinə görə mükafatlandırılmışdı. İşlədiyi dövrdə Naxçıvan Muxtar Respublikası Ali Sovetinin Fəxri Fərmanı ilə də təltif edilmişdi.

...Erməni təcavüzkarlarının Muxtar Respublikanın sərhəd rayonlarına hücumları başlanandan bəri Məhərrəmin gecəsi-gündüzü yox idi. Olduqca vətənpərvər bir insan olan M.Seyidov erməni qəsbkarlarına dərin nifrət bəsləyirdi. Ermənilər Sədərək rayonu hüdudunda neçə gündü canlı qüvvə toplayır, texnika çəkib gətirirdilər. 1990-cı il yanvarın 16-da 3 min nəfərdən ibarət erməni silahlı birləşmələri Kərki kəndini dağıdaraq evləri yandırmış, vəhşiləşmiş canilərin hücumuna tab gətirə bilməyən soydaşlarımız doğma yurdlarını tərk etməyə məcbur olmuşdular.

Düşmən Sədərək istiqamətində irəliləyirdi. Sayı 50 nəfər olan Sədərək müdafiəçiləri güclü silahlanmış erməni birləşmələri-

Azərbaycan Milli Kitabxanası

nin qarşısına çıxaraq müdafiə mövqeyi tutdular. Onların arasında şərurlu igid milis zabiti Məhərrəm Seyidov da vardı. Yanvarın 18-də döyüşlər daha da şiddətlənmişdi. Ermənilər Sədərəyi toplardan da atəşə tuturdular. Onların məqsədi vahimə salmaqla irəliləyib, əvvəlcə Sədərəyi, Şəruru, sonra da Naxçıvanı tutmaq idi. Lakin igid oğullarımız düşmənlə qüvvələr qeyri-bərabər olsa da, onları geri oturda bildilər. Düşmən canlı qüvvədə itki verərək geri çəkildi. Məhərrəm Seyidov həmin döyüşlərdə öz şücaəti ilə fərqləndi.

Lakin Sədərəyin müdafiəsi zamanı ölənlər və yaralanlarımız da olmuş, üstəlik milis kapitanı Azər Seyidov düşmənin mühasirəsində qalmışdı. Ermənilər onu diri tutmaq istəyirdilər. Azərin atası onun xilas edilməsini xahiş etdikdə qorxmaz zabit Məhərrəm Seyidov onu xilas etmək məqsədilə riskə getdi. Ermənilərin Azərə müraciətlə: - «Təslim ol!..., təslim ol!...» sözlərini eşidən Məhərrəm yaxınlaşaraq dərhal avtomatla onlara atəş yağdırdı. Bir neçə erməni yaraqlısı gülləsi qurtarmış Azərə çatmağa az qalmış yerə sərildi. Məhərrəm atəş aça-aça ucadan qışqırdı:

- Azər, mən onların qabağını kəsərəm. Haydı, sən geriyə yüyür, cəld ol!

Məhərrəm Azərin xilas olması üçün hər şeyi etdi. Təəssüf ki, paqon yoldaşını və döyüş dostunu xilas edib mühasirədən çıxaçıxda düşmən gülləsi Məhərrəmi yaxaladı. O, düşmənin güllə yağışı altında alqan içərisində təhlükəli yerdən uzaqlaşmağa can atırdı. Bu vaxt milis leytenantı Füzuli köməyə yetib onu qucağına aldı. Ömrünün hətta son anında belə dost qayğısına qalan Məhərrəm dedi: - «Füzuli, qardaşım, məni arxana götür, qucağında aparma, arxadan atırlar, qoy güllə dəysə də, mənə dəysin».

Məhərrəmi xəstəxanaya çatdıranadək o, çoxlu qan itirmişdi. İgid milis zabitini xilas etmək mümkün olmadı. Öz canı bahasına döyüşçü yoldaşını xilas etdi. Məhərrəm erməni təcavüzü başlanandan bəri həmişə öndə döyüşürdü. O, 1990-cı il yanvarın 19-da şaxtalı bir gecədə Vətən və dost yolunda şəhid oldu. Onu böyük izdihamla Şərurda Şəhidlər Xiyabanında dəfn etdilər. Naxçıvanlılar öz qəhrəmanlarının adına layiq mövzoley düzəltmişlər.



Milis kapitanı Məhərrəm Seyidovun dörd övladı – Rasim, Habil adlı iki oğlu, Ülviyyə və Şərqiyyə adlı iki qızı qalmışdır. Məhərrəm Seyidovun xatirəsi əbədiləşdirilmişdir. Şərurun mərkəzində onun tuncdan büstü ucaldılmışdır. Şərurdakı orta məktəblərdən biri onun adını daşıyır. Şərurda qəhrəman milis zabitinin adına küçə vardır. M.Seyidov Naxçıvan MR Polisinin ilk Milli Qəhrəmanı və həmçinin Respublikamız müstəqillik qazandıqdan sonra Azərbaycan polisi sıralarından Milli Qəhrəman adı verilmiş ilk əməkdaşlarındandır.

Azərbaycan Respublikası Prezidentinin 5 iyun 1992-ci il 831 №-li Fərmanı ilə Şərur RPŞ-nin baş inspektoru, polis kapitanı Seyidov Məhərrəm Mirəziz oğlu «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına (ölümündən sonra) layiq görülmüşdür.

Azərbaycan Milli Kitabxanası

## SƏFƏROV SƏRDAR MƏDƏT OĞLU (1960-1991)



1960-cı il avqustun 12-də Kəlbəcər qəsəbəsində qulluqçu ailəsində anadan olmuşdur. Orta məktəbi 1977-ci ildə bitirib kolxozda işləmişdir. 1979-1981-ci illərdə Rusiyada hərbi xidmət keçmişdir. Tərxis edilərək Bakıya qayıtmış, Xətai rayonundakı Avtomobil zavodunda fəhlə işləmişdir. Elə bu vaxtlar onda milisə daxil olmaq, xalqın asayişini qorumaq və cinayətkarlıqla mübarizə aparmaq arzusu oyanmışdır. Ancaq Bakıda buna nail olmadıqda Rusiyaya gedib Moskva yaxınlığındakı Zaqorsk şəhərində milisdə işə qəbul olunmuşdu.

Yaxşı xidmət göstərməsi diqqətdən yayınmamışdı. Odur ki, onu Litvanın Kaunas şəhərindəki Xüsusi Orta Milis Məktəbinə oxumağa göndərmişlər. 1987-ci ildə həmin məktəbi bitirib milis leytenantı xüsusi rütbəsi alan Sərdar yenidən köhnə iş yerinə – Zaqorsk şəhər DİI-yə qayıtmışdır. Bir müddət sahə müvəkkili vəzifəsində çalışmışdır.

80-ci illərin sonunda erməni təcavüzkarlarının torpaqlarımıza, o cümlədən doğma Kəlbəcərə basqınlarının güclənməsi və xalqımıza qarşı törətdikləri vəhşiliklər Sərdarı da bərk narahat edirdi. O, Vətənə can atırdı. 1991-ci ildə Azərbaycana dəyişilə bildi. Onu Qusar Rayon Daxili İşlər Şöbəsində boş olan sahə müvəkkili vəzifəsinə təyin etdilər. İşlədiyi rayonda hörmət qazansa da, rütbəsi artsa da, Sərdar Səfərov Qarabağa can atırdı. 1991-ci ilin sentyabrında Şuşa şəhərinə ezam olundu. Erməni qəsbkarlarına qarşı bir sıra əməliyyatlarda öz cəsurluğu ilə seçilən Sərdar Səfərov 1992-ci il sentyabrın 25-də Əsgərandan keçən avtobusun azərbaycanlı sərnişinlərinin erməni yaraqlılarının hücumuna məruz qaldığını eşidib əməliyyat-istintaq qrupunun tərkibində hadisə yerinə tələsmişdi.



Erməni quldurlarının qəfil hücumuna məruz qalmış sərnişinlərdən bir neçəsi həlak olmuş və bir neçəsi də yaralanmışdı. Cinayətkarları tapıb cəzalandırmaq lazım idi. Hadisə yerini təhqiq edib öz işini yekunlaşdırıb Şuşaya qayıdarkən Sərdargil Malıbəyli körpüsündən təxminən 200 metr aralı iki istiqamətdən pusquda durmuş erməni yaraqlılarının güclü atəşinə məruz qaldılar. Sərdar və yoldaşları cəld yerə atılıb döyüşə girdilər. Qüvvələr qeyri-bərabər idi. Ancaq onlar erməni əlinə diri düşməkdənsə ölümü üstün tutmuşdular.

Polis baş leytenantı Sərdar Səfərov yaralanmasına baxmayaraq, son gülləyə qədər vuruşdu, 3 erməni dığasını yerə sərib sərnişinlərin və yoldaşlarının intiqamını aldı, ancaq özü də sonda qəhrəmancasına həlak oldu. Sərdarın bacısının əri, hazırda Bakı şəhəri Qaradağ RPİ 38-ci Polis Bölməsinin rəisi, polis mayoru Şəhriyar Şəmşirli söhbətdə bildirdi ki, qaynının qəbri Kəlbəcərdə qalmışdır. Ailələri məcburi köçkün kimi Sumqayıtda məskunlaşmışlar. Sərdarın ölümündən sonra 1 qız yadigarı dünyaya gəlmişdir. Adını Sərdarə qoymuşlar. İndi orta məktəbdə təhsil alır. Atasının torpağı salıcan yaşasın! Sərdarə və bütün Kəlbəcərlilər öz qəhrəman əzizləri ilə fəxr edə bilərlər. Xalqımız Vətənin, torpağın yolunda canını qurban vermiş Sərdar Səfərov kimi oğullarının xatirəsini həmişə uca tutacaqdır.

Sərdar Səfərovun xatirəsi əbədiləşdirilmişdir. Bakının Xətai rayonunda Sərdarın vaxtilə yaşadığı küçəyə onun adı verilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 №-li Fərmanı ilə polis baş leytenantı Səfərov Sərdar Mədət oğlu «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına (ölümündən sonra) layiq görülmüşdür.

Azərbaycan Milli Kitabxanası

## TAĞIZADƏ ELDAR ABDULLA OĞLU (1963-1992)



1963-cü il sentyabrın 6-da Bakı şəhərində anadan olmuşdur. Orta məktəbi bitirib Bakı Dövlət Universitetinin biologiya fakültəsinə qəbul olmuşdur. Universiteti 1985-ci ildə fərqlənmə diplomu ilə qurtarmışdır. Daxili İşlər Orqanlarında 1988-ci ildən işləyirdi. Cinayət-Axtarışı üzrə Sverdlovskda (indiki Yekaterinburqda) ali kurslarda ixtisasını artırmışdı. 1992-ci ildən AR DİN-in Terrorizmə və Banditizmə Qarşı Mübarizə Üzrə Xüsusi İdarəsinin rəis müavini vəzifəsində çalışırdı. Polis kapitanı rütbəsinə malik idi.

Polis kapitanı Eldar Tağızadə çox qorxmaz bir zabit idi. O, Bakıda və respublikanın bir sıra rayonlarında qatı cinayətkar dəstələrin və qrupların zərərsizləşdirilməsində xüsusi xidmətlər göstərmişdi. 1992-ci il iyulun 3-də Eldar Tağızadə Bərdəyə növbəti əməliyyata yollanmışdı. Orada öz fəaliyyəti ilə əhalini qorxuda saxlayan «Şakan» ləqəbli qatı cinayətkarı zərərsizləşdirmək üçün Eldar əvvəlcə təkbətək söhbət aparmaq məqsədilə əliboş getməyi qərara almışdı. «Şakan»ın gizləndiyi ev müəyyən edilib mühasirəyə alınmışdı. Ona təslim olmaq təklif edildikdə cinayətkar polisləri atəşlə qarşılamışdı. Atışmanın insan tələfatına səbəb olacağından narahat olan əməliyyat rəhbəri E.Tağızadə «Şakan»ın atəşinə atəşlə cavab verməmişdi. O, fürsət tapıb cəsarətlə banditin daldalandığı otağın qapısına atılmış və özünü içəri salmışdı.

Eldar Tağızadə güman edirdi ki, qatil onun əllərinin boş olduğunu görüb silahı yerə atacaq. Amma belə olmadı. «Şakan» namərdlik edib Eldarın ürəyinə 2 güllə sıxdı. Atəş elə yaxın məsafədən açılmışdı ki, tapançanın lüləsi az qalırdı ki, öz qurbanının sinəsinə dirənsin. Əməliyyat rəhbərinin namərdliklə qətlə yetirildiyini



görən polislər «Şakan»ı məhv etməkdən başqa çarə tapmadılar. Bu, həm də igid polis zabiti Eldarın şəxsi intiqamının alınması demək idi.

Eldar Tağızadə Bakıda dəfn olunmuşdur. Həyatını qurban verən gündən 1 ay 3 gün sonra sentyabrın 6-da onun 29 yaşı tamam olacaqdı. Ailəli idi. İki övlad yadigarı qalmışdır.

Azərbaycan Respublikası Prezidentinin 3 sentyabr 1992-ci il tarixli 162 №-li Fərmanı ilə DİN-in Terrorizmə və Banditizmə Qarşı Mübarizə Üzrə Xüsusi İdarəsinin rəis müavini, polis kapitanı Tağızadə Eldar Abdulla oğlu «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına (ölümündən sonra) layiq görülmüşdür.

Azərbaycan Milli Kitabxanası



## TEYMUROV RİZVAN RƏHMAN OĞLU (1968-1991)

1968-ci ildə Şuşa rayonunun Quşçular kəndində müəllim ailəsində anadan olmuşdur. Orta məktəb təhsilini başa vurduqdan sonra ordu sıralarına çağırılmışdır. 1990-cı ildən Şuşa Rayon Daxili İşlər Şöbəsində (RDİŞ) Post-Patrul rotasında milis nəfəri kimi xidmət edirdi. Milis straşinası idi.

Rizvan Teymurov erməni yaraqlılarına qarşı döyüş əməliyyatlarında qorxmaz milis əməkdaşı kimi ad çıxarmışdı. Böyük qardaşını onun toyu günü Xankəndində ermənilər müəmmalı şəkildə qətlə yetirmişdilər. Rizvan dərin nifrət bəslədiyi düşməndən nakam qardaşının və başqa soydaşlarımızın intiqamını alacağına And içmişdi. Odur ki, könüllü Şuşa RDİŞ-in Post-Patrul xidməti rotasına işə qəbul olunmuşdu. Rizvan Teymurov bir müddət xüsusi əməliyyat qrupunun tərkibində Xankəndində erməni təxribatçılarının yaxalanmasında fəal iştirak etmiş, ən çətin və həyat üçün təhlükəli tapşırıqları şücaətlə yerinə yetirmişdi…

…Milis starşinası Rizvan Teymurov son döyüşünü 1991-ci il dekabrın 8-də Xankəndinin lap yaxınlığındakı Kərkicahan qəsəbəsində erməni yaraqlıları ilə keçirmişdir. Demək olar ki, Xankəndinə bitişik bu kəndi ermənilər xeyli müddət idi ki, nə ala bilir, nə də azərbaycanlı əhalisini oradan çıxara bilirdilər. Kərkicahan həm də Qarabağın döyünən ürəyi Şuşaya gedən yolun açarı idi. Buna görə də erməni-rus hərbi birləşmələri nəyin bahasına olursa-olsun Kərkicahanı almağa cəhdlər edirdilər. Bəzən bizimkilərlə əlbəyaxa səviyyəyə gəlib çatan qızğın döyüşlər günlərlə davam edirdi…

…Dekabrın 8-i qışın sərt günlərindən biri idi. Rizvangilin dəstəsi yenə Xankəndi tərəfdəki mərkəzi mövqeyi qoruyurdular. Lakin şiddətli döyüşlərdə onların sıraları getdikcə seyrəlmiş, döyüş



və ərzaq sursatları tükənmişdi. Buna baxmayaraq, igid döyüşçülərimiz mövqelərini tərk etməmiş, axrıncı gülləni özlərinə saxlayaraq, düşmənlə son vuruşmada xeyli erməni məhv edərək özləri də qəhrəmancasına həlak olmuşdular. Onların içərisində Rizvan da vardı.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 №-li Fərmanı ilə Şuşa RPŞ-nin Post-Patrul Xidməti rotasının polis nəfəri, polis stranşinası Teymurov Rizvan Rəhman oğlu «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına (ölümündən sonra) layiq görülmüşdür.



Azərbaycan Milli Kitabxanası

## ŞAHVERDİYEV İSRAFİL ŞAHVERDİ OĞLU (1952-1994)



1952-ci il iyunun 1-də Laçın rayonunun Unannovu kəndində anadan olmuşdur. Orta məktəbdən sonra 1972-1974-cü illərdə Sovet Silahlı Qüvvələrində hərbi xidmət keçmişdir. 1975-ci il fevralın 10-dan daxili işlər orqanlarında çalışırdı. Ali təhsil almışdı. Polis baş leytenantı rütbəsi vardı. Sonuncu iş yeri Laçın Rayon Polis Şöbəsində Post-Patrul xidməti batalyonunda tağım komandiri vəzifəsi idi.

Torpaqlarımızın erməni işğalçılarından müdafiə edilməsində və yaraqlılara qarşı döyüş əməliyyatlarında yaxından iştirak etmiş Şahverdiyev İsrafil 1994-cü il yanvarın 13-də Füzuli rayonunun Horadiz kəndində gedən qanlı vuruşmada qəhrəmanlıqla həlak olmuşdur. Ailəli idi.

Azərbaycan Respublikası Prezidentinin 15 yanvar 1995-ci il tarixli 262 №-li Fərmanı ilə Laçın RPŞ-nin Post-Patrul xidməti batalyonunun tağım komandiri, polis baş leytenantı Şahverdiyev İsrafil Şahverdi oğlu «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına (ölümündən sonra) layiq görülmüşdür.





## ŞÜKÜROV ŞAHLAR ƏVƏZ OĞLU (1952-1990)



1952-ci ildə Kəlbəcər rayonunun Zülfüqarlı kəndində ziyalı ailəsində anadan olmuşdur. Orta məktəbdən sonra Dadaş Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirmişdir. 70-ci illərdə Sovet Ordusu sıralarında hərbi xidmət keçmişdir. Ordudan tərxis edildikdən bir müddət sonra Bakı şəhərində milis orqanları sıralarına qəbul olunmuşdu. SSRİ DİN Akademiyasında oxuyub ali hüquq təhsilinə yiyələnmişdi. Azərbaycanın bir sıra kənd rayonlarında da müxtəlif vəzifələrdə çalışmışdır.

1987-ci ildən Zərdab Rayon Daxili İşlər Şöbəsində rəis müavini vəzifəsində işləyirdi. Milis mayoru rütbəsinə yüksəlmişdi. Qarabağda erməni qəsbkarlarına qarşı döyüş əməliyyatlarında S.Şükürov cəsarətli, mərd və çətin vəziyyətdən düzgün baş çıxaran milis zabiti kimi ad çıxarmışdı.

Milis mayoru Şahlar Şükürovun son döyüşü 1990-cı il iyulun 11-də Ağdərə rayonu ərazisində olmuşdur. Həmin gün o, başçılıq etdiyi milis dəstəsi ilə birlikdə Kəlbəcərə ərzaq, zəruri məişət malları, rayonun müdafiəçiləri üçün silah-sursatla dolu böyük maşın karvanını müşayiət edirdi. Şahlar çoxillik təcrübəsindən yəqin bilirdi ki, avtomobil karvanının keçdiyi qalın meşəli, kolluqlu yollarda ermənilər mütləq pusqu quracaqlar. Yolboyu hökm sürən səssizliyin də nisbi və aldadıcı olduğuna əmin idi. Ağıllı zabit yanılmamışdı.

...Qalın kolluqlu döngələrdən birində xüsusi hazırlıq keçmiş erməni yaraqlıları qəfil hücumla əvvəlcə karvanda öndə gedən maşını sıradan çıxarıb Şahlargili tələyə saldılar. Şahlar və döyüş yoldaşları özlərini itirməyib dairəvi müdafiə qurdular. Şiddətli döyüş



Azərbaycan Milli Kitabxanası

gedirdi. Ermənilər nəyin bahasına olursa-olsun mühafizə dəstəsini girov götürməklə karvanı ələ keçirməyə çalışırdılar. Ancaq mayor S.Şükürov döyüşün ən təhlükəli yerlərində görünür və cəsarəti, sücaəti ilə döyüş yoldaşlarını ruhlandırırdı.

Ermənilərin sayca üstün təxribat qrupu milislərdən ibarət igid mühafizəçilərimizin müqavimətini qıra bilməyərək itki verib geri çəkilməyə məcbur oldular. Amma döyüşdə bizimkilərdən də 24 nəfər yaralanmış, 3 nəfər isə qəhrəmancasına şəhid olmuşdu. Şəhid olanlardan biri də cəsur polis mayoru Şahlar Əvəz oğlu Şükürov idi. Şahlar ailəli idi.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 №-li Fərmanı ilə Zərdab RPŞ-nin rəis müavini, polis mayoru Şükürov Şahlar Əvəz oğlu «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına (ölümündən sonra) layiq görülmüşdür.



## YƏHYAYEV ELŞAD MƏMMƏDHƏNİFƏ OĞLU (1966-1992)



1966-cı ildə Şəkidə dünyaya göz açmışdır. Şəki şəhərindəki 12 saylı orta məktəbdə oxuyurdu. Lakin valideynləri Bakıya köçdüyündən o, təhsilini burada davam etdirməli olmuşdu. 1983-cü ildə Bakıda Xətai rayonundakı 56 saylı orta məktəbi əla qiymətlərlə başa vurmuşdur. Arzusu əvvəlcə həkim, yaxud hüquqşünas olmaq idi. Lakin tale elə gətirdi ki, o, hərbiçi olub torpaqlarımızı yağılardan qorudu.

E.Yəhyayev orta məktəbdən sonra hərbi xidmətə yollanmışdır. Tərxis edilib gəldikdə valideynlərdən hərbçi olmağa rüsxət almış və bu məqsədlə 1987-ci ildə SSRİ DİN Daxili Qoşunlarının F.Dzerjinski adına Qırmızı Bayraqlı Saratov Ali Komandirlər Məktəbinə daxil olmuşdu. Məktəbi bitirdikdə Vətənə gəlmək istəsə də, onun təyinatını Qazaxıstanın paytaxtı Alma-Ata (indi Alma-atı - İ.Ə.) şəhərindəki hərbi hissələrdən birinə vermişdilər. Ancaq bu xidmət onun ürəyincə deyildi. Darda olan Vətənə köməyə can atırdı Elşad.

Nəhayət, xeyli əzab-əziyyətdən sonra Azərbaycana dəyişilə bildi. O, AR DİN-in Daxili Qoşun hissələrindən birinə qəbul olunub bölük komandiri kimi xidmətini davam etdirməyə başladı. Onun ilk döyüş yolu Ağdamın Papravənd kəndindən başlandı. Elşad düz 42 gün öz yoldaşlarıyla kəndi erməni yaraqlılarından qorudu. Daha sonra Yeni Qaralar və Sırxavənd kəndləri uğrunda döyüşlərdə qəhrəmanlıqla vuruşdu. Həmin döyüşlərdən birində onun bölüyü mühasirəyə düşmüşdü. Savadlı və hərbi taktikadan yaxşı baş çıxaran komandir dəstəni mühasirədən çıxarıb 9 saat meşə ilə gedib özümüznkülərə qoşulmuşdu.

Ağdamın Qalayçılar kəndində kəşfiyyata gedən E.Yəhyayev

Azərbaycan Milli Kitabxanası

uğurla və qiymətli məlumatla geri dönmüşdü. Lakin 1992-ci il iyunun 17-də Yeni Qaralar kəndi uğrunda gedən döyüşdə Elşad başından yaralanmış, dostları onu hospitala çatdırmışdılar. Buna baxmayaraq, müalicəni yarımcıq qoyub yenidən döyüşə getmişdi.

...Baş leytenant Elşad Yəhyayev iriçaplı pulemyotdan məharətlə atəş açaraq düşmənə xeyli təlafat vermişdi. Qəfildən yaralanan və onu səsləyən döyüşçü yoldaşlarından birinin köməyinə tələsən Elşad təəssüf ki, özü də azğın düşmənin gülləsinə tuş gəlmiş, sinəsindən aldığı ağır yaralardan keçinmişdir. Bu hadisə 1992-ci il iyunun 19-da Ağdamın Aranzəmin kəndi yaxınlığında baş vermişdir. Elşad Yəhyayev 1992-ci il iyunun 21-də Bakıda Şəhidlər Xiyabanında dəfn edilmişdir. Subay idi. Xatirəsi əbədiləşdirilmişdir. Vaxtilə Xətai rayonunda oxuduğu 56 saylı orta məktəbə E.Yəhyayevin adı verilmiş və məktəbin həyətində onun büstü ucaldılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 №-li Fərmanı ilə DİN Daxili Qoşunlarının bölük komandiri, daxili xidmət baş leytenantı Yəhyayev Elşad Məmmədhənifə oğlu «Azərbaycanın Milli Qəhrəmanı» fəxri adına (ölümündən sonra) layiq görülmüşdür.



## MİNNƏTDARLIQ

*Kitaba dair bioqrafik məlumatların və materialların toplanmasında, dürüstləşdirilməsində və çap üçün hazırlanmasında mənə yaxından köməklik göstərmiş Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Kadrlar İdarəsinin Xidmətkeçmə Şöbəsinin baş inspektoru, polis mayoru Yeganə Məmmədovaya və onun həmkarlarına, DİN-in Şəxsi Heyətlə İş İdarəsinin Şəxsi Heyətin Sosial Müdafiəsi Şöbəsinin rəisi, polis polkovniki Turab Mehdiyevə, həmin şöbənin baş inspektoru, polis polkovnik-leytenantı Fuad Məlikova, DİN-nin Kriminalistik Tədqiqatlar İdarəsinin mühüm işlər üzrə baş inspektoru-kriminalisti, polis polkovnik-leytenantı Çingiz Ağayevə, həmin idarənin mütəxəssisi Salman Babayevə, DİN Mətbuat Xidmətinin kiçik inspektoru, polis baş serjantı Sevinc Məmmədovaya və İlham Abbasova öz dərin minnətdarlığımı bildirirəm.*



Azərbaycan Milli Kitabxanası

## MÜNDƏRİCAT


Müəllifdən ....................................................4

Azərbaycan Respublikası Daxili İşlər Orqanları Milli Qəhrəmanlarının bioqrafik siyahısı (əlifba düzülüşü üzrə):

Abbasov Mehdi Yusif oğlu ....................................................9
Abdullayev Rövşən Əbdülhüseyn oğlu ....................................................11
Ağayev Faiq Alış oğlu ....................................................12
Allahverdiyev Bəxtiyar Ərzulla oğlu ....................................................13
Allahverdiyev Namiq Müslüm oğlu ....................................................14
Arazov Ənvər Talış oğlu ....................................................15
Aslanov Şikar Davud oğlu ....................................................16
Babayev Əjdər Xalıqverdi oğlu ....................................................17
Cəbrayılov Mikayıl Əhmədiyyə oğlu ....................................................18
Cirinqov Ramazan Heybullah oğlu ....................................................19
Çobanov Şamoy Məhyəddin oğlu ....................................................20
Eyvazov Qorxmaz Abış oğlu ....................................................21
Əhmədov Natiq İlyas oğlu ....................................................22
Əkbərov Akif Abbas oğlu ....................................................23
Əliyev İlham Müzəffər oğlu ....................................................24
Əliyev İmamverdi Barat oğlu ....................................................25
Əliyev Vasili Əhməd oğlu ....................................................26
Əliyev Yusif Əliyusif oğlu ....................................................27
Əsədov Malik Hamil oğlu ....................................................29
Fərəcov Ənvər Səyyad oğlu ....................................................30
Fərzəliyev Pəhləvan Əhliman oğlu ....................................................32
Güləliyev Oqtay Güləli oğlu ....................................................34
Hacıyev Əlif Lətif oğlu ....................................................36
Həsənov Eldar İsfəndiyar oğlu ....................................................39
Həsənov Tabil Qasım oğlu ....................................................40
Həsənov Səyavuş Həsən oğlu ....................................................41
Həsənov Tahir Tofiq oğlu ....................................................42
Hüseynov Elşad Eynulla oğlu ....................................................43
Hüseynov Sadıq Dayandur oğlu ....................................................44
Hüseynov Vüqar Tofiq oğlu ....................................................45
Xəlilbəyli Təbriz Xəlil Rza oğlu ....................................................47





İbrahimov Nurəddin İslam oğlu ....................................................49
İsmayılov İlqar Sədi oğlu ....................................................51
İsmayılov İnqilab Ələkbər oğlu ....................................................53
Kovalyov Yuri Petroviç ....................................................54
Quliyev Mədət Qəzənfər oğlu ....................................................56
Quliyev Mətləb Kamran oğlu ....................................................59
Quliyev Nazim Qabil oğlu ....................................................61
Quliyev Mirzə Məcid oğlu ....................................................63
Quliyev Nofəl Zahid oğlu ....................................................65
Makeyev İqor Vladimiroviç ....................................................67
Mehdiyev Fazil Umud oğlu ....................................................68
Məhərrəmov Səxavət Əlamdar oğlu ....................................................69
Mədətov Fariz Əlövsət oğlu ....................................................71
Məmmədov Aytəkin İsrafil oğlu ....................................................72
Məmmədov Əli Hüseyn oğlu ....................................................74
Məmmədov Kazım Ərşad oğlu ....................................................75
Məmmədov Mövsüm Şahin oğlu ....................................................76
Məmmədov Nizami Murad oğlu ....................................................77
Məmmədov Sahil Ələmdar oğlu ....................................................78
Məmmədov Səfəralı Qurban oğlu ....................................................80
Mirzəyev Kərəm Ərşad oğlu ....................................................83
Muradov Ruslan Həmid oğlu ....................................................85
Mürsəlov Vüqar Mirəzbər oğlu ....................................................86
Müslümov Valeh Əlizaid oğlu ....................................................87
Nəcəfov Fəxrəddin Vəliyəddin oğlu ....................................................90
Niftəliyev Cəmil Səmədxan oğlu ....................................................93
Rəfiyev Faiq Qəzənfər oğlu ....................................................95
Rüstəmov Hidayət Eldar oğlu ....................................................97
Salahov Şakir Şamil oğlu ....................................................98
Seyidov Məhərrəm Mirəziz oğlu ....................................................99
Səfərov Sərdar Mədət oğlu ....................................................102
Tağızadə Eldar Abdulla oğlu ....................................................104
Teymurov Rizvan Rəhman oğlu ....................................................106
Şahverdiyev İsrafil Şahverdi oğlu ....................................................108
Şükürov Şahlar Əvəz oğlu ....................................................109
Yəhyayev Elşad Məmmədhənifə oğlu ....................................................111

Minnətdarlıq ....................................................114




Azərbaycan Milli Kitabxanası

Yığıma verilib: 27.04.05.
Çapa imzalanıb: 05.05.05.
Qarnitur Times.
Format 60x84 1/16. Həcmi 7,25 ç.v.
Tiraj 1000. Sifariş 64.

«Mütərcim» TM
Bakı, Rəsul Rza küç., 125
tel./faks (99412) 499 21 44
e-mail: mutarjim@mail.ru

Azərbaycan Milli Kitabxanası



**Əliyarlı İltifat Musa oğlu**

*1949-cı ildə Beyləqan rayonunun I Şahsevən kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir. Beyləqan rayonunda müəllim, Azərbaycan MEA-nın A.Bakıxanov adına Tarix İnstitutunda elmi işçi vəzifələrində çalışmışdır. Azərbaycan SSR DİN-də «Milisin şöhrət zalı»nın təşkilinə məsləhətçi kimi cəlb olunmuşdur. 1990-cı ildə milis tarixi üzrə respublikada ilk dəfə olaraq dissertasiya müdafiə edərək, tarix elmləri namizədi alimlik dərəcəsi almışdır.*

*İ. Əliyarlı 1996-cı ilin yanvarından AR DİN-in «Mübariz keşikdə» qəzetinin əməkdaşıdır. Dövrü mətbuatda, radio və televiziyada çıxışlarla yanaşı, Azərbaycan milisi və polisi, bütövlükdə daxili işlər orqanlarının tarixinə və fəaliyyətinə dair tədqiqatlarla da məşğul olur. İndi İ.Əliyarlı qüvvədə olan 2 iyul Azərbaycan polisi gününün də müəyyənləşdirilməsində yaxından iştirak etmiş və buna dair DİN Polis Akademiyasının dosenti, tarix elmləri namizədi polis polkovniki Tahir Behbudovla birlikdə «Müstəqil Azərbaycan polisinin yaranması və fəaliyyəti (1918-20-ci illər)» adlı xüsusi monoqrafiya yazmışdır. 2003-cü ildə İ.Əliyarlının yenə T.Behbudovla müştərək «Azərbaycan daxili işlər orqanlarının tarixi. Ensiklopedik soraq kitabı (xronoloji toplu. 1840-2003-cü illər) nəşr olunmuşdur. Hazırda o, «Müstəqil Azərbaycan Respublikası daxili işlər orqanlarının formalaşması və fəaliyyəti (1991-2005-ci illər)» adlı doktorluq mövzusu üzərində çalışır.*